# Xalq qəzeti

Xalqın qəzeti!

№ 82 (30486) 24 aprel 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Heydər Əliyevin Kremlə əzəmətli qayıdışı



Səhifə ⇨ 5

## “COP29 və Azərbaycan üçün Yaşıl Baxış”




Səhifə ⇨ 2

## Sülh dirəkləri – separatizmin tabutuna vurulan mismarlar



Səhifə ⇨ 2

## Ərdoğan Ermənistana “fürsət pəncərəsi” açıb

### Yaxud Türkiyə lideri İrəvana hansı xəbərdarlığı çatdırdı?



**Hər il olduğu kimi, 2024-cü ilin bu günündə də dünya erməniləri qondarma “erməni soyqırımı”nın növbəti ildönümünü qeyd edirlər. Əlbəttə, əvvəlki aktivlikdən əsər-əlamət yoxdur. Hər bir halda, bu ərəfədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistana ünvanlanmış mesajları maraq doğurmaya bilməz. Cənab Ərdoğan nələrdən söz açıb, məlumat verəcəyik. Hələlik isə bəzi məsələlərin üzərində dayanaq. Əlbəttə ki, söhbət qondarma “soyqırımı” iddiası ilə bağlı diqqətçəkən nüanslardan gedir.**

Məlum olduğu kimi, baş nazir Nikol Paşinyan və onun administrasiyasının təmsilçiləri mövzuya bir qədər fərqli yanaşırlar. Şübhəsiz, bu yanaşma heç də Ermənistan rəhbərliyində yer alanların ürəklərincə deyil. Tam aydındır ki, onlar məcburiyyət qarşısında qalıblar. Axı Türkiyə ilə normallaşma xətti İrəvan üçün qaçılmazdır.

Yeri gəlmişkən, mövcud reallığı özünü 44 günlük müharibədən sonra göstərməyə başlamışdı. Müharibə başa çatar-çatmaz Azərbaycan məğlub Ermənistana sülh üçün əl uzatdığı kimi, Ankara da münasibətlərin normallaşması məsələsində İrəvana eyni jesti etmişdi. Mövcud istiqamətdə konkret addımlar da atılmış, İstanbul–İrəvan hava reysi işə düşmüşdü. Sonrakı mərhələdə Türkiyə–Ermənistan quru sərhədlərinin üçüncü ölkələrin vətəndaşları və diplomatik pasport daşıyan şəxslər üçün açılması ilə bağlı razılıq da əldə edilmişdi. Ümumən, Ankara–İrəvan münasibətləri baxımdan bir sıra konturlar müəyyənləşmişdi ki, bütün bunlar hadisələrin müsbət məcradakı davamının gələcəyinə dair müsbət qənaət formalaşdırırdı.

Lakin ötən müddətdə Ermənistan rəhbərliyinin kövrək olan normallaşma xəttinə sadiq qalmadığını gördük. Rəsmi İrəvan Azərbaycana qarşı avantürizmini davam etdirdi ki, bu amil istər-istəməz Ermənistan–Türkiyə normallaşması baxımından qeydə alınan müsbət dinamikanı sıradan çıxardı. Elə hazırkı durum da perspektivə pozitiv yanaşmaq üçün əsas vermir. Hərçənd, Ermənistan hakimiyyətinin yuxarıda haqqında söz açdığımız məcburiyyət amili aktualdır.

*(ardı 4-cü səhifədə)*

## Müştərək xəyanət



Səhifə ⇨ 3

## “Əsrin müqaviləsi”nin “Dərinsulu Günəşli” zirvəsi



Səhifə ⇨ 7

## Bakı Beynəlxalq Dəniz Limanı – Şərqdən Qərbə su qapısı



Səhifə ⇨ 7

## Səkilərə kim sədd çəkib?..



Səhifə ⇨ 11

## Paşinyanın etirafı: inanaq, inanmayaq?

### Ermənistan baş naziri Qarabağa görə müharibəyə hazırlaşmadığını bəyan etdi



**Ermənistanda siyasi ehtiraslar soyumaq bilmir. Səbəbi məlumdur. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın səkkizinci görüşünün yekunları üzrə əldə edilən razılaşmalar erməni cəmiyyətində müxtəlif siyasi qüvvələri baş nazirə qarşı hərəkətə gətirib.**

Baş nazir Nikol Paşinyan eyni vaxtda həm parlamentin müxalif fraksiyalarına, xaricdən təlimatlandırılan ekslərin bəyanatlarına, həm də tavuşluları ona qarşı qaldıran separatçılara cavab vermək məcburiyyətində qalıb. Onun sülh istiqamətində atdığı addımları həzm edə bilməyən müxalif düşərgə əhalini kütləvi aksiyalara, “İstefa!” tələbi ilə küçələrə çıxmağa çağırır. Amma baş nazirin Azərbaycanın dörd kəndi ilə bağlı məlum qərarından sonra baş verəcəklərə heç də hazırlıqsız olmadığı görünür.

#### Özbaşına buraxılmış “müxalifət”

“Ermənistan Dağlıq Qarabağ uğrunda müharibə aparmaq fikrində deyil”. Bunu Ermənistan baş naziri Nikol Paşinyan ingilis jurnalistlərə onlayn müsahibəsində deyib. Bu barədə hökumətin mətbuat katibi Nazeli Baqdasaryan özünün “Facebook” səhifəsində paylaşım edib.

Bir qrup vətəndaş Tavuşdakı vəziyyətlə əlaqədar Ermənistan hökumətinin binası qarşısında etiraz aksiyası keçirib. Etirazçılar Paşinyana qarşı şüarlar səsləndiriblər: “Sizin torpaq vermək, ölkəni təhlükəyə atmaq, bizə xəyanət etmək, Vətəni təslim etmək mandatınız yoxdur! Postunuzu tərk edin!”. Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanla iki saatlıq görüşdən sonra hökumət binasını tərk edən Tavuş vilayətinin kənd icma başçıları az sonra yenidən binaya qayıdıblar. “Armenpress”in məlumatına görə, bu dəfə icma başçılarını Paşinyan özü qəbul edib. Görüşün nəticələri ilə bağlı məlumat verilməyib.

*(ardı 4-cü səhifədə)*

# “COP29 və Azərbaycan üçün Yaşıl Baxış”

## Prezident İlham Əliyev ADA Universitetində keçirilən forumda iştirak edib




**Aprelin 23-də ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forum keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumda iştirak edib və tədbir iştirakçılarının suallarını cavablandırıb.

Əsas diqqəti COP29-a yönəldən Prezident İlham Əliyev bu mötəbər tədbirin Azərbaycanda keçirilməsinin önəmindən danışaraq deyib: “COP29 haqqında danışsaq, əlbəttə ki, bu, Azərbaycana olan beynəlxalq ictimaiyyətin böyük hörmət və dəstəyinin təzahürüdür. İqlim dəyişiklikləri məsələlərinin həlli baxımından biz, həqiqətən, istərdik ki, COP29 uğurla keçsin”.

COP29-un Azərbaycan üçün fürsət olacağını diqqətə çatdıran Prezident İlham Əliyev bildirib: “Bizim dünyaya söyləyəcəyimiz məsələlər çoxdur. Həqiqəti söyləmək imkanımız var. Hesab edirəm, ev sahibi ölkə olmağın üstünlüklərindən biri ondan ibarətdir ki, biz on minlərlə insanı qəbul edəcəyik. Onların əksəriyyəti ölkəmizə ilk dəfə səfər edəcək. Biz öz sədrliyimizə nəinki özümüzü nümayiş etdirmək, həm də ölkəni təqdim etmək fürsəti kimi baxırıq. Əslində, bu vacibdir. Biz buna həm də ən təxirəsalınmaz məsələlərin həllinə qlobal aləmdə töhfə vermək fürsəti kimi baxırıq”.

Ölkəmizin iqtisadi uğurları barədə məlumat verən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır və hətta böhran vəziyyətində də dayanıqlı artım göstərib. Prezident İlham Əliyev Azərbaycanın xarici borcunun çox aşağı – hətta hazırda ümumi daxili məhsulun 8 faizindən də az olduğunu diqqətə çatdırıb.

Regionda sülhün əldə olunması üçün atılan addımlardan danışan Prezident İlham Əliyev qeyd edib: “Hazırda unikal şans yaranıb. Biz bundan məhrum olmuşduq. SSRİ süqut etdiyi zaman sülh şəraitində öz müstəqil həyatına başlamış Baltik dövlətlərindən fərqli olaraq, bizim bölgədə müharibələr gedirdi. İndi həmin səhifəni çevirmək şansı yaranıb. Biz bunu edirik”.

Dövlətimizin başçısı bu prosesdə COP29-un əla fürsət olduğunu vurğulayıb. Bildirib ki, COP29 üç Cənubi Qafqaz ölkəsi arasında ən azı məsləhətləşmələri aparmaq üçün fürsət yaradacaq və gələcək əməkdaşlığa yol açacaq.

Bölgədə sabitliyin pozulması cəhdlərinə də toxunan dövlətimizin başçısı vurğulayıb: “Fransa, Hindistan və Yunanıstan Ermənistanı bizə qarşı silahlandırır, biz oturub gözləyə bilmərik. Özü də onlar bunu açıq və nümayişkaranə şəkildə edirlər və hətta çalışırlar ki, bununla bizə nəyi isə sübuta yetirsinlər. Biz, sadəcə, oturub gözləyə bilmərik. Biz bu mövqeyi açıq şəkildə Ermənistan hökumətinə və bu gün Ermənistanın qayğısına qalmağa çalışan tərəflərə bildirmişik. Əgər özümüzə ciddi təhdid görsək, biz ciddi tədbirlər görməli olacağıq”.

***

Qeyd edək ki, forumda 30 ölkədən 70-dək ekspert iştirak edib ***(Forum haqqında daha geniş material veriləcək).***

***AZƏRTAC***

# Azərbaycan–Rusiya münasibətlərinin inkişafına töhfə

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də Rusiyada işgüzar səfərdə olub. Azərbaycan Prezidentinin köməkçisi – Azərbaycan Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev səfərin nəticələrinin qiymətləndirilməsi ilə bağlı APA-nın sualını cavablandırıb.**

**– Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri oldu. Səfərin nəticələrini necə qiymətləndirirsiniz?**

– Azərbaycan tərəfi bu səfərin nəticələrini çox müsbət qiymətləndirir. Qeyd edim ki, səfər Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin ruhunda keçdi. Səfər çərçivəsində dövlət başçıları ikitərəfli gündəliyə aid olan məsələləri geniş müzakirə etdilər. Bura Azərbaycanla Rusiya arasında siyasi, iqtisadi-ticarət əlaqələri, qarşılıqlı sərmayələrin qoyuluşu, humanitar və digər məsələlər aiddir. Ticarət dövriyyəsinin artması müsbət məqam kimi xüsusi vurğulandı. Demək olar ki, Azərbaycan–Rusiya əlaqələrinin hər bir istiqaməti üzrə müsbət dinamika olduğu məmnuniyyətlə qeyd edilib.

Görüş zamanı “Şimal–Cənub” beynəlxalq nəqliyyat dəhlizi müzakirə edildi və bu layihənin icrası istiqamətində lazımi addımların atılması üçün dövlət başçıları tərəfindən aidiyyəti hökumət nümayəndələrinə tapşırıqlar verildi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Rusiyanı birləşdirən dəmir yolu xətti var, ancaq gözlənilən 15 milyon ton yük həcminin daşınması üçün mövcud infrastruktur müvafiq qaydada genişləndirilməlidir.

Həmçinin hər iki ölkənin lideri Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi ilə bağlı danışıqları da müzakirə etdilər. Prezident İlham Əliyev Rusiyanın bu sahədə rolunun və səylərinin



yüksək qiymətləndirildiyini bildirdi.

Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin Baykal–Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü xüsusi əhəmiyyət daşıyan tədbir oldu. Səmimi şəraitdə keçirilən görüşdə SSRİ rəhbərliyində çalışarkən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu nəhəng layihənin həyata keçirilməsində rolu və verdiyi mühüm töhfələr xüsusi qeyd edildi. Bildirildi ki, hazırda Rusiya və qlobal iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edən BAM-ın tikintisi prosesində qarşıya çıxan texnoloji və təbii çətinliklərin aradan qaldırılmasında Heydər Əliyevin səyləri və qətiyyətli iradəsi mühüm rol oynayıb. Ulu öndərlə birlikdə çalışmış veteranlar onunla bağlı öz xoş xatirələrini bölüşdülər.

Ümumiyyətlə, Prezident İlham Əliyevin Rusiyaya səfəri ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin inkişafına növbəti müsbət töhfə oldu.

# Ekspert qrupları Azərbaycan–Ermənistan sərhədində dəqiqləşdirmələrə başlayıblar



**23 aprel 2024-cü il**

**Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşünün yekunları üzrə əldə edilən razılaşmalara müvafiq olaraq, 2024-cü il aprelin 23-də ölkələrin ekspert qrupları Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesinə başlayıb.**

# Sülh dirəkləri – separatizmin tabutuna vurulan mismarlar

## Yaxud ədalət və qətiyyətin siyasi-diplomatik mükafatı

**Laçın – Xankəndi yolunun Ermənistan qovuşduğu yerdə Azərbaycanın sərhəd-buraxılış məntəqəsinin qurulmasının ildönümü sülh prosesinə daha bir töhfə ilə əlamətdar oldu. Dünən yayılan xəbərdə bildirildi ki, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və iki ölkə arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşünün yekunları üzrə əldə edilən razılaşmalara müvafiq olaraq, ekspert qrupları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesinə başlayıb.**

İki dövlət arasında ilk sərhəd dirəklərinin quraşdırılması son dərəcə mühüm əhəmiyyət daşıyan hadisədir. Son 36 ildə millətçi separatizmin tüğyan elədiyi, dövlət siyasəti səviyyəsinə qaldırıldığı ölkənin Azərbaycana qarşı qanlı təcavüzkarlığı və dağıdıcı işğalçılıq əməlləri iflasa uğrayandan sonra sülhdən başqa yol qalmadı. Qarabağdakı xunta rejiminin mövcudluğuna son qoyulsa da, sülh masası arxasına keçmək istəməyən, müxtəlif manipulyasiyalarla prosesdən yayınan Ermənistan ölkəmizin siyasi və diplomatik iradəsi qarşısında, nəhayət, ötən həftə geri çəkildi. 30 il Azərbaycanla güc məntiqi ilə danışan işğalçı ölkə “dəmir yumruğ”un zərbəsi ilə diz çökəndən sonra yeni geosiyasi vəziyyətlə barışmağa məcbur oldu.

Dünən iki ölkənin sərhədd xəttində basdırılan ilk sərhəd dirəkləri məğlub erməni sparatizminin tabutuna vurulan mismarlar anlamına gəlir. Bu başlanğıc həm də rəsmi İrəvanın Bakının birbaşa sülh danışıqları təşəbbüsünü qəbul etməsidir. Bu, Prezident İlham Əliyevin müdrik rəhbərliyi, qətiyyətli siyasəti və diplomatik məharəti ilə Azərbaycan dövlətinin qazandığı növbəti tarixi uğurdur. Azərbaycan üstün iqtisadi gücü, möhtəşəm hərbi qüdrəti ilə Ermənistanı sülhə məcbur etdi.

Onu da deyək ki, Ermənistan rəsmilərinin son aylardakı açıqlamaları sübut edir ki, rəsmi İrəvan artıq Azərbaycanla yekun sülh sazişini imzalamaqdan başqa yolunun olmadığını anlayır. İrəvan Azərbaycanla sərhədlərin dəqiqləşdirilməsi, kommunikasiyaların bərpası istiqamətində praktik addımlar atılmasının qaçılmaz proses olduğunu qəbul etdi. Başqa yolu yoxdur. Ermənistan Qərbdəki havadarlarından dəstək ala bilmədi, rəsmi Bakı həmin ölkələrin ölkəmizə qarşı əsassız təzyiq cəhdlərini inamla zərərsizləşdirdi. Antiterror tədbirlərindən sonra ölkəmizə qarşı təzyiq cəhdləri sıradan çıxdı, beynəlxalq ictimaiyyətdən gözləntilər özünü doğrultmadı. Fransa–Ermənistan tandeminin əsassız iddialarla BMT-nin Təhlükəsizlik Şurasında ölkəmiz əleyhinə qərarların qəbuluna yönələn səyləri iflasa uğradı. İlk sərhəd dirəyi həm də buna vurulan mismardır.

Ötən müddətdə Azərbaycanın, guya, Ermənistanı hərbi təhdidlərə məruz qoyan və yeni hərbi əməliyyatlara hazırlaşan, bu ölkənin ərazi bütövlüyünü tanımayan tərəf kimi təqdim etmək cəhdləri də beynəlxalq arenada ciddi qarşılanmadı. Rəsmi Bakının diplomatik səriştə ilə son bir ildə Fransa, ABŞ və Avropa İttifaqının ermənipərəst vasitəçiliyindən imtina kursu da özünü doğrultdu. Ermənistanı Rusiyanın təsirindən çıxararaq öz forpostuna çevirməyə çalışan Qərb ölkələrinin təxribatçı bəyanat və açıqlamaları isə sadəcə, Ermənistana təsəlli xarakteri daşıdı. Nəhayət, Ermənistanın Qərbdəki havadarlarına güvənərək fevral ayında şərti sərhəddə yeni təxribatlar törətmək cəhdinin qarşısını Silahlı Qüvvələrimiz anında və qətiyyətlə aldı.

ABŞ və Avropa İttifaqının Ermənistana iqtisadi-hərbi dəstək göstərmək məqsədilə keçirdiyi 5 aprel görüşünə Azərbaycanın prinsipial etirazını qarşı tərəf geosiyasi təhdidlərə çevik müqavimət əzmi kimi qəbul etməli oldu. Gərginliyin artdığı bir zamanda ABŞ-ın Dövlət katibinin Prezident İlham Əliyevə zəng etməsi və aparılan müzakirələr bu ölkənin Azərbaycandakı maraqlarının və mövqelərinin zəifləməsində maraqlı olmadığını təsdiqlədi. Bütün bu proseslərin gedişi göstərdi ki, yekun sülh müqaviləsinin imzalanmasının gecikməsi Ermənistanın öz əleyhinə işləyir, onu müəyyən Qərb ölkələrinin əlində vasitəyə çevirir. Beləliklə, Ermənistan hakimiyyəti Qərbdəki havadarlarına arxalanaraq, sülh prosesinə xələl gətirən, prosesi süni şəkildə yubadan addımların mənasızlığını dərk etməli oldu.

Aprelin 19-da Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, eləcə də delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü iki ölkə arasında uzun illərdən bəri davam edən gərginliyin azaldılması, yekun sülh sazişi layihəsi üzərində aparılan işin sürətləndirilməsi baxımından önəmli addım oldu. Əldə olunmuş razılaşmaya əsasən, sərhəd xətti Bağanis (ER) – Bağanıs Ayrım (AR), Voskepar (ER) – Aşağı Əskipara (AR), Kirants (ER) – Xeyrimli (AR) və Berkaber (ER) – Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçəcək, beləliklə, Qazax rayonun işğal altında olan 4 kəndi birinci mərhələdə Azərbaycana təhvil verilir. Tərəflər sərhədin bütün digər hissələrinin, o cümlədən, anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə də razılığa gəliblər.

Ümumiyyətlə, delimitasiya komissiyasının son iclasları iki ölkə arasında mübahisəli məsələlər ətrafında fikir mübadiləsinin aparılması, qərarların qəbulu baxımından səmərəli platforma rolunu oynadı. Məhz bu zəmində ilk dəfə olaraq







iki ölkənin ərazi mübahisəsinin dinc yolla tənzimlənmə mərhələsinə daxil olmasını beynəlxalq ictimaiyyət də yüksək qiymətləndirdi. Yekun sülh sazişinin imzalanması istiqamətində növbəti addım olan bu razılaşma regionu geosiyasi rəqabət meydanına çevirmək istəyən qüvvələrin, eləcə də Ermənistanın rəsmi Bakının qətiyyətli, prinsipial mövqeyi qarşısında geri çəkilməsi deməkdir.

İrəvandan fərqli olaraq, rəsmi Bakı danışıqlar prosesinin hansısa qlobal güc mərkəzinin inhisarına alınmasında, sülhyaratma prosesində üstün tərəf kimi çıxış etməsində maraqlı deyil və bunu yolverilməz hesab edir. Azərbaycan növbəti dəfə sübut etdi ki, qlobal güclərin iştirakı olmadan da danışıqlar aparmaq, real nəticələr əldə etmək mümkündür. Hadisələrin məntiqi göstərir ki, Ermənistan sülhü və sabitliyi hansısa Qərb ölkəsində, digər üçüncü tərəfdə deyil, məhz Azərbaycanla birbaşa danışıqlarda axtarıb tapmalıdır.

Yada salaq ki, rəsmi Bakının hələ 2023-cü il dekabrın 13-də 32 erməni hərbi əsiri qarşı tərəfə təhvil verməsi ölkəmizin regionda sülh və sabitlik tərəfdarı olduğunu, etimad quruculuğuna xidmət edən tədbirləri təşviq etdiyini göstərdi. Əldə olunmuş ikitərəfli razılaşmanın qısa zamanda icrası da göstərdi ki, hər iki ölkə vasitəçilərin iştirakı olmadan da anlaşa və etimad quruculuğuna xidmət edən qərarlar verə bilirlər.

Ümumən, onu da bildirək ki, delimitasiya prosesi özlüyündə mürəkkəb, zaman tələb edən geotexniki prosesdir. Mövcud istiqamətdə aparılan danışıqlarla bağlı yekun qərarın verilməsi o qədər də asan deyil. Ermənistanın ötən 3 ildə danışıqlarda qeyri-hüquqi əsaslara istinad etməsi, keçmiş SSRİ-nin 1975-ci il tarixli hansısa xəritəsinə əsaslanması prosesi yubatdı. Rəsmi Bakı Ermənistanın hüquqi əsası olmayan xəritələrə əsaslanmasının düzgün olmadığını, 1973–1986-cı illərdə sabiq ittifaq dövlətində bir sıra xəritələrin hazırlandığını diqqətə çatdırdı. əsassız ərazi iddiaları səbəbindən heç bir qonşusu ilə sərhədlərini delimitasiya etməyən Ermənistanın Azərbaycanla bu prosesi özü üçün sərfəli xəritə əsasında reallaşdırmaq istəyini normal məntiq qəbul etmədi.

Nəhayət, bir daha dünən start götürmüş delimitasiya prosesinin əhəmiyyətinə toxunaq. Azərbaycan öz prinsiplərində ardıcıldır. İlk dəfə olaraq Azərbaycan və Ermənistan arasında sərhəd dirəkləri qurulur. Yekun sülh müqaviləsinə aparan dirəklər etibarlı sülhün təhlükəsizlik xəttini müəyyən edəcək. Güclü Azərbaycanın diktə etdiyi marşrutda ilk addımlarını atan sülh dirəkləri Vətənimizə, xalqımıza əmin-amanlıq mesajı göndərir.

***XQ-nin analitik qrupu***

# Qalib liderin daha bir möhtəşəm uğuru

## Kremldən Azərbaycanın bədxahlarına tərs şapalaq



**Azərbaycan Prezidenti İlham Əliyevin qonşu Rusiya Federasiyasına işgüzar səfərinin müddəti qısa olsa da, həm ölkələrarası münasibətlərin daha da inkişaf etdirilməsi, həm regional məsələlərin həllinə töhfə verilməsi, həm də beynəlxalq miqyaslı problemlərin müzakirəsi baxımından son dərəcə böyük əhəmiyyət kəsb edir. İnanırıq ki, bu səfər həm keçmiş Qarabağ münaqişəsinin tamamilə gündəlikdən çıxarılmasına zəmin yarada bilər, həm də Azərbaycanın sonuncu hədəfinə çatmasını – Zəngəzur dəhlizinin reallığa çevrilməsini yaxınlaşdırar.**

Ancaq burada başqa məqamlar da var ki, səfər haqqında söz açarkən onları yada salmamaq mümkün deyil. Birinci, Azərbaycan Prezidenti rusiyalı həmkarı ilə görüşdə xatırlatdı ki, ölkələrimiz arasındakı indiki yüksək səviyyəli münasibətlərin təməlində ulu öndər Heydər Əliyevlə Vladimir Putinin qarşılıqlı inamı və bir-birinə etimadı dayanır. Biz jurnalistlər o illərdə – Vladimir Putinin 2001-ci ildə Bakıya səfəri barədə yazarkən deyirdik ki, Kremlin bu addımı – Heydər Əliyevin dəvətini cavabsız qoymaması Rusiyanın digər siyasətçilərinə dərs oldu. Belə deməyə haqqımız da var idi. Çünki Rusiyanın Putindən əvvəlki rəhbərləri işğalçı Ermənistana milyard dollarlıq (o illər üçün həmin rəqəm olduqca böyük məbləğ idi) silah-sursat hədiyyə etmişdilər. Vladimir Putin isə dəfələrlə deyib ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir.

İkinci, Vladimir Putin Azərbaycan Prezidenti ilə görüşdə 2001-ci ildən də çox-çox irəli gedərək xatırlatdı ki, BAM-ın tikintisinə başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi şəxsən təbrik etməkdən çox məmnunam: “Onun atası, – bunu bütün BAM inşaatçıları yaxşı bilir, – Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində Baykal –Amur Magistralının tikintisinə rəhbərlik edir və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmirdi. Bu işdə ona böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətlər, ilk növbədə, çalışdığı insanlara qayğıkeş, hörmətli münasibət kömək etdi və o, bu nəhəng problemləri həll edə bildi”.

Bu məqamda xatırladaq ki, keçmiş SSRİ-dən Rusiyanın ucqarlarında məhz Moskvaya miras qalan iki nəhəng iqtisadi layihə – daha doğrusu, mənbə var ki, onların birinin – Baykal– Amur Magistralının ərsəyə gəlməsində Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin, digərinin – Tümen neftinin tapılaraq çıxarılmasında Fərman Salmanovun xüsusi xidmətləri olmuşdur. Bu iki faktı Rusiyada hamı ehtiramla xatırlayır və həmin iki şəxsin adı daim uca tutulur.

Avropanın ən görkəmli siyasətçilərindən olmuş Uinston Çörçill deyibmiş ki, bəzən ölkələrarası münasibətlərdə hansısa fərdin nümunəsi bütöv siyasətin nəticəsindən səmərəli olur. Ötən il Rusiyada Ulu öndərin 100 illiyi ilə bağlı genişmiqyaslı və mötəbər tədbirlərin keçirilməsi də məhz həmin fərdi nümunəyə göstərilən etimadın təzahürü idi.

Xüsusilə vurğulamaq istədiyimiz üçüncü məqam isə prezidentlər Vladimir Putinlə İlham Əliyev arasındakı şəxsi dostluq münasibətlərinin daim qorunub saxlanılmasıdır. Biz bu münasibətləri Rusiya sülhməramlı kontingentinin Azərbaycandan çıxarılması zamanı da gördük – iki ölkə liderinin qarşılıqlı anlaşma və qərarı regionda çox böyük əks-səda vermişdi – 44 günlük İkinci Qarabağ müharibəsinin sonunda imzalanmış üçtərəfli bəyanatın müddəalarına Moskva və Bakının böyük hörmətlə yanaşması zamanı da, sonrakı proseslərdəki qarşılıqlı hörmət və yüksək siyasi mədəniyyətin nümayiş etdirilməsi prosesində də.

Heç kəsin yadından çıxmayıb. 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” imzalanmışdı. O zaman özünü ekspert adlandıran bəzi qaragüruhçular vay-şivən qaldırırdılar ki, bu sənəd Azərbaycanın maraqlarına cavab vermir. O zaman “Xalq qəzeti”nin siyasi-analitik qrunun əməkdaşlarından biri bədxahlarımıza adıçəkilən sənədin 18-ci bəndini xatırlatmışdı. Orada deyilirdi: “18. Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, silahların, narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, insan alveri və informasiya-kommunikasiya texnologiyaları sahəsində cinayətlərə, eləcə də digər yeni təhlükəsizlik çağırışlarına qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər. Bu kontekstdə tərəflər məlumat mübadilə edir və qeyd edilən hüquqazidd fəaliyyətlərin maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsi və qarşısının alınmasında sıx qarşılıqlı fəaliyyət göstərirlər”.

O vaxtkı qaragüruhçulardan bu gün soruşuram: Azərbaycanın son iki ildə həyata keçirdiyi qətiyyətli addımların hansını göstərə bilərsiniz ki, bəyannamənin 18-ci bəndində öz əksini tapmamış olsun? Danışanda bir az ədalətli olmağınız yetər ki, xalqın gözündən düşməyəsiniz. O vaxt anlamamısınızsa, indi – ortada real nəticələr olanda anlayın ki, bütün uğurlarımızın əsas təməllərindən biri də Azərbaycanın xarici siyasətinin çoxistiqamətli olması, qonşu dövlətlərlə münasibətlərdə etibarlılıq, qarşılıqlı faydalı əməkdaşlığa xidmət edən addımların atılmasıdır.

Yuxarıda qeyd etdik ki, dövlət başçımızın bu səfəri çərçivəsində şahidi olduğumuz faktlar bədxahlarımıza endirilən tərs şapalaq kimi qiymətləndirilə bilər. Bu şapalaqdan Fransa başda olmaqla Avropadakı anti-Azərbaycan qüvvələrə də pay düşür, ABŞ-ın dövlət siyasətinə təsir göstərməyə çalışan ermənipərəst qüvvələrə də, regiondakı və ölkəmizdəki qaraqəlbli insanlara da.

Ekspertlərin fikrincə, bu səfərin hələ Qərbdə özünə yer eləməmiş Rusiya ilə əməkdaşlığı kortəbii şəkildə pozmuş Ermənistanın Moskva əleyhinə təbliğatlar aparması fonunda reallaşdırılmasının da xüsusi əhəmiyyəti var. Çünki Qərbdə hamı Azərbaycanın dostluq və tərəfdaşlıqda sədaqətli olduğunu daha yaxşı gördü. Ağ evdə inanırlar ki, Azərbaycan Kremllə olan tarixi münasibətlərinə sədaqət nümayiş etdirirsə, deməli, gələcəkdə ABŞ-la olan dostluqdan da imtina etməyəcək. Qərb ölkələrində hamıya gün kimi aydındır ki, bəzi Qərb dövlətlərinin qeyri-dost münasibətlərinə baxmayaraq, ümumilikdə rəsmi Bakının Qərblə də münasibətləri normaldır. Bu da ağıllı, məntiqli siyasətin tərkib hissəsidir. Azərbaycan bütün tərəfdaşlar, xüsusilə də qonşu ölkələrlə qarşılıqlı hörmətə əsaslanan münasibətləri inkişaf etdirir.

Bəs Ermənistan neylədi? Ordan–burdan yığışıb gəlmiş hay qəbilələrinə Cənubi Qafqazda dövlət yaratmaq imkanı vermiş və yüz illər boyu onları himayə etmiş Rusiyaya təpik atdı, nankorluq etdi, xəyanət törətdi. Bəs Qərb bunları görmədi? Gördü, görür və bundan sonra daha yaxşı görəcək.

***İttifaq QAÇAYEV***

---

**Azərbaycan–ABŞ münasibətlərində hər zaman pozuculuqla məşğul olan ermənipərəst konqresmenlər yenə iş başındadırlar. Ölkəmizə qara yaxmağı, böhtan atmağı həyatlarının mənasına çevirən qanunvericilər bu dəfə bir qədər də irəli gediblər. Onlar yunan lobbisi ilə birləşərək həftə ərzində Azərbaycana qarşı sanksiyalarla bağlı qanun layihəsi təqdim etməyi planlaşdırırlar. Sanksiya siyahısına 40-dan çox şəxsin – məmurların, hərbçilərin, hakimlərin, müstəntiqlərin adlarının daxil edildiyi bildirilir. Qeyd olunur ki, qanun layihəsində Bayden Administrasiyasına ABŞ qanunvericiliyi, o cümlədən Maqnitski qanunu çərçivəsində 180 gün ərzində həmin şəxslərə qarşı sanksiyalar haqqında qərar qəbul etmək çağırışı yer alacaq.**

# Müştərək xəyanət



Layihənin hazırlanmasının əsas təşəbbüskarı və müəllifi Nümayəndələr Palatasında Nevada ştatını təmsil edən demokrat konqresmen Dina Titusdur. Onun başçılıq etdiyi qanunvericilər qrupuna hər iki partiyanı və Konqresin hər iki palatasını təmsil edən şəxslər daxildir. D.Titus ABŞ-dəki erməni lobbisinin fəal üzvlərindəndir.

“Azərbaycanda sanksiyalara baxış aktı” adlandırılan layihə barədə xanım Titus ilk dəfə ötən həftə erməni diasporunun qondarma soyqırımı ilə bağlı Konqresdə təşkil etdiyi tədbirdəki çıxışında bəhs etmişdi. Tədbir hayların Birləşmiş Ştatlardakı əsas diaspor təşkilatı olan Amerika Erməni Milli Komitəsinin (ANCA) dəstəyi ilə keçirilmişdi. Titus çıxışında demişdi ki, həftə ərzində layihəni təqdim etməyi planlaşdırır: “Bu, “Artsax”-da etnik təmizləməni (?) idarə edən və ya həyata keçirən Azərbaycan rəsmilərinə qarşı müxtəlif sanksiyalar tətbiq edəcək. Bu cür hərəkətlərə görə onların cavab vermək vaxtıdır”.

D.Titusun ofisindən “BBC”-nin Azərbaycan xidmətinə hazırlanan qanun layihələri barədə şərh vermədiklərini deyiblər. Amerika Erməni Milli Komitəsinin saytında isə D.Titusun lobbiçilik fəaliyyəti barədə təfərrüatlı məlumatlar var.

Mediada yayılmış siyahını nəzərdən keçirdikdə, necə deyərlər, xoruzun quyruğu görünür. Bir daha aydın olur ki, konqresmenlər “erməni sevdası” ilə əlaqədar bu addımı atıblar. Onların bu addımı 2020-ci ildən bu yana işğalçı Ermənistan ordusu üzərində parlaq qələbələr qazanmış, separatçı rejimi tarixin arxivinə göndərmiş Azərbaycanı, onun Silahlı Qüvvələrini “cəzalandırmaq” cəhdidir. Vətən müharibəsində Zəfərin əldə olunmasında xüsusi xidmətləri olan, adlarını Azərbaycan dövlətinin və xalqının tarixinə qızıl hərflərlə yazan Silahlı Qüvvələrimizin ali zabit heyətinə daxil olan şəxslərin adlarının siyahıya daxil edilməsi böyük hiddət doğurur. Eyni zamanda, ermənilərin pulları ilə bəslənən konqresmenləri bir daha gözdən salır və onlara münasibətdə ikrah hissinin baş qaldırmasına gətirib çıxarır.

Layihədə, həmçinin Azərbaycanda həbsdə saxlanan və barələrində məhkəmənin çıxaracağı hökmü gözləyən erməni separatçılarının “hüquqlarının pozulduğu”nun bildirilməsi onun hayların sifarişi ilə hazırlanmasına heç bir şübhə yeri qoymur.

Konqresmenlərin bu addımı Ermənistan–Azərbaycan dialoquna da zərbə vurmaq məqsədi daşıyır. Düzdür, son vaxtlar rəsmi İrəvanın mövqeyində pozitiv elementlər nəzərə çarpır. Bu kontekstdə iki ölkə arasında yaradılmış delimitasiya və demarkasiya üzrə komissiyanın aprelin 19-da keçirilən iclasında Qazax rayonunun işğal altındakı 4 kəndinin ölkəmizə qaytarılması ilə bağlı qəbul edilən qərarı xüsusi qeyd etmək lazımdır. Eyni zamanda, ölkələrin xarici işlər nazirlərinin Qazaxıstanda görüşməsinin mümkünlüyü müzakirə edilir. Daha doğrusu, Azərbaycan tərəfi belə bir görüşə razılıq verib. Əgər Ermənistan da razılıq versə, o zaman XİN başçıları səviyyəsində görüşlər bərpa olunacaq. Ancaq konqresmenlər öz əməlləri ilə Cənubi Qafqazda sülhün təmin olunmasına əngəl törədirlər.

**Mövzu üzrə söhbətləşdiyimiz “Qafqaz Strateji Araşdırmalar Mərkəzi”nin sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim Cəfərsoy bildirdi ki,** Azərbaycanla ABŞ arasındakı münasibətlər həm rəsmi Bakının, həm də Vaşinqtonun Cənubi Qafqaz siyasəti baxımından əhəmiyyətlidir. Onun sözlərinə görə, 1991-ci ildən indəyək Azərbaycan–ABŞ münasibətlərində hər zaman bir neçə parametr önə çıxıb: “Bunlardan biri iki ölkə arasındakı siyasi münasibətlərdir. Enerji sahəsində əməkdaşlıq da münasibətlərdə xüsusi rola malikdir. 2001-ci ildə Əfqanıstanda başlayan antiterror əməliyyatından sonra münasibətlərimizə təhlükəsizlik aspekti də əlavə edildi. Vətən müharibəsindən sonra Cənubi Qafqazda yeni səhifənin açılması kontekstində Azərbaycan–ABŞ münasibətləri daha da aktuallaşıb. Vaşinqton bölgəyə maraq göstərir. Bu çərçivədə müəyyən vasitəçilik cəhdləri də oldu. Ancaq erməni lobbisinin proseslərə aktiv müdaxiləsi münasibətlərə zərər vurur”.

Politoloq qeyd etdi ki, hazırda belə bir layihənin gündəmə gəlməsi həm zaman, həm siyahının məzmunu, həm də proseslərin inkişafı baxımından problem yaradır. Onun sözlərinə görə, zaman baxımından ona görə problemlidir ki, Azərbaycan və Ermənistanın 4 kəndlə bağlı bugünlərdə əldə etdiyi razılaşma münasibətləri normallaşdırma yolunda daha bir addım oldu: “Artıq Rusiya sülhməramlıları da Qarabağ iqtisadi rayonundan çıxarılır. Bu dövrdə amerikalı konqresmenlər tərəfindən belə bir layihənin gündəmə gətirilməsi Azərbaycan–ABŞ münasibətlərinə mənfi təsir göstərən məqamdır. Məlum olduğu kimi, payızda ABŞ-də prezident



seçkiləri keçiriləcək. Bu çərçivədə müxtəlif senatorlar, konqresmenlər erməni diasporunun təşviqi, təzyiqi, onlara xoş görünmək üçün bu cür fəaliyyət göstərirlər. Belə bir layihənin ortaya çıxmasına da bu çərçivədən baxılmalı məqamdır”.

Müsahibimiz qeyd etdi ki, siyahıya Azərbaycan hərbçilərinin adlarının daxil edilməsi Bakı–Vaşinqton münasibətlərinə daha ağır formada təsir edə bilər: “Bu, Azərbaycan–ABŞ münasibətlərini təkcə rəsmi səviyyədə deyil, həm də ictimai səviyyədə pisləşdirən amildir. Çünki siyahıda adı çəkilən Müdafiə nazirinin müavini Quru Qoşunlarının komandanı, general-leytenant Hikmət Mirzəyev Vətən Müharibəsi Qəhrəmanıdır. O, çox sevilən generallardan biridir. Xalqın ona böyük sevgisi var. Adları çəkilən digər hərbçilər də Azərbaycan Ordusunun idarə edilməsində mühüm vəzifələr tuturlar. Azərbaycan Ordusu hazırda xalq tərəfindən çox sevilir. Belə bir ordunun mənsublarını haqsız yerə təqsirləndirmək, təbii ki, sadəcə, Azərbaycan və ABŞ arasında siyasi, dövlətlərarası münasibətlərə zərbə vurmur, mənfi tendensiya yaratmır, həm də Azərbaycan xalqında ABŞ-yə münasibətdə neqativ çalarları gücləndirir”.

N.Cəfərsoy bildirdi ki, ABŞ və NATO-nun Azərbaycanla müdafiə sahəsində əməkdaşlıq etmək istədiyi hamıya məlumdur. Ancaq Azərbaycanla əməkdaşlıq etmək istəməklə Ordumuzun xalq arasında ən çox sevilən və NATO standartlarına çatdırmaq üçün səy göstərən ali zabitlərinin adlarını hansısa siyahıya daxil etmək bir-biri ilə düz gəlmir. Eyni zamanda, əsasən Qərbi hədəf alan beynəlxalq terrorizmə qarşı uğurlu əməliyyatları ilə tanınan milli təhlükəsizlik orqanlarının rəhbər şəxsləri ilə bağlı bu cür addımlar atmaq həm də ABŞ–Azərbaycan təhlükəsizlik əməkdaşlığı imkanlarına ciddi zərbə vurmaq deməkdir.

Mərkəz rəhbəri “Layihə Konqresə təqdim edilərsə, nə baş verəcək” sualına belə cavab verdi: “Biz ilk növbədə ona imza atacaq konqresmenlərin tərkibinə, hansı qrupların fəallıq göstərəcəyinə baxmalıyıq. Digər tərəfdən, yunan və erməni lobbisinin burada imkanlarını nə dərəcədə səfərbər edə biləcəyi önəmli məqamdır. Bundan əlavə, ABŞ Administrasiyasının burada tutacağı mövqe, Konqresdəki proseslərə müdaxilə edib-etməyəcəyi, prosesləri yumşaldıb-yumşaltmayacağı da əhəmiyyətli məqamlardan birini təşkil edir. Qarşıda seçkilər var. Seçkilər öncəsi erməni lobbisinin içində olduğu prosesin hədəfinə çevrilmək, açığı, həm neqativ çalarlı, həm də Azərbaycan–ABŞ münasibətlərinin əleyhinə işləyə biləcək məqamlardandır”.

Bu arada bədnam layihə təşəbbüskarının yunan əsilli olduğu da diqqətdən qaçmır. Belə ki, 1950-ci ildə Corciya ştatının Tomasvill şəhərində anadan olan Titusun anası yunan mənşəlidir. Onlar Yunanıstanın Fessaliya tarixi bölgəsindəndir. Titusun babası Artur Konstantinos Katonis Nyu Yorka (Ellis adasına) gəlib. D.Titusun bioqrafiyasında onun yunan pravoslavlığı ilə böyüdüyü qeyd edilib. Titus 1980-ci ildə ilk dəfə Yunanıstana səfər edib, Afina və Trikala şəhərlərində yaşayan qohumları ilə görüşüb. Beləliklə, aydın olur ki, biz ABŞ-də yaxınlaşan prezident seçkiləri ərəfəsində önəmi xüsusilə artan erməni lobbisinin Şimali Kipr məsələsində Azərbaycan əleyhdarlığı çoxalan yunan lobbisi ilə əməkdaşlığı ilə üz-üzəyik. Bu prosesin qarşısını almaq üçün okeanın o tayındakı Azərbaycan, Türkiyə və digər türk respublikalarının diasporları hərəkətə keçməli, layihənin qəbulunun Bakı–Vaşinqton münasibətlərinə mənfi təsir edəcəyi barədə konqresmenlərlə izahat işi aparmalıdırlar. Nümayəndələr Palatasında və Senatda ermənipərəstlərlə yanaşı, Azərbaycanın haqlı mübarizəsinə dəstək verənlər, ölkəmizin strateji əhəmiyyətini dərk edənlər, bizi özlərinə dost sayanlar da var. Onların arqumentləşdirilmiş çıxışları layihənin elə layihə olaraq qalmasında mühüm rol oynaya bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Ərdoğan Ermənistana “fürsət pəncərəsi” açıb



(əvvəli 1-ci səhifədə)

Məsələ burasındadır ki, Qərbə inteqrasiya yolunu tutmuş Ermənistan üçün Türkiyə böyük plasdarmdır. Yəni, İrəvanın Avropaya doğru istiqaməti qardaş ölkədən keçir. Üstəlik, Paşinyan yaxşı başa düşür ki, anti-Rusiya xəttinin gerçəkləşdirildiyi bir zamanda Türkiyə bazarı İrəvan üçün ciddi dolanışıq mənbəyidir. Ancaq Ermənistanda duruma ayıq başla münasibət bildirənlər, demək olar ki, çox azdır və onların səslərinin çıxmaması şəraitində ənənəvi avantüristlərin qara-qışqırıqları eşidilir. İkincilər qondarma “erməni soyqırımı”nın ildönümü ilə bağlı da ortalığa düşüblər.

Bir məqam da var: tam aydındır ki, Ermənistanın hakim komandası “soyqırımı” iddiasının ildönümü ərəfəsində mövzunu özü gündəmə gətirməkdədir. Bu baxımdan ölkə parlamentinin “Vətəndaş sazişi” partiyasından olan deputatı, komissiya sədri Andranik Koçaryanın söylədikləri diqqət çəkir. Koçaryan “erməni soyqırımı” nəticəsində həyatını itirənlərin ad və soyadlarının müəyyənləşdirilməsinin vacibliyindən söz açıb. Əlbəttə, 44 günlük müharibədəki itki sayını açıqlaya bilməyən bir ölkənin 1915-ci ilin statistikasından söz açması qəribə və gülüncdür.

Ancaq bu qəribəlikdə diskussiya məntiqi var. Erməni iqtidarı çalışır ki, qondarma “soyqırımı”nın ilönümü ənənəvi anti-Türkiyə ovqatına köklənməsin. A.Koçaryan bunun ən yaxşı yolunu müəyyənləşdirib. O, daxildəki avantüristlərə və revanşist-şovinistlərə mövzu verir. Mövzu Paşinyanı və komandasını tənqid hədəfinə gətirir. Nəticə etibarilə isə Ankaraya qarşı qəzəb motivləri səngiyir. Yəni, hazırda rəsmi İrəvanın normallaşma xətti baxımından edəcəyi yalnız budur.

Ermənistan hakimiyyəti, ən azı, hazırkı mərhələdə Qərbə inteqrasiya yolundakı Türkiyə probleminin olmamasını istəyir. Çünki Ankaranın Qərb dünyası üçün əhəmiyyətini anlayır. Ona görə təzyiqləri üzərinə almaqla, öz aləmində Türkiyəni neytrallaşdırmağa çalışır. Təxminən belə: biz hər şeyi edirik ki, cəmiyyət “erməni soyqırımı” yaddaşından uzaq dayansın. Hətta özümüzü də xərcləyirik.

*

Məşhur “Moskva göz yaşlarına inanmır” deyimini hazırkı vəziyyətə uyğunlaşdırsaq, Ankaranın da İrəvanın göz yaşlarına inanmadığını söyləyə bilərik. Əslində, R.T.Ərdoğanın əvvəldən barəsində danışdığımız açıqlaması da bunun təsdiqidir. Nəzərə alaq ki, Türkiyə lideri Ermənistanı, hər şeydən əvvəl, səmimiyyət nümayişinə çağırır. Yəni, o, bildirmək istəyir ki, erməni iqtidarının daxili auditoriyaya hesablanmış mövsümi gedişləri qənaətbəxş deyil, daha prinsipial mövqeyin tutulmasına ehtiyac var. Bu mənada Ərdoğanın söylədikləri həm də çağırışdır.

Bəli, Türkiyə Prezidenti qondarma “erməni soyqırımı”nın növbəti ildönümü ərəfəsində Ermənistan hakimiyyətini ölkəsi ilə münasibətlərin normallaşdırılması üçün yol xəritəsi hazırlamağa və mövcud reallıqlara diqqət yetirməyə çağırıb. O, hazırda regionda yeni nizamın qurulduğuna diqqət çəkərək əlavə edib ki, bu nizam şəraitində əsassız xatirələri kənara atmağın vaxtıdır və eyni zamanda, reallıqlara əsaslanaraq davranma daha məntiqidir.

Maraqlıdır ki, Prezident Ərdoğan baş nazir N.Paşinyanın hazırda regionda qərarlaşmış olan reallıqları başa düşdüyünü vurğulayıb. Deyib ki, yeni yol xəritələrini fərqli əsasda yaratmaq lazımdır. Ancaq Türkiyə lideri bəzi reallıqlara da diqqət çəkməyi yaddan çıxarmayıb. O reallıqlara ki, rəsmi İrəvan onun qarşısında acizdir. Söhbət xaricdəki erməni lobbi və diaspor təşkilatlarının Ermənistan rəhbərliyinə təzyiqlərindən gedir. Belədə cənab Ərdoğana yəqin ancaq ümid etmək qalacaq: “Ümid edirəm ki, Ermənistan diasporun onu sürüklədiyi qaranlıqdan xilas olacaq və parlaq gələcək üçün yeni başlanğıclar yolunu seçəcək”.

Ancaq Türkiyə Prezidenti yalnız çağırışlarını səsləndirmir, eyni zamanda, xəbərdarlığını da edir. Aydın məsələdir ki, Ermənistanın anladığı dil elə budur. Xəbərdarlığın mahiyyətində isə Ərdoğanın İrəvan üçün “fürsət pəncərəsi” məntiqi dayanır. Yəni, o, Ermənistan üçün sözügedən pəncərənin heç də həmişə açıq qalmayacağını vurğulayır və sonda bir daha Paşinyan administrasiyasını hazırkı fürsəti dəyərləndirməyə çağırır.

*

Əlbəttə, Türkiyə Prezidenti açıqlamasında birbaşa “erməni soyqırımı” ifadəsini işlətməyib. Ancaq məlumdur ki, onun “əsassız köhnə xatirələr” deyiminin arxasında məhz həmin ifadə dayanır. Ərdoğanın məsələyə üstüörtülü yanaşması bir məqamı da üzə çıxarır. Nəzərə alaq ki, əvvəllər Türkiyə lideri və rəsmiləri “erməni soyqırımı” barədə daha açıq mətnlə fikir bildirirdilər. Bu, o demək idi ki, həmin vaxt qondarma iddia Ankara üçün problematik səciyyə daşıyırdı. Hazırda isə belə bir durum yoxdur. Yəni, Ərdoğanın təbirincə desək, yeni nizam şəraitində “erməni soyqırımı” hansısa ciddi əhəmiyyət daşımır və heç bir halda onun Türkiyəyə qarşı təzyiq potensialı yoxdur. Əksinə, məsələnin qabardılmasından ən böyük ziyan görəcək tərəf Ermənistandır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyanın etirafı: inanaq, inanmayaq?

(əvvəli 1-ci səhifədə)

Tam əminliklə söyləmək olar ki, Ermənistan müxalifətinin sülh prosesinə mane olmaq cəhdləri fiaskoya uğrayıb. Axı, bu ölkənin müxalifətinin özəyini rusiyayönümlü qüvvələr təşkil edir. Amma Ağ Ev və Brüssel kimi, Moskva da dörd kəndin geri qaytarılmasını, demarkasiya prosesinin başlanmasını alqışlayıb. Deməli, əldəqayırma müxalifət həm maliyyəsiz, həm də “sosial bazasız” qalıb. Yaranmış durumda hansısa keşişin, ehtiyatda olan polkovnikin, bir neçə deputatın, kənd icmalarının rəhbərlərinin etiraz və iddiaları havadan asılı qalır. Prosesi dəstəkləyənlər isə həmin ərazilərin vaxtı ilə Ermənistan ordusu tərəfindən işğal faktını etiraf ediblər.

Amma baş nazirin məsələ ilə bağlı ingilis jurnalistlərə söylədiklərini erməni mediası geniş tirajlayıb. Paşinyan deyib: “Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədlərindən kənar heç bir ambisiyası yoxdur. Biz ümid edirik ki, demarkasiya prosesi vasitəsilə Ermənistanın ərazi bütövlüyü bərpa olunacaq. Əvvəl də qeyd etmişdik ki, Ermənistan hökuməti hazırda yaşayışın olmadığı Azərbaycanın dörd kəndində – Qızılhacılı, Xeyrimli, Aşağı Əskipara və Bağanis-Ayrıma insanların normal qayıdışı üçün addımlar atmağa başlayıb. Bu proses nəticəsində Ermənistanın Voskepar, Kirants, Berkaber kəndlərinin sakinlərinin də öz evlərində sakit və rahat həyat sürməsi mümkün olacaqdır”.



## Sabiq nazir Paşinyanı dəstəklədi

Artıq Azərbaycan–Ermənistan sərhədində yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesinə başlanılıb. Bu barədə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin xidmətinin media üçün məlumatında qeyd edilib. Məlumatda bildirilir ki, hökumətlərarası komissiyanın səkkizinci görüşündə əldə edilən razılaşmalara müvafiq olaraq 2024-cü il aprelin 23-də ölkələrin ekspert qrupları Azərbaycanla Ermənistan arasındakı sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesinə başlayıblar. Əslində, bu prosesi iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində atılan çox vacib addımlardan biri kimi qiymətləndirmək doğru sayılar.

İndi Ermənistanda reallığı olduğu kimi qəbul edib, düşdükləri vəziyyətdən çıxış yolunun yalnız sülhə açılan qapılardan keçdiyini anlayanlar az deyil. Onlardan biri ölkənin sabiq xarici işlər naziri Ara Ayvazyandır. “Müharibənin alternativi var. Bu yol diplomatik və siyasi vasitələrdən keçir”, – deyən keçmiş nazir hazırda xarici aktorların Ermənistanın beynəlxalq davranışına və daxili gündəliyinə öz təhlükəli təsirlərini formalaşdırmağa çalışdıqlarını deyib. İki gün əvvəl Ümumerməni Diplomatlar Şurasının mətbuat konfransında Ermənistan XİN-in sabiq rəhbəri A.Ayvazyan çıxışında vurğulayıb ki, indiki şəraitdə diplomatiya istər-istəməz dövlətçiliyin əsas müdafiə xəttinə çevrilir: “Biz, Xarici İşlər Nazirliyi yaradılmasında xidmətləri olmuş diplomatlar kimi öz sözümüzü deməliyik. Bu gün həyata keçirilən xarici siyasətin alternativi yoxdur. Yəni, alternativ müharibədir. Yaxın günlərdə Ümumerməni Diplomatlar Şurası “dəyirmi masa” təşkil edəcək və orada gündəliyi eyni konturlarla təqdim edəcəyik”.

## Tehran sükutu pozdu

Aprelin 19-da Azərbaycanla Ermənistan arasında Qazaxın işğalda olan 7 kəndindən anklav olmayan 4 kəndinin qaytarılması barədə əldə edilən razılaşmanı Rusiya, Türkiyə, Almaniya, ABŞ və Aİ-nin əksər ölkələri alqışlayıb. Amma, nədənsə, Tehranın baş vermiş bu önəmli fakta münasibəti bir qədər ləngidi. Razılaşmanın üstündən beş gün keçəndən sonra Tehran sadəcə, XİN sözçüsü səviyyəsində bu qərara “hörmətlə yanaşdığını” bəyan etdi: “Biz Azərbaycanla Ermənistan arasında birgə demarkasiya komissiyasının iclasında əldə olunmuş razılaşmalara hörmətlə yanaşırıq. Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması üçün iki ölkənin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət edərək sərhəd məsələlərinin həlli istiqamətində dinc səyləri davam etdirməsi zəruridir”.

Bakı İrəvanla münasibətlərin normallaşmasında maraqlı olduğunu bir daha bəyan edib. “Biz sülh sazişinin imzalanmasına heç vaxt olmadığı qədər yaxınıq. Biz işğal zamanı buna heç vaxt yaxın olmamışıq. Həmin vaxt biz baza prinsipləri üzərində belə razılığa gələ bilmirdik”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev dünən ADA Universitetində keçirilən “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq konfransda söyləyib. Hazırda tərəflərdə sülh sazişinin necə olması ilə bağlı ümumi anlayışın formalaşdığını qeyd edən cənab Prezident “Biz, sadəcə, təfərrüatları işləməliyik. Lakin, əlbəttə, hər iki tərəfə vaxt lazımdır”, – deyə əlavə edib. Dövlətimizin başçısı çıxışında Azərbaycan Ermənistan ərasizində eksklav sayılan dörd kəndinin taleyinə də toxunub: “Eksklavlar məsələsi başqadır, çünki o, daha mürəkkəbdir. Həmin eksklavlar digər ölkənin əhatəsində olan ərazidə yerləşir. Ona görə onlar delimitasiya prosesində həll olunmalıdır”.

## İki stulda oturmağın sonu

“Nikol Paşinyan yenə eyni vaxtda iki stulda əyləşmək “taktikasından” yararlanmaqda davam edəcək, yoxsa, bu dəfə mövqeyini tam dəqiqləşdirəcək?”. Ermənistan mediası məhz bu kontekstdə Nikol Paşinyanın yaxın bir ay ərzində Moskvada keçiriləcək üç vacib tədbirdə iştirak edib-etməyəcəyi ətrafında fəal diskussiya açıb. Rusiya paytaxtında ard-ara düzənlənəcək tədbirlərin birincisi mayın 7-də Prezident Vladimir Putinin andiçmə mərasimi, ikincisi mayın 8-də Avrasiya İqtisadi İttifaqının yubiley sammiti və üçüncüsü, mayın 9-da faşizm üzərində qələbənin 79-cu ildönümü ilə bağlı keçiriləcək Qələbə paradıdır. Bu sırada Qələbə gününü xüsusi vurğulayan “Hraparak” qəzetinin yazdığına görə, Paşinyan hakimiyyəti Kremllə intriqaları davam etdirsə də, hökumət aparatından bildirilib ki, baş nazirin səfərləri barədə əvvəlcədən müvafiq qaydada məlumat veriləcək. Eyni zamanda, Rusiya liderinin mətbuat katibi Dmitri Peskovun jurnalistlərə verdiyi mesajı bu məsələyə müəyyən qədər aydınlıq gətirib: “Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan qısa müddətdə müxtəlif məsələləri şəxsən müzakirə edə biləcəklər”.

Burada söhbət Ermənistan liderinin Moskvaya gözlənilən səfərindən gedir. Rəsmi İrəvanın son vaxtlar Rusiyaya qarşı kəskinləşən siyasi ritorikası, o cümlədən, aprelin 5-də Brüsseldə keçirilən Aİ–ABŞ–Ermənistan formatında görüşlə bağlı Kremlin Paşinyandan cavabını gözlədiyi xeyli sualları yığılıb. Keçən həftə RF XİN rəsmisi Mariya Zaxarova ənənəvi brifinqdə Moskvanın Ermənistandan ABŞ və Avropa İttifaqı ilə “hərbi-siyasi razılaşmalar” barədə yayılan məlumatlara dəqiq reaksiya gözlədiyini bildirəndə də məhz bu məsələni nəzərdə tuturdu. İqtisadiyyatının 35-40 faizi Rusiyanın hesabına formalaşan Hayastana qeyri-rəsmi yollarla hər ay milyardlarla dollar maliyyə axını var. Yəni, Moskva səfərində Paşinyan bütün bu məsələlərə aydınlıq gətirməli olacaq. İrəvan yaxşı başa düşür ki, artıq eyni vaxtda “iki stulda oturmaq” mümkün olmayacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Nikol Paşinyan son dərəcə ziddiyətli siyasətçidir. Onun bu günə qədərki təzadlı, bir-birini təkzib edən açqlamaları kimi, indi verdiyi bəyanatı da bizdə müəyyən şübhələr doğurur. İndi belə bir sual yaranır: əgər, o, anlayır və qəbul edirsə ki, Qarabağ Azərbaycana məxsus ərazidir, onun torpağıdır, onda 44 günlük müharibədə erməni zabit və əsgərləri nəyin uğrunda vuruşurdular? Minlərlə itkini nəyə görə verdi? Onlar nəyi kimdən müdafiə edirdilər? Ortaya bu cür sualların çıxması təbiidir.

Paşinyanın nə dərəcədə səmimi olduğu qeyri-müəyyəndir. Onun az sonra buna tamamilə əks bəyanat verə biləcəyi gözləniləndir. Əlbəttə ki, bölgədə vəziyyət kökündən dəyişib və Ermənistan baş naziri yaxşı başa düşür ki, Azərbaycanla baş-başa gəlmək onun özünün maraqlarına cavab vermir. Çünki, Bakı bütün hallarda ona elə adekvat cavab verə bilər ki, o, hakimiyyəti itirər. Məhz bunu anladığı üçün indi bu xarakterli bəyanatlarla çıxış edir.

Hazırda iki ölkənin sərhədində delimitasiya prosesinə start verilib. Aydın məsələdir ki, Azərbaycan geri aldığı dörd kəndlə kifayətlənməyəcək. Gündəlikdə daha dörd kənd durur. Bundan başqa, Zəngəzur dəhlizi, Ermənistan konstitusiyasında qonşularına qarşı ərazi iddiaları ilə bağlı müddəaların aradan qaldırılması məsələləri var. Bütün bu məsələlər öz həllini tapandan sonra sülh sazişini imzalaya, dinc və təhlükəsizlik şəraitində yaşaya bilərik. O zaman Paşinyanın ziddiyyətli bəyanatları bizi heç maraqlandırmayacaq.

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Ermənistan baş naziri Nikol Paşinyan İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni reallıqları anladı. Onu da başa düşdü ki, Azərbaycanla növbəti müharibə ölkəsini fəlakətə sürükləyə və bu, onun hakimiyyətinin sonun yaxınlaşdıra bilər. Ermənistan ordusu hələ də özünə gəlməyib, aldıqları silahlar da işə yaramır. Məhz belə bir vəziyyətdə Paşinyan qəbul edir ki, əsas məqsədi Azərbaycanla razılaşmaların sayını artırmaqla, son nəticədə sülh sazişini, yaxud da çərçivə sənədini imzalamaq olmalıdır. Bunun üçün sərhədlərin delimitasiyası ilə bağlı Bakının tələblərini yerinə yetirməyə məcburdur. Paşinyan bunları Ermənistan ictimaiyyətinə anlatmaqla məşğuldur.

O, həm də Qarabağ səhifəsinin Ermənistanın üzünə bağlandığını da başa düşür. Qarabağdan köçmüş həmin ermənilər özləri etiraf edirlər ki, İrəvanın onları geri qaytarmağa gücü yoxdur. Bu məsələ Ermənistan hakimiyyətinin gündəmində durmur. Amma elektorat yenə də Paşinyanı dəstəkləyir. Cəmiyyətin sifarişi ondan ibarətdir ki, baş nazırləri Azərbaycanla tezliklə razılaşma əldə etsin. Dörd kəndi qaytardığına görə revanşistlər, radikallar Nikol Paşinyanı “satqın” adlandırsa da, görürük ki, onlar İrəvanda insanları küçələrə çıxara bilmirlər.

Erməni cəmiyyəti yorulub, heç müxalifətin də taqəti qalmayıb. Onlar müharibədə məğlub olmuş Paşinyana ona görə baş nazir mandatına verdilər ki, bir daha müharibə olmasın və hökumət Azərbaycan və Türkiyə ilə problemlərini həll etsin.

**KÖŞƏ**

# Qazaxın 4 kəndi və fəlakətin zopası

**Müxtəlif sosial şəbəkə hesablarında Qazaxın dörd kəndini tərk etməli olan ermənilərin etiraz çıxışlarına dair videogörüntülər yayılır. Polislə qarşıdurma, hay-küy, “patriot”ların qara-qışqırıqları, İrəvanda oturub onlara dəstək verən buqələmunların fitnə-fəsadları – bütün bunlar son dərəcə rəzil səhnələrdir.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Bəli, Ermənistan 44 günlük müharibədən sonra, sözün əsl mənasında, rəzil duruma düşüb. Əslində, erməni adlı varlığın, erməniliyin acı faciəsi yaşanır. Məsələyə insanlıq halı baxımından yanaşdıqda isə durumun dramatikliyini göstərən daha fərqli mətləbləri düşünürsən. İstər-istəməz, sual edirsən: bir millət niyə bu günə düşsün ki?

Cavablar çoxdur. Onları bəzən ayrı-ayrı ermənilərin yanaşmalarında da görmək mümkündür. Nəzərə alaq ki, hadisə və proseslərə konstruktivlik məcrasından boylanan ermənilər də az deyil. Belələri baxışlarını özlərinin sosial şəbəkə hesablarında yayır, düşüncələrini bölüşürlər. Amma, nədənsə, səsləri saxta vətənpərvərlərin səslərinin yanında tam eşidilməz durumdadır, millətin ümumi ab-havasına təsir göstərmək gücündən uzaqdırlar.

Çünki xəstəlik erməni cəmiyyətinin canına-qanına o qədər dərin işləyib ki, ona əlac yoxmuş kimi görünür. Adını xatırlamadığım erməni ictimai xadimlərindən birinin sözü idi ki, xəstəliyin candan çıxması üçün genefond yenilənməlidir. Həmin şəxs bir qədər də irəli gedərək, xalqın “formatlanması” baxımından kütləvi qırğının vacibliyini də bildirmişdi. Deməli, başqa əlac yoxdur, ifrat mütləqdir. Nə qədər qəddar görünsə də, gerçək durum budur. Obrazlı desək, reallıq ondan ibarətdir ki, hazırda erməni cəmiyyəti özünü qaşınan buynuzunu çobanın çomağına sürtən keçi kimi aparır. Belə görünür, bu toplum 44 günlük müharibənin yaşatdığı acınacaqlı durumdan da ibrət götürməyib.

Hazırda Qazaxın dörd kəndinin Azərbaycana qaytarılması fonundakı haray-həşir salmaq artıq mənasız səhnələrdir. Erməni toplumu, nəhayət, nəticə çıxarmalıdır ki, bir daha özgə torpaqlarına göz dikməsin, insan kimi mehriban qonşuluq şəraitində yaşamağı öyrənsin. Axı, ermənilərin azərbaycanlılarla normal ömür sürdükləri, xoş keçindikləri dövrlər də olub. Özü də yaxın keçmişdə. Olmazdımı ki, hər şey elə həmin keçmişdəki kimi qalaydı? Görünür olmazmış. Çünki sağalmaz xəstəlik bütün produktivliyi, həyat elementlərini sıradan çıxarır.

Yaşlı nəslin nümayəndələri sabiq Sovet İttifaqı dönəmində ermənilərin Azərbaycanda yaşayışlarını təsvir edəndə deyirdilər ki, Bakının mərkəzindəki bütün yaxşı evlər onların olub. Ən yaxşı vəzifələrdə ermənilər çalışıblar. Ancaq sonradan daha böyük iddialara qapılıb, yemək yedikləri qaba tüpürmək yolunu tutublar. Bununla bağlı ermənilərin özlərinin də etirafları var.

Bir neçə il əvvəl, daha doğrusu, 44 günlük müharibədən əvvəl Tbilisidə onlardan biri ilə söhbətləşmişdim. Bildirdiklərini təəccüblə qarşılamışdım. O, təxminən belə demişdi: Bizim nəyimizə lazımdır Qarabağ?! Bakı əlimizdə idi, onu itirmişik. Sonra ardınca bunları da demişdi: Bakıda əsl dostumuzu, səmimi qonşumuzu, uşaqlığımızı, bizi həyata bağlayan bütün dəyərləri qoyub çıxdıq. Onun dərdini içinə çəkərək ağır-ağır sual etməyi də yadımdan çıxmır: Nəyə görə? Hansı səbəbə?

Bəli, xəstə erməni cəmiyyəti indi də bilmir nəyə etiraz edir. Qazaxın kəndlərindən çıxmaq istəmir. Guya, evləri imiş, guya ki, doğma yurdlarından ayrılmaq ağır gəlirmiş! Otuz ilə yaxın müddətdə dinc azərbaycanlıları doğma el-obalarından didərgin salıb qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur qoyan bir dövlətin vətəndaşı olduqlarını unudurlar, deyəsən. Unutmasınlar! Unutmasınlar ki, sonradan həmin dövlətdə vəzifə tutanlar hazırda Ermənistan adlanan ölkənin müxtəlif yerlərində tarix boyu yaşamış bir türk toplumunun deportasiyasında iştirak ediblər. Xidmətlərinə görə mükafatlandırılıblar da. Bunu “başımıza gələn başlarına gəlməlidir” prinsipinə əsaslanıb demirik. Ancaq ilahi ədalət var!

İstənilən ədalət üçün insan faktoru önəmlidir. İnsanı rifaha daşımayan ədalətin gözü kordur. Bu gün ədalət erməni cəmiyyətinə münasibətdə özünün kor tərəfini işə salıb. Çünki Allahın da səbr kasasının daşdığı anlar olur. Erməni toplumu özünün qövm təfəkkürünə “sadiqliyi ilə” iki yüz il ərzində bugünkü acı aqibətə doğru yön aldı. Hər cür naqisliyə, şərəfsizliyə yol verdi. Qurduğu xam xəyallar naminə qaniçənliyə, cəlladlığa haqq qazandırmaq formulları düşündü. Təəssüf ki, hazırkı erməni cəmiyyəti həmin cəllad və qaniçənlərin təfəkkürlərindəki mücərrədlikdə nəinki boğulur, hətta can verir.

Bu gün Ermənistan cəmiyyətində yaşananlar, bütövlükdə, dünya erməniliyinin ağır tənəzzülündən xəbər verir. Durum özünü ən sərt reallıqlarla göstərir. Ancaq bir daha deyək ki, ondan nəticə çıxaranları deyil, saxta vətənpərvər libası geymişləri görürük. İkincilərin ölkəni fəlakətə, dövləti uçuruma doğru sürüklədiyi də nəzərimizdən yayınmır. Qazaxın dörd kəndinin Azərbaycana qaytarılmasına etiraz səhnələrində də fəlakətin inamlı ayaq səsləri duyulmaqdadır. Nəzərə alaq ki, qaytarılmalı olan yalnız dörd kənd deyil. Deməli, erməni cəmiyyəti fəlakətin ayaq səslərindəki təpiyə də hamilə durumdadır. Hələ fəlakətin zopası da var.

## Ədalətin zəfəri



# Heydər Əliyevin Kremlə əzəmətli qayıdışı

*Rafael HÜSEYNOV,*
*Milli Məclisin deputatı, akademik*

**Yol həmişə xatirədir, bizi dünənə bağlayan yaddaşdır, amma böyük yollar həm də daim insanı gələcəyə qovuşduran körpülərdir. İki dövlətin başçısı, vaxtilə yüksək hökumət və dövlət vəzifələri tutmuş şəxslər, sürdükləri şərəfli əməkçi ömrünə görə şöhrət qazanmış insanlar Kremldə toplaşaraq yuvarlaq bir ildönümünü qeyd edirlərsə, təbii ki, bu, sıradan olan hadisə sayılmaz. Ancaq 2024-cü il aprelin 22-də Moskvada baş tutan o görüş həm iqtisadi və siyasi siqləti baxımından göründüyündən də əhəmiyyətlidir, həm də fəlsəfəsi ilə çox düşündürücüdür.**

Baykal-Amur Magistralının 50 illik yubileyi ilə bağlı dəmir yolu sahəsinin veteranları və işçiləri ilə keçirilən həmin qeydetmə bir tərəfdən keçmişə nəzər salmaq idisə, o biri yandan və bəlkə də daha artıq, sabahlar haqqında fikrə dalmaq məqsədi daşıyırdı.

Bunu elə sözə başlayan kimi Rusiya dövlətinin başçısı Vladimir Putin də dedi, Azərbaycan lideri İlham Əliyev də.

Bir vaxtlar Sovet İttifaqının dörd bucağından olan iki milyon insanın birgə zəhməti ilə tikilib-qurulmağa başlanmış bu magistral indi müstəqil Rusiya dövlətinə məxsusdursa da, mahiyyətcə XXI əsr və yeni minillik üçün qlobal logistikanı müəyyən edən layihədir, dünyanın ən böyük dəmir yolu arteriyalarından biri kimi dünəndən və indidən də çox gələcəyin yoludur.



Keçən əsrin səksəninci illərində indi Kremldə həmin toplantıda görüşənlərin az öncə qalxdıqları pillələrlə, irəlilədikləri dəhlizlərlə böyük azərbaycanlı Heydər Əliyev də addımlamışdı: hər gün bura işə gəlib, işdən getmişdi, ocağkı dünyanın iki ən qüdrətli dövlətindən birinin – Sovetlər Birliyinin rəhbərlərindən olmuşdu.

Həmin günün qeyri-adiliyi bir də ondaydı ki, müstəsna şəxsiyyət Heydər Əliyev bütün əzəməti ilə yenə, 1980-ci illərdə olduğu kimi, Kremldə idi və sadəcə bayram ovqatlı mərasimə dəvət olunmuş qonaqlardan biri kimi yox, əsl ev sahibi, bayramın yiyəsi, öndər kimi qayıtmışdı.

Yuxarı başda Rusiya Federasiyasının və Azərbaycanın bayraqları sıralanmışdı.

Söz yox, Azərbaycan dövlətinin birinci şəxsi İlham Əliyev də həmin məclisdədirsə, ölkəsinin bayrağının orada dikəlməsi qanunauyğun və məntiqli görünməlidir. Ancaq bayrağımız həmin məclisdə bir yox, üç idi, axı! Deməli, Azərbaycan həm də məzmunca, bu mərasimin əsas iki ev sahibindən biri idi. Yüksəksəviyyəli bu görüşə həmin çəkini və rəngi verən, Azərbaycanı bu tarixi mündəricəli ildönümündə iki əsas iştirakçıdan birinə çevirənsə, Heydər Əlyevin adı, xatirəsi, parlaq izi idi.

Onun böyüklüyü həmişə görünür. Dünən görünürdü, bu gün dünənkindən daha çox dərk edilir, vaxt ötdükcə indikindən də artıq hiss ediləcək. Həmin gün bu böyüklüyün bir daha milyonların gözü önündə cilvələndiyi saatlar yaşanırdı...

...O görüşdə, Prezident İlham Əliyev ifadə etdiyi həqiqətdən BAM-çıların da gözəlcə agah olduğunu vurğulayaraq söyləyirdisə ki, atası Heydər Əliyev 1984-cü ilin iyununda 10 gün ərzində Bratskdan Vladivostoka və Naxodkaya qədər yolu çətin şəraitdə, demək olar ki, piyada qət edib, BAM-çılarla sevinci və kədəri bölüşüb, dübbədüz deyirdi, tam haqlı idi.

Hər sözün yükünü, çalarlarını duyan Prezident İlham Əliyev bunları deyəndən sonra dərhal əlavə edirdisə ki, ayaqla, müxtəlif nəqliyyat vasitələri ilə gedib, anlatmaq istəyirdi – bilirəm, bu uzunluqda yolu elə əvvəldən-sonacan yeriyə-yeriyə getməyib; bunları bilə-bilə yenə “piyada gedib” söyləyirdisə, mühüm bir həqiqətə işarə vururdu və həmin anlarda başqaları sonacan duymasalar da, onu dinləyən, həmin əzablı yolları keçmiş köhnə BAM-çılar hər şeyi yaxşı başa düşürdülər.

Aydın məsələdir ki, sovet dövlətinin ali idarəedicilərindən biri, Siyasi Büronun üzvü buralara təşrif gətirmişdisə, onun rahat iş şəraiti, asudə irəliləməsi üçün hər şərait irəlicədən tədarük edilmişdi. Heydər Əliyev səfəri əsnasında bu məntəqədən o məntəqəyə qatarla da gedirdi, təyyarə ilə də, vertolyotla – dikuçarla da, arada yeraltı yollardan keçməkçün məxsusi hazırlanmış vaqonetkalardan da istifadə edirdi. Əlbəttə, yeri düşdükcə digər inşaatçılar kimi, rezin çəkmələr, su keçirməyən iş paltarı geyərək daşlı-kəsəkli, sulu-palçıqlı məsafələri piyada da adlayırdı. Bütün bunlar – həmin narahat kilometrlərin hər qarışının necə keçilməsi gözlərinin qarşısında baş verən, indi ixtiyarlaşmış, həmin günləri xatırladıqca könüllərini xiffət bürüyən, doluxsunan veteranlar Heydər Əliyevin o vaxt sadəcə irəliləmədiyinə, geridə qoyduğu yolların onun içərisindən keçdiyinə şahid idilər. Əgər məhz belə olmasaydı, Heydər Əliyev vur-tut onca gün çəkən səfəri əsnasında elə həmin yerlər kimi donmaqda olan inşaata yeni vüsət verə, çıxış yolu tapa, dirçəlişə nail ola bilməzdi.

Heydər Əliyevin məqsədə və hədəfə doğru, sözün məcazi mənasında, piyada – can yandıraraq, çətinliklərdən, əzab-əziyyətdən çəkinməyərək, usanmadan, nəticəyə nail olanadək dayanmadan irəliləməsi ona cavanlığından xas məziyyət idi. Pərvərdigarın bağışladığı çoxcəhətli istedad, qabiliyyətlər öz yerində, Ulu öndərin həyatı boyu digər üstünlüyü və onu tanıdığımız HEYDƏR ƏLİYEVə çevirən başqa vacib keyfiyyət də gördüyü işə, ona həvalə edilən vəzifəyə daim ifrat məsuliyyət və fədakarlıqla yanaşması, bütün varlığı ilə bağlanması oldu.

Dünya miqyaslı bir layihənin – BAM-ın yarım əsrlik ildönümünə həsr edilən görüşdə dünya liderlərindən olan Vladimir Putin danışırdı, keçilmiş yolu, görülmüş işləri dəyərləndirirdi və bu qiymətləndirmədə ən ucada dayanan azərbaycanlı (!) Heydər Əliyevin adı idi: “Bütün BAM inşaatçıları yaxşı bilir, – Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində Baykal–Amur Magistralının tikintisinə rəhbərlik edir və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmirdi. Bu işdə ona böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətləri, ilk növbədə çalışdığı insanlara qayğıkeş, hörmətli münasibəti kömək etdi və o, bu nəhəng problemləri həll edə bildi. O özü BAM-ın obyektlərində oldu, inşaatçılarla, yeni qəsəbə və şəhərlərin sakinləri ilə söhbət etdi. Necə deyərlər, rahatlıqla ona yaxınlaşa, problemlərini danışa, cari məsələləri müzakirə edə bilərdin”.

Rusiya Federasiyasının Prezidenti, digər iştirakçılar danışırdılar, hər birinin nitqindən o müdrik insanın, o tarixi şəxsiyyətin adı sayğı ilə, məhəbbətlə keçirdi və Prezident İlham Əliyev də dinləyirdi. Mən o sözləri eşitdikcə fərəhdən duyğulanırdım, hər dəfə bayrağımızı yüksəklərdə dalğalanan görəndə içərimdən keçən riqqətlə eyni olan həyəcanlı hissləri yaşayırdım və həmin anlarda məndən, mənim kimi düşünə bilən çoxlarından da neçə qat artıq qürurunsa Oğulun – dövlət başçımızın ürəyindən keçdiyi qənaətindəydim.

Heydər Əliyev yenə Kremldə idi, yenə Azərbaycanı, millətimizi böyük, uca göstərə bilirdi, yenə xalqına, dövlətinə xidmətini davam etdirirdi (Prezidentimizin həmin görüşdəki bu sözləri ilə də tam şərikəm: “Heydər Əliyev amili dövlətlərarası münasibətlərimizdə həmişə mühüm rol oynayıb və oynayacaqdır”).

Yarım əsr öncə – Baykal–Amur Magistralı Ümumittifaq tikintisi elan edilərək ümid və inamla işə başlananda Heydər Əliyev Azərbaycanda idi, respublikaya rəhbərlik edirdi və SSRİ-nin hər tərəfindən olduğu kimi, bizdən də əksəri komsomolçu gənclərdən ibarət inşaat dəstələrinin o azman quruculuq meydanına göndərilməsini təşkil edirdi. O çağlar mətbuat durmadan bu haqda yazırdı, mən həmin dövrdə universitet tələbəsi idim, Azərbaycan Televiziyasında hazırladığım “Yaşıdlarımız” verilişinin iki buraxılışını BAM-çı gənclərimizə həsr etmişdik, bir sözlə, tikintinin romantikası hər yerdə geniş təbliğ olunmaqdaydı. Amma qədimlərdə Misir ehramlarının hay-küylə, təmtəraqla başlanmış tikintisi günlərin birində həlli tapılmayacaq qədər ağır əngəllərlə üzləşib yerində saymağa başladığı sayaq, 1980-ci illərin əvvəllərində BAM-dakı əski romantika da nisbətən səngiməyə, qarşıya çıxmış aşılması çətin olan maneələr ciddi sıxıntılar doğurmağa başlamışdı. Ancaq bütün dünyaya car çəkilmiş, sovet giqantomaniyasının təzahürlərindən olan bu layihəni heç vəchlə yarımçıq qoymaq olmazdı.

BAM artıq həm də siyasət, ideologiya mövzusu idi və nəyin bahasına olursa-olsun tikintini vəd olunmuş vaxtda başa çatdırmaq lazımdı. İnşaat işləri gəlib-gəlib Severomuysk tunelində dirənmişdi. Dağın altından 15 kilometr yarımlıq tunel çəkilməli idi, zatən, çəkilişinə də başlayıblarmış, ancaq qəfilcə aşkar olur ki, sən demə, tədqiqatlar və layihələndirmə düz aparılmayıb, buradan yeraltı çay axır, hər tərəf selləmə sudur, işi davam etdirmək mümkünsüzdür. Məsələ Siyasi Büroda müzakirəyə qoyulur və məhz o zaman bu açılmaz kimi təsir bağışlayan düyünü çözmək, belə ağır yükü çiyinlərinə götürmək SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əlievə tapşırılır.

Heydər Əliyevtək hər məşğul olduğu məsələnin ən dərinlərinə qədər getməyi sevən, başqalarının təqdim etdiyi arayışlara arxayınca bel bağlamayaraq, işin qara-qurasından qorxmayan bir inadcıl şəxsiyyət olmasaydı, yəqin ki, BAM-n tikintisində o vaxt ortaya çıxmış dərin böhran ağır fəsadlarla nəticələnərdi. Heydər Əliyevlə birgə Muyska o vaxt əlaqədar sahələrin 4 sovet naziri də yollanmışdı. Heydər Əliyev özü əsl vəziyyəti gözü ilə görüb dəqiq qərar çıxara bilməkçün uzunboğaz çəkmələrdə suyu iti dağ çayı kimi axan tunel boyu xeyli irəliləyir. Kostyumda-qalstukda, xudmani kabinetlərdən telefonla göstərişlər verməyə alışmış 4 nazirin də Siyasi Büro üzvünün, bilavasitə tabeçiliyində olduqları Nazirlər Soveti Sədrinin birinci müavininin bu hərəkətindən sonra başqa çıxış yolları qalmır, onlar da düşürlər Heydər Əliyevin ardınca, dizəcən suyun-lehmənin içində Heydər Əliyevlə birgə düz 8 saat yerin altında bütöv bir iş gününü başa vururlar. Yuxarı qalxanda əldən düşərək şil-küt olmuş müşayiətçilərindən fərqli olaraq, iş gününü yeni başlayırmış kimi şux görünən Heydər Əliyev zarafat edir: “Hə, bəs bizi qarşılayan gül-çiçək dəstələriniz hanı? Axı mən bu gün dünya rekordu vurmuşam, 4 naziri yerin altına aparmışam!”

Heç vaxt unudulmayacaq 22 aprel günündə vaxtilə SSRİ nəqliyyat tikintisi nazirinin müavini işləmiş, son 25 ildə Rusiya Federasiyasının 54 regionundan 50 mindən çox veteranı birləşdirən “BAM Birliyi” ictimai təşkilatına rəhbərlik edən Yefim Vladimiroviç Basin xəyalən qayıtmışdı 40 il geriyə: “Heydər Əliyev məni tikintisi o vaxt cədvəldən geri qalan Kodar tunelinin vəziyyətini öyrənmək üçün iki baş idarənin rəisi ilə birlikdə vertolyotla həmin əraziyə göndərdi. Obyektin işə salınmasına cəmi altı ay qalmışdı. Biz tunelin sonuna çatmağa müvəffəq olduq, geri qayıdanda isə onun tavanı çökdü. Məsələ orasındadır ki, tunel daimi donuşluq şəraitində inşa edilmişdi. Təəssüf ki, tuneli inşa edənlər qazma işlərində irəliləsələr də, tunelin çuqun tubinqlər qoyulması işində yubanmışdılar. Təbii ki, biz vəziyyət barədə Heydər Əlirza oğluna məlumat verməli olduq. Gözləntilərimizin əksinə olaraq, o, yaranmış vəziyyəti sakit şəkildə qəbul etdi. Təkcə bunu dedi: “Yaxşı, burada Kodar tunelinə gedən kəsə yol inşa etmək lazımdır”. Yadımdadır, Heydər Əlirza oğlu 15 kilometrlik tunelin girişinin necə çəkildiyini qiymətləndirmək üçün Severomuysk tunelinə enmişdi. Bundan sonra o, mürəkkəbliyinə görə unikal olan bu obyektin inşası ilə bağlı ən aktual məsələlərin həll olunduğu böyük bir iclas keçirmişdi”.

Heydər Əliyevin bütün həyat yolunun nüvəsində fəhlə əməyi, alın təri durur. Elə BAM-a səfər etdiyi günlərdə də həmin ömür tempi ilə çalışmasaydı, o cür dar macalda belə qəlizdən-qəliz məsələlərə əncam çəkilməsinə nail ola, sanki açılmaz zənn edilən qapılara anidən ən zəruri açarları tapa bilərdimi?

Bir ucunda gecə düşəndə o biri başında səhər açılan SSRİ-nin hər bir şəhər-kəndinə hər gün nizamla çatdırılan, tirajı on milyon yarımı aşan “Pravda” qəzetində o vaxt Heydər Əliyevin BAM səfəri ilə bağlı xəbərlər dərc edilmişdi. Zəmanənin salnaməsidir, qalır. Ancaq canlı şahidlərin hərarətli xatirələrinin oyatdığı macəralı filmə bənzəyən gerçək tarixi mənzərəni xəsis qəzet xəbərləri necə yarada bilər?

O çağlarda xeyli gənc olmuş, indi atasının böyük yolunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyev də Kremldə köhnə BAM-çıları dinlədikcə həmin günlərə qayıtmışdı və artıq evdə müşahidə etdiyi özgə təfərrüatları nəql edirdi: “Bunu da xatırlayıram ki, o, qayıdanda yalnız sovet dövlətinin həyata keçirə biləcəyi tikintinin miqyasından deyil, ilk növbədə ən çətin şəraitdə, bəzən daim donuşluq içində olan keçilməz meşələrdə, yolsuzluq şəraitində həyatlarını riskə atan BAM-çıların fədakarlığından təsirlənmişdi. Çünki bu insanlar, demək olar ki, hər gün şücaət göstərərək, möcüzələr yaradaraq, sovet dövlətinin və bu gün isə həm Rusiyanın, həm də qonşu ölkələrin gələcək inkişafının müqəddəratını əvvəlcədən təyin edərək, uzun illər – 50 il və ya daha çox müddət ərzində həm regional, həm də beynəlxalq əməkdaşlığın inkişafı işinə xidmət edəcək unikal infrastruktur nümunəsi yaratmağa müvəffəq olublar”.

Prezident belə deyirdi, amma həmin məclisdə can yiyələri – BAM-lı şahidlər də vardı, onlar da danışırdılar və artıq yaşa dolmuş, ahıllaşmış həmin mətin insanlar da o günlərin axarındakı Heydər Əliyevi unutmamışdılar, üstündən bu qədər müddət sovuşandan sonra da ilk növbədə onun insanlığını, həssas davranışlarını anırdılar.

Bilavasitə işin içində olmuş, sonralar iki dəfə Rusiya Federasiyasının nəqliyyat yolları naziri işləmiş köhnə BAM-çılardan biri Gennadi Fadeyev elə həmin duyğulu nöqtələrə diqqət yönəldirdi. Deyirdi ki, mənə “BAM nədir” sualı veriləndə, adətən, belə cavab verirəm: “BAM insanlar deməkdir. BAM tikinti sərəncamlarını imzalayan, tikinti üçün birbaşa şərait yaradan, təbii ki, tikinti işlərini görən insanlar deməkdir”.

Heydər Əliyev Kremldən o yerlərə zabitəli, sadə inşaatçılarla arasında nəzərəçarpacaq məsafə saxlayan yüksək çinli məmur kimi yox, ən əvvəl qayğıkeş, həssas bir insan kimi gəldiyindən dərhal da rəğbət qazanmışdı, hamı ilə isinişmişdi və ona görə də üstündən dörd onillik ötərkən Gennadi Matveyeviç hər şey dünən baş veribmiş kimi, səmimiyyətlə danışırdı: “O, insanları çox sevən şəxsiyyət idi. O, kilometrlərlə deyil, tonlarla deyil, talelərlə, BAM-çıların bu və ya digər müddət ərzində işlədiyi şəraitlə maraqlanırdı. O, heyrətamiz rəhbər idi. Yalnız hansısa yekun məqamda o, təkrarən zəruri mövzuya yenidən qayıdar, işin daha səmərəli olması üçün sabah nə ediləcəyini və digər məsələləri düşünərdi”.

Heydər Əliyev – Kreml təmsilçisi ora, əlbəttə ki, məhz işləri yoluna qoymaq üçün göndərilmişdi və o çağların amiranə inzibatçılıq ənənələrinə görə, işin lazımınca irəli getməsindən ötrü rəhbər, sözünü hökmlə başlayıb əmrlə qurtarmalı idi (Şura hökuməti ayaq üstə durandan fəhlə-kəndli hökuməti olduğunu iddia etsə, guya, insanın onunçün ən ali dəyər olduğunu car çəksə də, yaşanmış tarixdən bilirik, axı, məqsədlərinə çatmaqçün yüz milyonlar və milyonlarla adamı uf demədən zavala uğratmaq onun əlində su içmək kimi asan iş idi). Ancaq Heydər Əliyev bu baxımdan da həmişə istisnalardan oldu. Elə BAM-da da hər kəs onu ilk təmaslardanca özlərininki bilmişdi, ürəyinə yaxın tutmuşdu, çünki onda insanlıq görmüşdülər. Elə olmasaydı, canlı şahid bir belə vaxt ötəndən sonra belə ürəkdən danışardımı?

Heydər Əliyevin ömür yolunu indi, həmin şanlı hekayət tamamlanandan sonra əvvəldən-sona seyr və təhlil edərkən, baxırsan ki, elə bil, İlahi cazibə ilə hər şeyin cizgisi öncədən çəkilibmiş, bu ömürdə BAM da hökmən olmalı imiş.

Şərqi Sibir və Uzaq Şərqdən keçib gedən 4.324 kilometr uzunluqlu Baykal–Amur Magistralı tarixə çoxdan dünyanın ən nəhəng dəmir yollarından biri kimi daxil olub. Miqyasları ilə dünyadakı digər nəhənglərdən biri sayılsa da, bir cəhətdən hər halda müqayisəsizdir – tikintisində müxtəlif xalqlardan olan bir belə insanın iştirakı ilə inşa edilmiş bu irilikdə dəmir yolu magistralı tarixdə olmayıb, çətin ki, bundan sonra da ola. Buryatiya, Zabaykalye diyarı, Yakutiya, Amur vilayəti, Xabarovsk diyarından keçən Baykal–Amur Magistralı gedib Tayşetdə qurtarır və o son dayanacaq Azərbaycan insanına doğma bir ünvan kimi tanışdır. Əslində, o yerlərin hamısı bizə, eləcə də keçmiş Sovet İttifaqında yaşamış çox isana qəlbən yaxın torpaqlardır. Bizə həmin ərazilər yalnız ona görə məhrəm gəlmir ki, ta qədimdən yaxın-uzaq qohum-əqrəbamızın – türklərin məskun olduğu ərazilərdir, yer-yurd adlarına türkcəmizin doğmalığı və şirinliyi hopub. O yerləri bizə və bir zamanlar dünyanın ən qüdrətli dövlətlərindən olmuş SSRİ xalqlarının əksərinə əziz edən həm də budur ki, daimi buzlaqlar məskəni həmin ucqarlarda on və yüz minlərlə ən seçmə övladların, böyük şəxsiyyətlərin həyatı tamamlanıb. Dahi Hüseyn Cavidin Bakıya, doğmalarına son məktubları da o əlçatmaz uzaqlardan yetişib. Bir vaxtlar o yerlər ucu-bucağı görünməyən sovet həbs düşərgələri ilə zığ verirdi və həmin gedər-gəlməzlərə də oğrudan-quldurdan daha çox Şura hökumətinin “xalq düşməni” damğası vurduğu parlaqlar – əsilzadələr, köklü-köməcli nəsillərin yetirmələri, görkəmli partiya və dövlət xadimləri, sərkərdələr, alimlər, şairlər, sənət xadimləri... göndərilirdi. Səbəbsiz deyil ki, çox sonrakı əyyamların məşhur Baykal–Amur Magistralının tikintisinə də tarixin və taleyin kinayəsi ilə, əslində, qorxunc NKVD-nin – Daxili İşlər Xalq Komissarlığının əmri ilə müdhiş 1937-ci ilin 1 sentyabrında başlanmış, çox keçmədən həmin işlərə 150 mindən artıq dustaq cəlb edilmişdi.

Yəni artıq 1980-ci illərdə iftixarla və açıqca Ümumittifaq tikintisi adlandırılan bu dəmir yolunun bünövrəsi geniş kütlələrə bildirilmədən, məxfi şəkildə saxlanılaraq elə əvvəlindən sovet xalqlarının müştərək inşaatı kimi qoyulmuşdu.

Bir zamanlar mən Hüseyn Cavidin İrkutsk vilayəti, Tayşet rayonu, Şevçenko kəndindəki həbs düşərgəsində saxlanılarkən orada adına açılmış cinayət işini vərəqləmişdim. İnsan həyatını məhv etməkdə pərgar olan Sovet hökuməti insanların məhvedilmə tarixçəsi ilə bağlı sənədləri də heyrətli bir səliqə ilə onillərcə qoruyub saxlayıb. Qəlb ağrısı ilə baxırdım ki, dünyaya gözəlliklər yaratmaqçün gələn Cavid orada – Sibir qürbətlərində hansı gün işə çıxırmış, neçə saat işləyirmiş, hansı gün xəstəliyi səbəbindən işə çıxmayaraq həbs düşərgəsinin tibb məntəqəsində qalası olurmuş. Qeydiyyatlar bunca sahmanlı aparılmışdı. Həmin arxivlər hamısı indi də qalmaqdadır, bu gün də qaldırılarsa, aydın olar ki, Baykal–Amur Magistralının tikintisinə o illərdə müxtəlif xalqların qiymətli, adları tarixə həkk olunan, əksərinin ömrü elə oralarda bitən nə qədər övladı qatılıbmış.

Dünyanın qəribə işləri, təsəvvürəsığmaz və izahsız cazibələri var. Hüseyn Cavid siyasi repressiya qurbanı olmuş və həyatı Sibir qiyamətində tamamlanmış, həm də çala qazılaraq içərisinə cəsədlər doldurulan ortaq məzarlıqlardan birində deyil, hansısa xoşbəxt təsadüf üzündən fərdi qəbirlərə gömülmüş on minlərlə sabiq siyasi məhbus arasında yeganə insan idi ki, sovetin qılıncının dalı da, qabağı da kəsən vaxtlarda nəşi Vətəninə qaytarılıb ana torpağa gömüldü və bu misilsiz vətəndaşlıq qeyrəti nümunəsi sayılası qeyri-adi hünərin də müəllifi unudulmaz Heydər Əliyev oldu.

Büsbütün yeni zaman içində artıq tamam təzə məzmun qazanaraq 1970–1980-ci illərdə tikilən Baykal–Amur Magistralı isə daha 1930-cu illərdəki kimi zillətli deyil, Sovet İttifaqının dörd bucağından minlərlə insanın, daha çox da gənclərin cəlb edildiyi, bir çoxlarınınsa elə könüllü üz tutduğu möhtəşəm quruculuq meydanı idi.

Böyük Heydər Əliyevə həmin fövqəllayihədə də pozulmaz imzasını qoymaq qismətmiş. Həm də bu imza yalnız minnətdar xatirələrdə, BAM-ın tarixi ilə bağlı yazılan məqalələrdə, kitablarda qalmır, coğrafiyaya da keçib – Baykal–Amur Magistralının 1181-ci kilometrində, bir vaxtlar elə Azərbaycandan olan cavanların inşa etdiyi, elə o vaxtlarda memarlığında Heydər Əliyevin təklifi ilə bizim milli ornamentlərdən istifadə edilmiş Anqoya vağzalı indi Ulu öndərin adını daşıyır.

Dünya dəyişib, Sovet İttifaqı və ona bağlı çox mətləblər dünənə çöküb, unudulub. Ancaq tarixdə qalmaq haqqı olan heç bir böyük xidmət hafizədən silinmir və əvvəl-axır qiymətini alır – vağzallar o yerlərdir ki, həmişə insanlıdır və hər gün də, qatarlar gəlib-getdikcə adları ucadan dilə gətirilir. Beləcə, illərdir ki, Zabaykalyedə, Vətənindən min kilometrlərlə uzaqda qatarlar gəlib dayandıqca, yola düzəldikcə Heydər Əliyevin adı hamının eşidəcəyi ucalıqda səslənməkdə, nurlu şəxsiyyətin ömür qatarı oralarda da yolunu davam etdirməkdədir.

...Görən, 1984-cü ilin iyununda Sibirdə olduğu günlərdə 2 il öncə, 100 yaşının tamamında, buralarda dünyaya gözlərini yummasından 41 il ötərkən məsud etdiyi, əbədi həsrətdən qurtararaq Vətəninə qaytardığı dahi Hüseyn Cavid unudulmaz Heydər Əliyevin yadına düşmüşdümü?

Bu solmaz misralar Cavidin yadigarıdır:

***Bəxtiyarsan əgər çəkdiyin əmək***
***Cahan sərgisinə versə bir çiçək.***

Çəkdiyi əməklər Vətən və cahan sərgisinə bir deyil, çox çiçəklər bağışlamış unudulmaz Heydər Əliyev, əlbəttə ki, bəxtiyardır və həmin gün də – 2024-cü ilin 22 aprelində bütün əzəməti ilə yenidən qayıdaraq Kremli təzədən fəth edərkən, əlbəttə ki, xoşbəxtlərin xoşbəxti idi!

**23 aprel 2024**

# Milli Məclisin plenar iclası

**Aprelin 23-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi. İclasının gündəliyi qəbul edildikdən sonra deputatlar cari məsələlərlə bağlı fikirlərini bildirdilər.**



Çıxış edənlər Qazaxın işğal altında olan 4 qeyri-anklav kəndinin Azərbaycana qaytarılması ilə əlaqədar aprelin 19-da keçirilmiş Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının səkkizinci görüşündə əldə edilmiş razılığı yüksək qiymətləndirdilər. Sonra deputatlar Prezident İlham Əliyevin aprelin 22-də Rusiya Federasiyasına səfəri çərçivəsində Baykal–Amur Magistralının inşasına başlanmasının 50 illiyi münasibətilə keçirilən görüşə münasibət bildirərək qeyd etdilər ki, dünyanın ən böyük dəmir yolu xələrindən biri olan bu nəhəng layihənin gerçəkləşməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərnin qədirbilənliklə yad edilməsinu xalqımız öyünc və məmnunluqla qarşıladı.

Spiker gündəliyə 18 məsələnin daxil edildiyini bildirdi. Beynəlxalq sazişlərin təsdiqi ilə bağlı ilk 3 qanun layihəsi, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirə olunaraq üçüncü oxunuşda qəbul edildi. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanun layihəsi müzakirədən sonra ikinci oxunuşda qəbul edildi.

Spiker növbəti 3 qanun layihəsinə Aqrar siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrində baxıldığını qeyd etdi. Müzakirələrin sonunda qanun layihələri birinci oxunuşda qəbul olundu. Sonra "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edildi.

Gündəlikdəki digər məsələlər də müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul edildi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Əlcəzairli deputatlar Azərbaycan parlamentində



**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikası Xalq Milli Assambleyasının Milli müdafiə komitəsinin sədri, Əlcəzair–Azərbaycan dostluq qrupunun rəhbəri Qarbi Abdelbasetin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Spiker bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin tamam olduğunu xatırladaraq, Azərbaycan – Əlcəzair münasibətlərinin hazırkı səviyyəsinin məmnunluq doğurduğunu bildirib. Prezident İlham Əliyevin 2022-ci ilin noyabrında Əlcəzairə səfərinin dost ölkələrimiz arasında əlaqələrin inkişafında tarixi mərhələ olduğu vurğulanıb. S.Qafarova Əlcəzairin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində fəal iştirakını da yüksək qiymətləndirib. Söhbət zamanı Azərbaycanla Əlcəzair arasında iqtisadi, mədəni, təhsil sahələrində əlaqələrin genişləndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Əlcəzair paralmenti nümayəndə heyətinin rəhbəri Qarbi Abdelbaset Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi münasibəti ilə də təbriklərini çatdırıb.O qeyd edib ki, Qoşulmama Hərəkatı çərçivəsində əlaqələr ikitərəfli münasibətlərin inkişafı üçün geniş imkanlar yaradıb.

Söhbət zamanı, həmçinin bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının–COP29-un ölkəmizdə keçirilməsinin önəmi vurğulanıb.

Həmin gün Milli Məclisin Azərbaycan–Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri də Qarbi Abdelbasetin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.

***Ə.BƏDƏLOV***
***XQ***

# Baş prokuror Sabunçuda vətəndaşları qəbul edib

**Aprelin 23-də Baş prokuror Kamran Əliyev Sabunçu rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Sabunçu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Qəbulda iştirak edən 116 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# "Laçın" buraxılış məntəqəsinin qurulması sərhədlərimizin tam bərpası oldu





**Aprelin 23-də "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması, bununla da Azərbaycanın dövlət sərhədlərinin tam bərpası tarixi hadisəsinin birinci ildönümü münasibətilə Dövlət Sərhəd Xidməti aparatında, struktur qurumlarında və hərbi hissələrində silsilə tədbirlər keçirilib.**

Tədbirlərdə sərhədçilər tərəfindən Laçın–Xankəndi yolunun başlanğıcında dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması, fəxarət rəmzimiz olan dövlət bayrağının qaldırılması barədə Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevə məruzə edilməsi böyük qürur hissi ilə vurğulanıb.

Dövlətimizin başçısının "Laçın–Xankəndi yolunun başlanğıcında dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququnun və ərazi bütövlüyünün təmin olunmasının ifadəsidir" deməklə bu tarixi hadisəyə yüksək qiymət verməsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

"Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyətə başlaması nəticəsində Xocalıda və işğal altında olan digər ərazilərdə cinayət törətmiş bəzi terrorçuların saxlanılaraq istintaqa təhvil verilməsi təmin edilib.

Sonda "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qurulmasının ildönümünə həsr olunmuş film nümayiş etdirilib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2024-cü ilin may ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Əhmədov Əli Cavad oğlu | 2 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 3 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Əmiraslanov Azər Kamal oğlu | 7 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 27 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 10 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 13,23 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 14,24 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 15 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 16 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 17 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 20,29 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 21,30 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 22 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 8,31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan xarici işlər naziri Çexiyada



**Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov Çex Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Petr Fiala ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan və Çexiya arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, habelə postmünaqişə dövründə regional vəziyyət müzakirə olunub.

İki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar, humanitar və s. sahələr üzrə strateji tərəfdaşlığın məmnunluq doğurduğu, bununla belə əlaqələrin daha da genişləndirilməsi üçün mövcud potensial və imkanlardan istifadə olunmasının zəruriliyi qeyd olunub.

Görüşdə, eyni zamanda ölkəmizin COP29 sədrliyi barədə ətraflı məlumat verilib, habelə iki ölkə arasında COP29 çərçivəsində əməkdaşlıq imkanları müzakirə edilib. Alternativ enerji sahəsində ölkəmizin prioritetləri, Avropa ölkələri ilə əməkdaşlıq planları diqqətə çatdırılıb, Çexiya ilə də əməkdaşlıq imkanlarının olduğu bildirilib.

C.Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə regiondakı cari vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa, yenidənqurma və minatəmizləmə işləri, o cümlədən, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi barədə ətraflı məlumatlandırıb. Çex şirkətlərinin bərpa-quruculuq işlərində iştirakı üçün geniş potensial və maraq diqqətə çatdırılıb.

Regionda sülh və sabitliyin bərqərar edilməsi istiqamətində tarixi şəraitin mövcud olduğu bildirilib. Bu çərçivədə, delimitasiya komissiyasında əldə olunmuş razılığa əsasən Ermənistan işğalı altında olan 4 kəndimizin qaytarılmasının əhəmiyyətli addım olduğu diqqətə çatdırılıb.

***

**Həmin gün Ceyhun Bayramov Çex Respublikasıın xarici işlər naziri Yan Lipavski ilə də görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüşlər zamanı Azərbaycanla Çexiya arasında siyasi, iqtisadi, enerji, humanitar və digər istiqamətlər üzrə əməkdaşlıq məsələləri müzakirə olunub, son regional və beynəlxalq inkişaflar barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan–Çexiya strateji tərəfdaşlıq əlaqələrinin beynəlxalq hüququn norma və prinsiplərinə, bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və dəstək kimi təməllər üzərində qurulduğu bildirilib.

Cari ildə ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycan–Çexiya tərəfdaşlığı üçün əlavə imkanlar yaratdığı diqqətə çatdırılıb.

***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda peşə kursları

**Böyük Qayıdış proqramına uyğun olaraq Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün peşə kurslarının təşkil olunması işlərini davam etdirir.**




Qurumun mütəxəssisləri Qarabağ və Şərqi Zəngəzur üzrə artıq 100-dək şəxsi peşə kurslarına cəlb edib. Onlara kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrində əmək bazarının tələblərinə uyğun peşələr üzrə bilik və bacarıqlar öyrədilir. 6 aylıq ödənişsiz kursları bitirənlərin işlə təmin olunmasına da dəstək göstəriləcək. Bundan sonra 121 nəfər üçün də belə kursların təşkili nəzərdə tutulur.

Həmin kurslara DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya sosial.gov.az saytındakı "Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı" bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# “Əsrin müqaviləsi”nin “Dərinsulu Günəşli” zirvəsi




**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi çərçivəsində həyata keçirilən layihələrin hər biri ölkəmizin şanlı neft salnaməsinin yeni öyünclü səhifələrinə çevrilib. “Əsrin müqaviləsi”nin “Dərinsulu Günəşli” zirvəsi də milli neft sənayemizin infrastruktur imkanlarının genişləndirilməsində müstəsna rol oynayıb. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) məlumatına əsasən, (AÇG) yataqlar blokunun “Dərinsulu Günəşli” platformasından indiyədək, təqribən, 640 milyon barel neft hasil edilib.**

SOCAR-ın “Dərinsulu Günəşli” platformasının istismara verilməsinin 16-cı ildönümü münasibətilə hazırladığı videoçarxda platformanın 2008-ci il aprelin 22-də istifadəyə verildiyi, həmin qurğudan indiyədək 638 milyon bareldən çox neft və 18,2 milyard kubmetr səmt qazı hasil olunduğu qeyd edilib. Eyni zamanda, platformadan orta gündəlik neft hasilatının 2023-cü ilin sonuna 67,3 min barel təşkil etdiyi vurğulanıb.

Məlumat üçün bildiririk ki, “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin istismarı “Əsrin müqaviləsi”nin yataqların tammiqyaslı işlənməsinin “Faza-3” layihəsi çərçivəsində həyata keçirilir. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin tammiqyaslı işlənmə layihəsi ilə bağlı qərar isə konsorsium iştirakçıları tərəfindən 2001-ci il avqustun 30-da qəbul edilib. Bu, “Əsrin müqaviləsi”nin uğurla reallaşdırılmaqda olan ilkin neft layihəsindən sonra atılmış ən mühüm addım idi. Xatırladaq ki, tammiqyaslı işlənmə layihəsinin üç mərhələdə reallaşdırılması nəzərdə tutulurdu. Belə ki, “Faza-1” və “Faza-2” layihələri müvafiq olaraq “Azəri” yatağının mərkəzi, şərq və qərb hissələrinin istismara cəlb edilməsini nəzərdə tuturdusa, “Faza-3” layihəsi “Günəşli” yatağının dərnlikdə yerləşən hissəsini (Dərinsulu Günəşli) əhatə edirdi.

“Günəşli” yatağının dərinsulu hissəsindən neft və qaz hasilatının həyata keçirilməsini nəzərdə tutan “Faza-3” layihəsinin sanksiyalaşdırılması isə “Əsrin müqaviləsi”nin 10-cu ildönümünə, 2004-cü ilin sentyabr ayına təsadüf edib. Yataqların tammiqyaslı işlənməsinin 3-cü mərhələsi, təqribən, 176 milyon ton və ya 1,25 milyard barel neftin çıxarılmasını özündə əks etdirən nəhəng işlənmə layihəsidir. Layihə çərçivəsində nəzərdə tutulmuş mühəndis-təfsilat, tikinti və quraşdırma işlərinin həyata keçirilməsi ilə əlaqədar elan edilmiş beynəlxalq tenderlərin nəticələrinə əsasən, ABŞ-ın “Halliburton International”, “Vetco Grey Controls”, “Cooper Cameron” və “McDermott”, Fransanın “BOS Shelf”, İtaliyanın “Saipem”, İsveçin “Pharmadule Emtunga AB”, Niderlandın “Mercon Steel Structures BV”, Britaniyanın “KCA Deutag” şirkətləri, eləcə də Britaniya–Türkiyə–Azərbaycan alyansı olan “Amec”/“Tekfen”/ “Azfen” və “Tekfen/Azfen” Türkiyə–Azərbaycan birgə müəssisəsi ilə ümumi dəyəri 1 milyard dollardan artıq podrat müqvilələri imzalanıb. Ümumilikdə isə, layihə üzrə planlaşdırılan tədbirlərin reallaşdırılması üçün 4,7 milyard dollar vəsait nəzərdə tutulmuşdu ki, bunun da 3,2 milyard dolları tikinti-quraşdırma işlərinə yönəldilib. Tikinti-quraşdırma işlərinin 80 faizindən çoxu Azərbaycanda, həm də yerli işçi qüvvəsindən və ölkənin mövcud infrastrukturundan istifadə olunmaqla yerinə yetirilib. Ölkə daxilindəki tikinti-quraşdırma işləri Heydər Əliyev adına Dərin Özüllər Zavodunun inşaat meydançasında, xaricdəki işlər isə “McDermott” şirkətinin Dubaydakı müəssisələrində yerinə yetirilib. Bu layihənin icrası zamanı qəzasız 30 milyon adam/saatı həyata keçirilib. Azərbaycanda həyata keçirilən tikinti-quraşdırma işlərinə cəlb olunmuş ümumi işçi heyətin 80 faizi yerli kadrlardan ibarət olub.

“Dərinsulu Günəşli” kompleksi “Günəşli” yatağının şərqində, suyun 175 metr dərinliyində yerləşir. Bu nəhəng neftçıxarma kompleksi bir-biri ilə körpü vasitəsilə birləşdirilmiş iki platformadan ibarətdir. Hasilat platforması 48 quyu gövdəsinə malik qazma, texnoloji təchizat qurğuları və yaşayış sahəsindən ibarətdir. Texniki məqsədlər üçün inşa olunmuş digər platformada isə texnoloji emal, qaz kompressor, suvurma və texnoloji təchizat qurğuları quraşdırılıb. “Faza-3” layihəsi çərçivəsində hasil edilən neftin quruya nəqlini təmin etmək məqsədilə “Dərinsulu Günəşli” platformasından Səngəçal terminalına 30 düymlük neft və 28 düymlük qaz kəmərləri çəkilib.

“Dərinsulu Günəşli” platformasında hasilat 2008-ci il aprelin sonlarında başlayıb. 2014-cü ildə platformada 7,2 milyon ton neft çıxarılıb ki, bu da ötən 16 ildə qeydə alınmış ən yüksək hasilat göstəricisidir. Həmin il burada gündəlik orta hasilat isə 145,9 min barel təşkil edib. Bütövlükdə isə, hasilata başlandığı ötən illər ərzində “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsindən 90 milyon tona yaxın neft hasil edilib.

Yeri gəlmişkən, hazırda AÇG yataqlar blokunda hasilat 7 platforma vasitəsilə həyata keçirilir. 2023-cü ildə “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan, ümumilikdə, 133 milyon barel (18 milyon ton) hasil edilib. İl ərzində burada orta gündəlik neft hasilatı 363 min barel təşkil edib.

Qeyd edək ki, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. “Yeni əsrin müqaviləsi” adlandırılan həmin sazişlə “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun 2049-cu ilin sonunadək işlənməsi nəzərdə tutulub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 16 KOB “Startap” şəhadətnaməsi alıb

**2024-cü ilin yanvar-mart aylarında 26 mikro və kiçik sahibkar “Startap” şəhadətnaməsi üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib.**




Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaydığı məlumatda bildirilir ki, Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Startapın müəyyən olunması meyarları”na əsasən, Ekspertlər Şurası tərəfindən 16 mikro və kiçik sahibkara “Startap” şəhadətnaməsinin verilməsi barədə qərar qəbul olunub. Şəhadətnamə alan sahibkarlıq subyektlərinin 11-i hüquqi, 5-i fiziki şəxsdir. Onlardan 15-i mikro, 1-i isə kiçik sahibkarlıq subyektidir.

“Startap” şəhadətnaməsi alan layihələr təhsil, ictimai-iaşə, İKT, sənaye kimi sahələrdə innovativ həlləri nəzərdə tutan onlayn platformaların, mobil tətbiqlərin yaradılması, müxtəlif cihaz və qurğuların istehsalını nəzərdə tutur. Ümumilikdə indiyədək 139 mikro və kiçik sahibkarlıq subyektinə “Startap” şəhadətnaməsi verilib.

“Startap” şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

# Güzəştli kreditin 60 faizi kəndli sahibkarlara verilib

**Cari ilin yanvar-mart ayları ərzində Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən ayrılan güzəştli kredit məbləğinin 59,9 faizi və ya 25,8 milyon manatı kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilib.**

Fondun məlumatına əsasən, hesabat dövründə kredit məbləğinin 35,5 faizi (15,3 milyon manatı) sənaye məhsullarının istehsalı və emalının, 1,6 faizi (689,6 min manatı) turizm, 3 faizi isə (1,29 milyon manatı) digər sahələrin payına düşüb.

Bu ilin yanvar-mart ayları ərzində sahibkarların 1065 layihəsinin maliyyələşdirilməsinə 43,1 milyon manat güzəştli kredit ayrılıb.



Xatırladaq ki, hesabat dövründə Fond tərəfindən 1065 layihənin maliyyələşdirilməsinə 43,1 milyon manat güzəştli kredit verilib. Kreditlərin hesabına 751 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

# Polad borular 5 dəfə artıb

**Dövlət Statistika Komitəsinin hesabatına görə, 2024-cü ilin ilk rübündə Azərbaycanda 84,4 min ton (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 67,8 ton və ya 5,1 dəfə çox polad boru) istehsal edilib.**



Xatırladaq ki, cari il aprelin 1-dək hazır məhsul ehtiyatı 54,8 min ton təşkil edib. Ötən ilin müvafiq dövründə isə bu göstərici 30,8 min ton təşkil edib. Hazır məhsul ehtiyatı illik müqayisədə 24 min ton və ya 77,9 azalıb.

***XQ***




# Bakı-Tbilisi-Ərzurumla 5,5 milyard kubmetr qaz

**Yanvar-mart aylarında respublikamızdakı magistral təbii qaz kəmərləri ilə 11 milyard 134 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 1,2 faiz artım müşahidə olunub.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 3 ayda qaz nəqlinin 50 faizi Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri - CQBK) boru kəməri vasitəsilə həyata keçirilib və bu kəmərlə təbii qaz nəqli 1,3 faiz artaraq 5 milyard 582 milyon kubmetr təşkil edib.

# 3 ayda 428 ton milli qızıl

**2024-cü ilin ilk rübündə ölkəmizdə 428 ton qızıl istehsal edilib. Dövlət Statistika Komitəsinin bu barədə məlumatında həmin göstəricinin əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,7 ton və ya 3,8 faiz çox olduğu bildirilib.**




Ölkəmizin hesabat dövründə qızıl ixracından gəlirləri 412 ton təşkil edib, hazır məhsul ehtiyatı isə 197 ton olub ki, bu da illik müqayisədə 148 ton və ya 4 dəfə çoxdur.

***XQ***

# Bakı Beynəlxalq Dəniz Limanı – Şərqdən Qərbə su qapısı

**Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş əməliyyat inzibatçısı Yucin Si “Azərbaycan-Çin münasibətlərinin yenidən qiymətləndirilməsi: İrəliyə doğru yol” mövzusunda keçirilən tədbirdə limanın baş əməliyyat inzibatçısı Yucin Si çıxışında təmsil etdiyi qurumun tam gücü ilə fəaliyyət göstərdiyini bildirərək bu infrastrukturun inşasının birinci mərhələsinin 2018-ci ildə yekunlaşdığını və bununla da onun yükaşırma həcminin illik 15 milyon tona çatdırıldığını vurğulayıb. O, eyni zamanda, limanın ikinci fazasının baş planının hazırlanmasının artıq başa çatdırıldığını və bu mərhələdə infrastrukturun ümumi yükaşırma gücünün 15 milyon tondan 25 milyon tonadək artacağını qeyd edib.**

Xatırladaq ki, 2023-cü ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında, təxminən, 7,4 milyon ton yük aşırılıb. Bu, 2022-ci illə müqayisədə təxminən 16 faiz çoxdur. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və "yaşıl həllər” tətbiq olunduğu infrastrukturun yükaşırma həcmi hər il artır. Eyni zamanda, dünyada formalaşan yeni reallıqlar fonunda tranzit ölkə kimi Azərbaycana böyük tələb formalaşıb və bu amil hesabına ölkəmizin ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına cəlb edilən yükün həcmi sürətlə çoxalır.

Tədbirdə çıxış edən Çin Beynəlxalq Araşdırmalar İnstitutunun Avropa-Mərkəzi Asiya Tədqiqatları Departamentinin elmi işçisi Kanq Cie bildirib ki, Orta Dəhliz təkcə Qərb və Şərq marşrutlarını deyil, eyni zamanda Şimal və Cənub dəhlizlərini də birləşdirir. Onun sözlərinə görə, bu layihə ölkələri zəiflətməyə yox, əksinə, regional əməkdaşlığı gücləndirməyə xidmət edir. Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi və “Bir kəmər bir yol” layihəsi Qərb ölkələrində yeni sənayeləşmə növlərinin axtarıb tapmağa kömək göstərir. Bu, həm də Azərbaycan tərəfindən yeni fiberoptik xətlərin Transxəzər ölkələrinə çəkilməsinə əlverişli şərait yaradır. Bu xətlərin çəkilməsi isə Azərbaycanda kifayət qədər rəqəmsal infrastrukturun qurulmasını və bununla ölkəmizin mühüm məlumat mərkəzinə çevrilməsini şərtləndirir.



“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin departament müdiri Xudayar Həsənlinin sözlərinə görə, cari ilin ikinci yarısında infrastrukturda konteyner terminalının tikintisinə başlanacaq və bu qovşaq Bakı və Tblisi limanları arasında müəyyənləşdirilən dövrlərdə konteyner daşınmasına imkan yaradacaq. Bu, konteynerlərin sayının artmasına da kömək edəcək.

X.Həsənli daha sonra qeyd edib ki, Orta Dəhlizin inkişafı üçün, ilk növbədə, infrastruktur imkanlarını təkmilləşdirməliyik. Əks halda, rəqəmsallaşma və aparılan digər təkmilləşdirmə layihələri Çindən daha çox yükün cəlb edilməsinə kömək etməyəcək. Təbii ki, Bakı Limanı da infrastruktur imkanlarının təkmilləşdirilməsi ilə fəaliyyətini daha da genişləndirəcək və konteyner daşımaları sürətlə artacaq.

Artan yük həcmləri nəzərə alınmaqla hazırda ölkəmizin təşəbbüsü ilə Bakı Tblisi-Qars dəmir yolunun ötürücülük imkanlarının genişləndirilməsinə də start verilib. Ümumiyyətlə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Orta Dəhlizin çox mühüm seqmentlərindən birini təşkil edir. Buradan aşırılan yükləri, eyni zamanda, Şərq-Qərb və Şimal-Cənub marşrutlarına da istiqamətləndirmək mümkündür.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.

Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, “vahid pəncərə” prinsipi tətbiq olunur. 2023-cü ildə Orta Dəhliz vasitəsi ilə 2 milyon 750 min ton yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 86 faiz çoxdur.

Ticarət Limanı 1902-ci ildən fəaliyyət göstərən Bakı Limanının bazasında 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 16 min manat təşkil edib. Liman ilk vaxtlarda yük, neft və bərə terminallarından ibarət olub.

Dəniz ticarəti imkanlarından faydalanmaq üçün bir sıra dünya ölkələrində liman qovşağının yaradılmasına investisiya qoyulur. Azərbaycanda və ölkə xaricində liman əməliyyatları ilə yanaşı, gəmilərin müasirliyi və yükgötürmə qabiliyyətinin yüksək olması da vacib məsələlərdən biridir.

Hazırda “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin tərkibinə nəqliyyat donanması ilə yanaşı, ixtisaslaşdırılmış donanma və gəmi təmiri zavodları daxildir. Nəqliyyat donanmasının tərkibində 50-dən çox gəmi, o cümlədən 20 tanker, 13 gəmi-bərə, 15 universal quru yük gəmisi, 2 Ro-Ro və 2 Ro-Pax tipli gəmi var. İxtisaslaşdırılmış donanma isə 200-dən çox gəmidən ibarətdir.

Azərbaycanda Xəzər dənizi ilə yükdaşımaların sürətləndirilməsi və yüklərin həcminin artırılması məqsədilə gəmilər mütəmadi təmir edilir, donanma yeni gəmilərlə təchiz olunur. Məhz bütün bunların nəticəsidir ki, 2023-cü ildə dəniz nəqliyyatı ilə 1 milyard 800 milyon ABŞ dolları dəyərində 2 milyon 500 min ton yük daşınıb və bu, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 38,5 faiz və 2,5 dəfə çoxdur.

Hesabat ilində dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin həcmi isə 74 min 140 ton (33,9 faiz artım), dəyəri 168 milyon 460 min ABŞ dolları (2,8 dəfə çox), idxal olunan yüklərin həcmi 2 milyon 351 min ton (2,6 dəfə çox), dəyəri isə 1 milyard 610 milyon ABŞ dolları (35,7 faiz artım) təşkil edib.

Dünyada baş verən proseslər səbəbindən bu gün Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rolu artıb. Avrasiya məkanında mühüm geostrateji mövqedə yerləşən, zəngin iqtisadi və ticari əlaqələri olan respublikamız sözügedən infrastruktur açılandan sonra dəniz nəqliyyatının inkişafının yeni, müasir mərhələsinə qədəm qoyub. “Bir kəmər, bir yol” meqalayihənin əsas qollarından olan Bakı Limanı dünya ticarətinin və ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafına çox böyük təsir göstərib.

***XQ***

# “Erməni soyqırımı” uydurmasının gerçək üzü

## Yaxud “adımı qoyuram sənə...” həyasızlığının keçərsizliyi

**Daşnakların dənizdən-dənizə “böyük Ermənistan” dövləti yaratmaq planı Birinci Dünya müharibəsi ərəfəsində daha geniş miqyas aldı. Müharibə ərəfəsində Osmanlı dövlətinin 3-cü ordusuna rəhbərlik edən Ənvər paşa Ərzurumda hay liderləri ilə görüşündə əmin oldu ki, ermənilər müharibə başlanacağı təqdirdə Osmanlı dövlətinə xəyanət edəcəklər. Çünki çar Rusiyası gələcəkdə müharibənin nəticəsindən asılı olaraq, Osmanlı ərazisində erməni dövlətinin yaradılmasına təminat verməklə, bu ərazidə yaşayan erməniləri Türkiyəyə qarşı müharibəyə cəlb edə bilmişdi.**

Birinci Dünya müharibəsi ərəfəsində çar II Nikolayın Qafqaza gəlişi və ermənilərə osmanlılara qarşı müharibədə əməkdaşlıq təklif etməsi məsələni daha da ciddiləşdirdi. Çar Tiflisdəki nitqini: “Qoy, rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazlarında sərbəst hərəkət etsin. Qoy, erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin. Çar hökumətinin himayəsi altında qan qardaşlarınızla birləşərək, nəhayət, hürriyyət və ədalət nemətlərinə qovuşacaqsınız. Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir. Sizi əmin edirəm, arzunuz yerinə yetiriləcək!” kəlmələri ilə bitirdi.

Beləliklə, çar II Nikolayın qərəzli və təhrikedici çıxışı ermənilərin Rusiya tərəfindən Türkiyəyə qarşı müharibədə iştirakını təmin etdi. Türk torpaqlarının işğalına və əhalisinin məhv edilməsinə hazırlaşan erməni silahlı birləşmələri erməni kilsəsindən xeyir-dua aldılar.

1914-cü il noyabrın 1-də rus ordusu Qafqaz istiqamətində Osmanlı sərhədlərini keçdi. Qars, Ərdəhan və Batum uğrunda döyüşlərdə hər iki tərəf böyük itki verdi. Lakin Sarıqamış yaxınlığındakı döyüşdə bir tərəfdən sərt qış, digər tərəfdən rus ordusunun daha güclü hazırlığı türklərdən 90 min əsgər və zabitin əsir alınması ilə nəticələndi. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı kütləvi qırğın törətməsi üçün şərait yaratdı. Rus ordusunun tərkibindəki ermənilər yerli ermənilərlə birləşərək heç bir günahı olmayan yüz minlərlə dinc əhalini qətlə yetirir və onları öz dədə-baba yurdlarından didərgin salırdılar.

1915-ci ilin yanvarında Sarıqamış, 1916-cı ilin fevralında Ərzurum, martda İsfahan, apreldə Trabzon, mayda Xoy və Dilman, iyunda Ərzincan, avqustda isə Muş rus ordusu və erməni silahlı birləşmələri tərəfindən işğal edildi. Ermənilər müsəlman kəndlərini qarət edir, yandırır, əhalini fərqinə varmadan qılıncdan keçirirdilər. Dinc əhalini zorla evlərə, məscidlərə dolduraraq diri-diri yandırırdılar. Qocaları və uşaqları torpağa basdırır, hamilə qadınların qarnını yırtıb körpələri çıxarıb boğur, anaları öz balalarının ətini yeməyə məcbur edirdilər.

Kazım Qarabəkir paşa ABŞ generalı Harborda göndərdiyi məktubunda yazırdı: “Azad etdiyimiz şəhərdə dəhşətli bir mənzərə ilə rastlaşdım. Şəhərdə sağ qalmış kimsəyə rast gəlmədim. Bütün uşaqların bədənləri süngülərlə dəlik-deşik edilmişdi. Qocaları və qadınları zirzəmilərə doldurub diri-diri yandırmış, gəncləri balta ilə şaqqalayıb asmışdılar. Həmvətənlərimin bu faciəsi insanın qəlbinə dağ çəkir…”

Müharibə dövründə “Daşnaksütyun” partiyası tərəfindən hazırlanmış təlimatlar hər bir erməni əsgərinə ünvanlanmışdı. Təlimatda deyilirdi: “Osmanlı Sultanının səfərbərlik elanı ilə silah altına çağırılan ermənilər bu çağırışa uymamalı və ətrafdakı başqa xalqların da orduya qatılmasına mane olmalıdırlar:

– hansı vasitə ilə olursa-olsun silah altına alınmış ermənilər orduda fərarilik edib erməni könüllü birləşmələrinə qatılmalıdırlar;

– rus qoşunları sərhədi keçər-keçməz bütün erməni silahlı birləşmələri rus ordusuna qoşularaq Osmanlı ordusuna hücum etməlidirlər;

– cəbhə arxasında iki yaşından yuxarı bütün müsəlmanların hər vasitə ilə qətlə yetirilməsi həyata keçirilməlidir;

– müsəlmanların mal və mülkünü ələ keçirməkdə və ya yandırıb-yaxmağa tərəddüd etmək cinayətdir;

– ermənilər tərk edəcəkləri evlərini, əkin sahələrini, kilsə və xeyriyyə evlərini yandıraraq bunların müsəlmanlar tərəfindən törədildiyini bütün dünyaya yaymalıdırlar;

– rəsmi dövlət dairələrini məqsədyönlü şəkildə qızışdırmaq, Osmanlı zabitləri və jandarmaları pusquya salınaraq qətlə yetirilməlidir;

– cəbhədən yaralı qayıdan osmanlı əsgərləri öldürülməlidir;

– dinc əhali yaşadıqları ərazilərdən köçməyə məcbur edilməlidir;

– bomba və silahları emal, tədarük və ya idxal edərək bütün ermənilər silahlandırılmalıdır;

– ermənilərin törətdikləri qiyam və qətliamları müsəlmanların üstünə yıxaraq, onların xaricdə nəşr edilməsinə nail olmaq lazımdır;

- Osmanlı ərazisində müttəfiq dövlətlərin xeyrinə casusluq və yönəldici hərəkətlər edilməlidir”.

Ermənilərin yerli əhaliyə qarşı həyata keçirdikləri bu qırğınlar Osmanlı dövlətini müəyyən müdafiə tədbirləri görməyə məcbur etdi. Belə ki, 1915-ci il mayın ortalarında Van, Bitlis və Ərzurumdan erməni əhali döyüş meydanından uzaqlaşdırıldı. Bununla da türklərin rus və ingilislərə qarşı döyüşlərində ermənilərin neytrallığı təmin edildi. Eyni zamanda, Osmanlı dövlətinin hərbi rəhbərliyi türklərə və digər müsəlmanlara ermənilərə qarşı hər hansı zorakılıq törətməyi qadağan edən göstəriş verdi. 1919-cu il yanvarın 30-da Londonda çıxan “The Times” qəzeti yazırdı: “Köçürülən erməni əhalisinin gələcəkdə öz evlərinə qayıtması və əmlakına sahib durması üçün Osmanlı hökuməti tərəfindən xüsusi komissiya yaradıldı. Komissiyanın işi erməni əhalisinin siyahıya alınmasından ibarət idi. Komissiyanın sənədlərində dönə-dönə qeyd olunur ki, müharibə başa çatandan sonra erməni əhali öz evlərinə qaytarılacaqdır”.

Antantanın təbliğat maşını və erməni millətçiləri sübut etmək istəyirlər ki, Birinci Dünya müharibəsi illərində Osmanlı ərazisində bir milyondan çox erməni öldürülüb. Bunun üçün fakt kimi müharibəyə qədər Osmanlı ərazisində ermənilərin 2,5 milyon nəfər olduğu göstərilirdi. Halbuki, Osmanlı dövlətinin rəsmi məlumatına görə, müharibəyə qədər bu ərazidə 1,3 milyon erməni yaşayıb. Göstərilən əhalinin yalnız yarısı döyüş əməliyyatları gedən ərazidə yaşayırdı. Müharibə dövründə yarım milyon erməni Türkiyədən Qafqaza və başqa yerlərə köçmüş, 150-200 min erməni Qərbi Avropa və ABŞ-a mühacirət etmişdir. Ehtimal edilir ki, ölən əhalinin sayı 200 min nəfər olub. Təbii ki, bu rəqəmin içində təkcə köçürmə nəticəsində ölənlər yox, aclıqdan, soyuqdan ölənlər və itkin düşənlər də var. “The Times” qəzeti yazır: “Bu, danılmaz həqiqətdir ki, müharibə illərində Osmanlı ərazisində iki milyon türkün həyatına son qoyulub”.

Erməni ideoloqları dünyanı inandırmaq istəyirlər ki, guya, 1915-ci il aprelin 24-də Daxili işlər naziri Tələt paşa erməni əhalinin dövlət səviyyəsində qırılmasına dair yazılı göstəriş vermişdi. Bu günə qədər erməni ideoloqları həmin sənədin əslini fakt kimi heç kimə göstərə bilmirlər. Ona görə ki, belə bir sənəd, ümumiyyətlə, olmayıb.

Hayların təbliğatı ilə bağlı ingilis jurnalist Skotland Liddelin söylədiyi fikirlər necə də yerinə düşür. 1918-1920-ci illərdə Cənubi Qafqazda baş verən hadisələri yaxından izləyən S.Liddel yazır: “Ermənilər həmişə özlərinə savaş axtarırlar, təbliğatlarında bunu sıxışdırmaq kimi qələmə verirlər. Əslində, bu, onların özlərinin qazandıqları cəzadır. Daşnaklar üçün öldürülmüş erməni çox qiymətlidir. Bu ölüm hadisəsi təbliğat üçün çoxlu xeyir gətirə bilər". Skotland Liddel Nuru paşanın aşağıdakı sözlərini misal gətirir: "Ermənininin nə vaxt və necə ölməsindən asılı olmayaraq, başını məzardan qaldırır və qışqırır: mən kütləvi qırğın zamanı öldürülmüşəm".

1920-ci ildə Qərb dövlətlərinin Osmanlı imperiyasını parçalamaq planı təbliğ olunan dövrdə Aram Andonyanın “Ermənilərin kütləvi şəkildə öldürülməsi haqqında rəsmi sənədlər” adlı saxta əsəri də bir neçə dildə işıq üzü gördü. A.Andonyan bu əsərini qısa müddət ərzində Paris, London və Bostonda ingilis, fransız və alman dillərində nəşr etdirdi. Aram Andonyan bildirirdi ki, ingilis qoşunlarının Hələb şəhərinə hücumu zamanı o, Osmanlı çinovniki Naim bəylə görüşmüş və daxili işlər naziri Tələt paşanın ermənilərin kütləvi şəkildə qətlə yetirilməsi haqqında şifrəli əmrini ondan almışdır. İngilis dilində nəşr olunmuş kitabda 48 “rəsmi osmanlı sənədi” verildiyi halda, fransız nəşrində bu rəsmi sənədlərin məzmununda və sayında kəskin fərqlər mövcuddur. Andonyanın “rəsmi sənədləri” içərisində 14 şəkil verilib. Müəllifdən şəkillərin əsli tələb olunduqda, o bunları itirdiyini bildirmişdi. Andonyanın sənədlərinin saxta olduğu heç kimə sirr deyil. Çünki müəllif bu saxta sənədləri tərtib edərkən müsəlman dövlətləri üçün məcburi etiket qaydasını yaddan çıxarmış, “Bismillahir rəhmanir rəhim” sözlərini belə unutmuşdu.

İkincisi, Andonyan saxta sənədlərə tarix qoyarkən müsəlman təqvimi əvəzinə rum təqvimindən istifadə etmişdir. Andonyanın yazdığından belə çıxır ki, bu hadisə 2 mart 1916-cı ildə baş verib. Bir sözlə, Andonyanın saxtakarlığı hamıya məlum olsa da, Qərb dövlətlərinin maraqlarına cavab verdiyindən həmin böhtanlar bu gün də siyasilərin Türkiyəyə böhtan atmasına yarıyır.

Qondarma 24 aprelin uydurulmasına və onun təbliğinə kömək göstərən əsərlərdən biri də yəhudi mənşəli Frans Verfelin “Qırx gün Musa dağında” əsəridir. Əslində, müəllif sonralar dəfələrlə etiraf edib ki, bu, bədii əsərdir. Lakin erməni ideoloqları və onların havadarları qısa zaman ərzində bu əsərə tarixi don geydirərək onu dünyanın müxtəlif dillərinə tərcümə etdirərək yayılmasına nail oldular.

Əvvəla, onu qeyd etmək lazımdır ki, Frans Verfel qələmə aldığı bölgədə heç vaxt olmayıb. İkincisi, əsərdə qeyd olunan hadisələrlə bağlı müəllifin əlində heç bir sənəd də yox idi. Lakin müəllif etiraf edir ki, bu əsərin qələmə alınması üçün məlumatları ona Vyanadakı erməni dostları veriblər. Ölümünə yaxın Frans Verfel yazdığı bədii əsərin ermənilər tərəfindən böyük məharətlə saxtalaşdırıldığını təəssüflə etiraf etdi. Bunu açıq şəkildə etiraf etməkdə acizlik göstərməyin səbəbi terrorçu daşnak qüvvələrindən ehtiyat etməsi idi.

Osmanlı imperiyasını parçalamaq üçün Paris Sülh Konfransına yığışan Qərb dövlətləri 24 apreldən canfəşanlıqla istifadə etməyə başladılar. Konfransın təşkil etdiyi komissiya Osmanlı rəhbərlərinin gizli yazışmalarını diqqətlə yoxladıqdan sonra ermənilərin kütləvi surətdə qətlə yetirilməsi haqqında heç bir sənəd və əmrə rast gəlmədi. Əksinə, Avropadan gələn məmurlar belə faktla rastlaşdılar ki, köçürülən erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün Osmanlı dövləti tərəfindən onlarca əmr və göstəriş verilib.



Əslində, 24 apreldə nə baş vermişdi? Doğrudan da, Osmanlı dövlətinin daxili işlər naziri Tələt paşa 1915-ci il aprelin 24-də sənəd imzalamışdı. Həmin sənəd bu gün müxtəlif dillərdə dünyanın ayrı-ayrı arxivlərində saxlanılır. Sənəddə söhbət Osmanlının ayrı-ayrı şəhərlərində üsyana hazırlaşan erməni təşkilatlarının rəhbərlərinin həbs olunmasından gedir. Bu sənəddə söhbət erməni əhalisinin köçürülməsi və onlara qarşı soyqırımın həyata keçirilməsindən getmir. Sənəddə qeyd olunur ki, erməni komitələrinin rəhbərliyi altında Zeytun, Bitlis, Sivas və Vanda baş vermiş üsyanların təkrarlanmaması üçün üsyan rəhbərlərinə qarşı həbs qəti imkan tədbirinin seçilməsinə ehtiyac vardır. Doğrudan da, bir gün sonra – aprelin 25-də İstanbulda erməni üsyançı qruplaşmasının “Daşnaksütyun” və “Qnçaqdan” olan rəhbərliyi həbs olundu. Ayrı-ayrı vilayətlərdə isə bu həbslər bir neçə gün sonra başladı.

Amerika tarixçisi Stenford Corc Şou yazırdı: “Osmanlı ərazisində müsəlman əhalisinə qarşı ilk qırğınlar 1915-ci il mayın 14-də Van şəhərində rus ordusunun iştirakı ilə erməni dəstələri tərəfindən törədildi. İki gün ərzində şəhərin müsəlman əhalisi qılıncdan keçirilərək, onlara olmazın işgəncələr verildi. Osmanlı ərazisində rus ordusunun himayəsi altında "Erməni Van dövləti” yaradıldı. Van soyqırımından sonra erməni və rus birləşmələrinin Bitlis vilayətinə hücumları başladı. Mosula qədər böyük bir ərazi erməni daşnak qüvvələrinin işğalı altına düşdü. 1915-ci il iyulun ortalarına qədər Van ərazisinə 250 min erməni köçürüldü. Halbuki, bu ərazidə heç vaxt 50 mindən çox erməni yaşamamışdı.

1915-ci il iyulun ortalarından etibarən ermənilərin bu ərazilərdə törətdikləri cinayətlərin sayı-hesabı yox idi. İyulun ortalarından sonra Osmanlı ordusunun əks-hücumu nəticəsində geri çəkilən rus-hay ordusu ilə birlikdə erməni əhalisi də bu əraziləri tərk etməyə başladı. 200 minlik erməni əhalisi rus ordusunun müşayiəti ilə Cənubi Qafqaz istiqamətinə üz tutdu.

Birinci dünya müharibəsi illərində erməni-osmanlı münasibətlərinə dair həm obyektivlik baxımdan, həm də sənədlərin əksəriyyəti qeyri-müsəlman müəlliflərinə məxsus olduğuna görə, ABŞ Konqres kitabxanasında saxlanılan “Bristolun sənədləri” diqqəti cəlb edir. Bu külliyyatda qeyd olunur ki, “dəqiq statistik mənbələrdən məlumdur ki, 1912-1922-ci illər ərzində 600 minə yaxın erməni həlak olub. Ölən əhali türklər tərəfindən soyqırıma məruz qalmamış, soyuqdan, aclıqdan və köçürülərkən tələf olub, 1,5-2 milyon ermənin ölümü ilə bağlı iddialar fərziyyədən başqa bir şey deyil. Müharibə gedən ərazidə insanların ölümü və itkin düşməsi adi bir haldır”. Bristolun sənədlərində göstərilir ki, qeyd olunan dövrdə 2,5 milyon türkün həyatına son qoyulub. Türklərin ölümü və öldürülməsi ermənilərdən daha faciəli olub.

Bu faktlardan belə nəticəyə gəlmək olar ki, Birinci Dünya müharibəsi illərində Osmanlı ərazisində soyqırıma məruz qalan ermənilər yox, türk-müsəlman əhalisi olmuşdur.

1918-1920-ci illərdə daşnak hərbi birləşmələri tərəfindən azərbaycanlı əhaliyə qarşı həyata keçirilən soyqırımlarla bağlı kifayət qədər sənəd mövcuddur. Çox təəssüflər olsun ki, 70 illik sovet dönəmində ermənilər havadarlarının yaxından köməyi sayəsində yalançı erməni soyqırımını təbliğ etdikləri halda, bolşevik ideologiyasına sadiqliyini nümayiş etdirən Azərbaycan tərəfi xalqlar dostluğunun tərənnümü ilə məşğul olurdu. Son nəticədə ermənilər yalançı göz yaşları və riyakar təbliğatları ilə Qərb dövlətlərinin parlamentlərinə yol açdılar. 24 aprel mövzusu Qərb dövlətlərinin siyasi alverinə çevrildi. Gerçəkliyi öyrənmək üçün arxivlər yox, parlament kürsülərinə üstünlük verildi.

Qərb dövlətləri və onların himayə etdiyi nufuzlu təşkilatlar ermənilər tərəfindən işğal edilən Azərbaycan torpaqları ilə bağlı ədalətli mövqe sərgiləmədi, təcavüzə məruz qalanla təcavüzkar bərabər tutuldu. Azərbaycanın haqlı tələblərini eşitmək istəmədilər.

Beynəlxalq hüququn gücsüzlüyünü görən Azərbaycan gücün hüququndan istifadə edərək 44 gün ərzində öz tarixi torpaqlarını düşmən işğalından azad etdi.

Amma təəssüflər olsun ki,ABŞ və Fransa başda olmaqla Qərb dövlətləri ədalət hissini itirərək, Azərbaycanı öz torpaqlarını erməni işğalından azad etdiyi üçün günahkar bilir, ermənilər üçün göz yaşı tökürlər.

Burada iki məsələni xatırlatmaq yerinə düşər. Əvvəla, Qərb həmişə erməniləri şirnikləndirib, öz maraqlarını təmin edəndən sonra onları taleyin ümidinə buraxıb. Bu dəfə də belə olacaq.Sonda əli hər yerdən üzülən erməni üçün yenə də ümid yeri türk-müsəlman olacaq.Buna heç kimin şübhəsi olmasın. İkincisi, bu gün Azərbaycan bölgənin dünyanın güclü dövlətlərindən biridir. 44 günlük Vətən müharibəsi günlərində Qərb dövlətlərinin erməni sevgisi ürəklərində qaldı, onların təzyiq və təhdidləri Azərbaycana təsirsiz ötüşdü. Ali Baş Komandanın qətiyyəti, möhkəm iradəsi, əsgərinə olan inamı, xalqından aldığı dəstək Azərbaycanı istəməyən qüvvələri çətin vəziyyətə saldı.

Bu dövlətlər anlamalıdırlar ki, 90-cı illərin əvvəllərindən xeyli vaxt keçib. Bu gün öz torpaqlarını qoruyan, düşməni danışıqsız müqaviləyə imza atmağa məcbur edən əsgər və ona rəhbərlik edən Ali Baş Komandan, hər cür müasir silahlara malik, iqtisadi və hərbi cəhətdən güclü Azərbaycan var.Azərbaycanın uğurlarına heç bir qüvvə mane ola bilməz.

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor***

---

# İndi də üstümüzə Makron gəlir...

## Bu yol onu “Gələrsən, görərsən” qalasına aparır

**Gələr və görər ki, bura Afrika deyil və onun atı bu yerlərdə tez büdrəyər. Gələr və görər ki, ondan qabaq gələn “hay bacıları” bu torpaqlardan necə gediblər. Hələ də peşmandırlar və yenə də peşman olacaqlar. Fransadakı prezident seçkiləri başa çatandan sonra Emmanuel Makron da elə haylar kimi öz qələtlərinə (“qələt” ermənilərin dostu olan farsların dilində səhv deməkdir) görə peşman olacaq. Belə qələtlər Makronun fəaliyyətində nə qədər desən, var və olacaq. Çünki onun fransız xalqının adına ləkə olan “siyasi fəaliyyəti” hələ davam edir.**

... Son zamanlar həm siyasətçilər, həm də ekspertlər tez-tez təkrar edirlər ki, Qərb Cənubi Qafqazdakı maraqlarını təmin etmək üstün Ermənistandan alət kimi istifadə edir. Bu, həqiqətdir. Həm də hamının bildiyi və iri şriftlərlə yazılası HƏQİQƏT. Ancaq ortada başqa bir həqiqət də var və təəssüf ki, onu yada salmaq istəyən yoxdur.

Söhbət ondan gedir ki, Qərbdəki erməni lobbisi və diaspor təşkilatları məhz prezident Emmanuel Makrondan alət kimi istifadə edirlər. Makron, sözün həqiqi mənasında, Avropadakı “erməni elitası”nın əlində “maşa”ya çevrilib. Bəli, başqa alətə yox, məhz “maşa”ya. Çünki ermənilər yenə də Qafqazda odla oynayır, yeni münaqişə ocaqlarını alovlandırmağa çalışırlar. Ona görə də Yelisey sarayına indi başqa alət yox, bilavasitə “maşa” lazımdır ki, onu da ermənilərin simasında tapıblar. Fikrimizcə, uğurlu tapıntıdır.

Qərəz, indiki prezident Emmanuel Makron sabiq prezidentlər Fransua Mitteran və Fransua Ollandın bu ölkənin sabahı üçün atdıqları bütün müsbət addımları ayaq altına salaraq tapdalamaqda davam edir. Həqiqətən, uzaqgörən siyasətçi olan həmin liderlər Azərbaycanla münasibətləri ona görə korlamaq istəmirdilər ki, onlar SSRİ-nin çökməsindən sonra öz dövlət müstəqilliyini bərpa etmiş bu ölkənin sürətlə inkişaf edəcəyinə inanırdılar. Buna əsasları da var idi. Azərbaycanın geosiyasi imkanlarından ( yerləşdiyi coğrafi məkan) da xəbərdar idilər, təbii sərvətlərindən də, Türk dünyasındakı mövqeyindən də, İslam ölkələri arasındakı nüfuzundan da. Üstəlik, bilirdilər ki, bu xalqın SSRİ rəhbərliyində çalışmış lideri var və həmin lider Kremlin gözünün qabağında Mixail Qorbaçovu 20 Yanvar qırğınına görə cinayətkar adlandırmışdı. Mitteran və Olland bu həqiqətləri anlayırdılar. Makron isə belə təfəkkürdən məhrum olduğuna görə Azərbaycanın üstünə at sürür. Qoy sürsün!

Xatırladaq ki, Fransa Azərbaycanın müstəqilliyini 3 yanvar 1992-ci ildə – yəni müstəqillik aktımızdan heç 3 ay keçməmiş tanıyıb, iki ölkə arasında diplomatik münasibətlər isə 21 fevral 1992-ci ildə qurulub. 16 mart 1992-ci ildə Fransa Azərbaycanda, Azərbaycan isə 20 oktyabr 1994-cü ildə Fransada səfirliyini açıb. Bu faktlar göstərir ki, iki ölkə arasındakı siyasi-diplomatik münasibətlər sivil dostluq və əməkdaşlıq prinsipləri əsasında qurulmuşdu. Yeri gəlmişkən, Prezident İlham Əliyev də bir neçə dəfə bu faktları xatırlatmışdır. “Erməni əsiri” olan Makron isə Azərbaycanla münasibətdə heç bir sivil normaya istinad etmədi. Yəni musiqini (Cənubi Qafqazdakı vəziyyətə müdaxiləni) pul verənlər ( erməni lobbisi və hay diasporu) sifariş edirlər. Makron da məhz həmin musiqiyə oynayır.

Başqa bir faktı yada salaq. Azərbaycan Prezidenti Heydər Əliyev dövlət başçısı seçiləndən sonra xaricə ilk rəsmi səfərini 19–22 dekabr 1993-cü ildə həmkarı Fransua Mitteranın dəvəti ilə Fransaya etmişdi. Həmin səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq imkanlarının müzakirəsi zamanı Azərbaycan torpağında gedən müharibə və Qarabağ məsələsinə də geniş yer verilmişdi. Fransua Mitteran bildirmişdi ki, Fransa Azərbaycanın ərazi bütövlüyünü tanıyır və onu dəstəkləyir: “Əmin ola bilərsiniz ki, ehtiyac duyduğumuz sülhün tezliklə



bərqərar olmasında Fransa sizinlə yanaşı olacaq. İkitərəfli müqaviləmiz də buna sübutdur. Bu sənəd Fransa – Azərbaycan münasibətlərinin inkişafında mühüm mərhələ olacaq. Çünki o, həm ikitərəfli, həm də çoxtərəfli gələcək əməkdaşlığımızın çərçivəsini müəyyənləşdirir. Biz siyasi, iqtisadi, mədəni və elmi-texniki sahələrdə, habelə təhlükəsizliyin təmin olunması işində əməkdaşlıq etməyi nəzərdə tuturuq”.

Bəs Fransanın bugünkü prezidenti neyləyir? O, Cənubi Qafqazda sönməkdə olan münaqişənin yenidən alovlandırılması üçün Yelisey sarayının bütün imkanlarından istifadə edir. Elə bil, həmin saray ona atasından miras qalıb. Fransua Mitteran demişdi ki, biz “həm ikitərəfli, həm də çoxtərəfli gələcək əməkdaşlığımızın çərçivəsini müəyyənləşdirmişik”. Makron isə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq məsələlərində Azərbaycana qarşı tələ qurmaqda davam edir və bütün məsələlərdə uduzur. Mitteran Azərbaycanla təhlükəsizliyin təmin olunması işində əməkdaşlıq etməyi üstün tuturdu. Makron isə Azərbaycana təhlükə yaratmaqdan ötrü dəridən-qabıqdan çıxır.

Əlimizdə olan materialda oxuyuruq ki, Azərbaycan Prezidenti Heydər Əliyev 1994–1997-ci illərdə dörd dəfə Fransaya səfər etmişdir. Ümummilli liderimiz 9 may 1995-ci ildə faşizm üzərində qələbənin 50 illiyinə həsr olunmuş bayram tədbirlərində, 1995-ci ilin dekabrında Parisdə keçirilmiş “Azərbaycanın investisiya imkanları” mövzulu beynəlxalq konfransda, 10-11 yanvar 1996-cı ildə Prezident Fransua Mitteranın dəfn mərasimində iştirak etmiş, nəhayət, 13-15 yanvar 1997-ci ildə ikinci rəsmi səfəri zamanı Fransada olmuşdu.

Təkrar edirəm ki, bu faktları “əlimizdə olan” materialda oxuyuruq. Gözümüzün qabağında olan faktlar isə ondan ibarətdir ki, Emmanuel Makron dövlət başçısı seçiləndən sonra nəinki dörd və ya on dörd, hətta bəlkə də yüz dörd dəfə Azərbaycana qarşı məkrli planlar, bir çox hallarda isə tələlər qurmağa çalışmışdır. Qoy olsun. Amma anlasın ki, onun atı Cənubi Qafqazda getməyəcək. Nalları tökülüb qayıdacaq. Bunu biz də görəcəyik, ermənilər də, fransızlar da.

***İ.MİRZƏBƏYLİ***

# Xalqımızın qədim və zəngin mədəni irsi erməni saxtakarlıqlarını ifşa edir



**Aprelin 23-də Əqli Mülkiyyət Agentliyinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qərbi Azərbaycan torpaqları nədən bəhs edir" mövzusunda konfrans keçirilib. Tədbir Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə təşkil edilib.**

Konfransda çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov aprelin sonunun əqli mülkiyyət aləmində əlamətdar dövr olduğunu – UNESCO-nun elan etdiyi 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən təsis edilmiş 26 Aprel – Beynəlxalq Əqli Mülkiyyət Gününün qeyd olunduğunu bildirib. O, Azərbaycanın 1997-ci ildən Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü, 2001-ci ildən Beynəlxalq Əqli Mülkiyyət Gününü qeyd etdiyini diqqətə çatdırıb.

Agentliyin rəhbəri Azərbaycan xalqının arzusuna çatmasında, Qələbə sevinci yaşamasında, ölkənin beynəlxalq nüfuzunun artmasında, söz sahibinə çevrilməsində Prezident İlham Əliyevin müstəsna rolunu vurğulayıb.

Azərbaycanın son illərdə əldə etdiyi nəticələrin kreativliyin, innovativliyin inkişafına böyük təsir göstərdiyini bildirən Kamran İmanov 2023-cü ildə müəllif hüququ obyektlərinin qeydiyyatına aid verilən şəhadətnamələrin əvvəlki illə müqayisədə 20 faiz çox olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, ötən il "Elektron xidmət" bölməsi vasitəsilə qeydiyyatdan keçirilmiş əsərlər də 2022-ci illə müqayisədə 73 faiz çoxdur. Üstəlik, əlaqəli hüquqların obyektləri üzrə 162 ifa (2022-ci ildə 46 ifa) və 37 kompüter proqramı (2022-ci ildə 18) qeydiyyata alınıb. Eləcə də, 2023-cü ildə ixtira fəallığı 2022-ci illə müqayisədə 11 faiz artıb. İxtiralar üzrə ekspertizanın müddəti ümumi qayda olaraq 12 ay təşkil etdiyi halda, 2023-cü ildə 8-9 ay ərzində aparılıb, MDB məkanında ilk olaraq, iddia sənədlərinin 3D formatında qəbulu həyata keçirilib, hamıya əlçatanlığı təmin edən "açıq reyestr" prinsipi tətbiq edilib.

Azərbaycan nümunələrinin mənimsənilməsinin hayların köhnə adəti olduğunu bildirən professor Kamran İmanov hələ 1967-ci ildə nəşr edilmiş "Erməni folkloru" kitabına diqqət çəkib. Qeyd edib ki, orada nümunə gətirilən "Pulu-Puqi və oğrular" rəvayətini Molla Nəsrəddinin məşhur "Molla və oğru" lətifəsi ilə müqayisə etdikdə ermənilərin plagiatlıq faktı üzə çıxır: "Ermənilər Qarabağın erməni məliklərinə məxsus olması barədə yalanla yanaşı, Molla Nəsrəddinin iti zəkasının Qarabağda erməni etnosu tərəfindən "doğulduğunu" göstərməyə çalışırlar".

Agentliyin sədri, həmçinin Azərbaycan atalar sözlərinin erməni nümunələri kimi təqdim edildiyini bildirib.

Konfransın açılış mərasimində çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Əqli Mülkiyyət Agentliyinin uzun illər ərzində Azərbaycan xalqının maddi və mənəvi dəyərlərinin qorunması yolunda yorulmadan çalışdığını vurğulayıb. Qeyd edib ki, Azərbaycan həqiqətlərinin, o cümlədən Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində agentlik əlindən gələni edir.

Konfransın açılış mərasimində Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva da çıxış ediblər.

Çıxışlarda erməni millətçilərinin Azərbaycanın qeyri-maddi mədəni irsini oğurlamaları, Qərbi Azərbaycan ərazisində, eləcə də işğal dövründə həyata keçirdikləri vandalizm aktının bütövlükdə dünya irsinə qarşı cinayət aktı olduğu vurğulanıb. Erməni saxtakarlıqlarının və uydurmalarının qədim mənbələr əsasında ifşa edilməsinin vacibliyi vurğulanıb və bu baxımdan Əqli Mülkiyyət Agentliyinin və Qərbi Azərbaycan İcmasının birgə keçirdiyi konfrans yüksək qiymətləndirilib.

Konfransda Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri professor Kamran İmanovun "Qərbi Azərbaycan torpaqları qədim və klassik mənbələrdə və DNT-analiz", Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycan ərazisində müsəlman dini irsinə qarşı erməni vandalizmi" mövzusunda məruzələri dinlənilib.

Sonra AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov geniş məruzə ilə çıxış edib.

Tədbirdə, həmçinin Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru İbrahim Bayramovun "Qərbi Azərbaycan: mənəvi soyqırımı və tarixi həqiqətlər" mövzusunda, İcmanın İdarə Heyətinin üzvü, AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı Nazim Mustafanın "Erməni tarixşünaslığındakı mövcud ziddiyyətlərdən faydalanmaq yolları haqqında" məruzələri dinlənilib.

# Naxçıvan MR Nazirlər Kabinetinin hesabatı müzakirə edilib



**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Hüquq siyasəti komitəsinin iclasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim edilib.**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri Ələm Bağırov və Hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyev layihə barədə məlumat veriblər. Müzakirələrdə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli, sədr müavini Aidə Cəlilzadə, üzvlər Aidə Allahverdiyeva, Nüsrət Həsənov, Eldar Zeynalov, Qadir İbrahimov, Hacıfəxrəddin Səfərli və Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov hesabatla bağlı fikirlərini, qeyd, təklif və suallarını səsləndiriblər.

Müzakirə olunan məsələ ilə əlaqədar Hüquq siyasəti komitəsinin rəyi oxunub, Naxçıvan MR Nazirlər Kabinetinin hesabatı irad və təkliflər nəzərə alınmaqla Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

# Fetisov Jurnalistika Mükafatlarının təqdimatı

**Dünyanın müxtəlif ölkələrindən jurnalistlər arasından ən yaxşılara verilən Fetisov Jurnalistika Mükafatlarının 5-ci təqdimatı aprelin 22-də İstanbulda keçirilib.**



Təqdimat mərasimində ölkəmizi Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü, "Bayraqdar Media"nın baş redaktoru, Əməkdar jurnalist Azər Həsrət təmsil edib. O, artıq üçüncü ildir ki, Mükafatın Ekspert Şurasının üzvüdür.

Qeyd edək ki, Fetisov Jurnalistika Mükafatları ildə bir dəfə ekspert seçimi ilə dörd istiqamət üzrə verilir. Bunlar "Diqqətəlayiq araşdırma jurnalistikası", "Sülhə diqqətəlayiq töhfə", "Vətəndaş hüquqlarına töhfə" və "Ətraf mühit jurnalistikasında mükəmməllik" istiqamətləridir.

Xatırladaq ki, Fetisov Mükafatı dünya jurnalistikasında ən yüksək məbləğdə pul mükafatlarıdır.

***XQ***

# Xankəndidə "Qayıdış"ın ilk uşağı doğuldu

**Xankəndi xuntasının iflasından sonra şəhərdə normal həyat fəaliyyətini təmin edən ölkə qurumları işçilərinin ailəsində ilk azərbaycanlı körpə dünyaya gəlib.**

Şəhərdəki tibb müəssisəsində həyata göz açan oğlan uşağının ata-anası Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Qarabağ Regional Sukanal İdarəsinin Xankəndidə çalışan əməkdaşları Abbas Abdullayev və Səadət Namazlıdır.

Tibb müəssisəsindən bildirilib ki, körpənin dünyaya gəlişini həkim-mama-ginekoloq Günel İsmayıl, həkim-anestezioloq-reanimatoloq Səbinə Mehdiyeva, assistent Tünzalə Bəşirova uğurla icra ediblər. Hamiləlik müddətində Səadət Namazlının müayinələri vaxtında və diqqətlə aparılıb və onun vəziyyəti daim nəzarətdə saxlanılıb. Hazırda anaya və körpəyə zəruri tibbi xidmətlər göstərilir, onların vəziyyətləri normaldır.

Xankəndidə doğulmuş körpə soydaşımızın ata-anası oğlana Qarabağı xalqımıza qaytarmış, şəhəri separatçı xunta rejiminin tör-töküntülərindən azad etmiş qalib komandanın şərəfinə İlham adını verməyi nəzərdə tutduqlarını söyləyiblər.

Son saatda aldığımız məlumatda deyilir ki, şəhərdə ilk azərbaycanlının dünyaya gəlməsinin əlamətdarlığı və mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə gənc ailəyə Xankəndidə rahat mənzil verilib.

***XQ***



# Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının məlumatı

**Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasından AZƏRTAC-a bildiriblər ki, 2024-cü ilin Dövlət Mükafatlarına aşağıdakı işlər təqdim edilmişdir.**

## Elm sahəsində:

**1. Adil Qəribov** - "Atom-hidrogen energetikasında termo və radiasion-heterogen proseslər" - Rusiyada nəşr olunmuş monoqrafiya.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutu təqdim etmişdir.**

**2. Könül Bünyadzadə** - "Sufi fenomenologiya" - monoqrafiya (iki cilddə).

**Azərbaycan Milli Elmlər Akademiyasının Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu təqdim etmişdir.**

**3. Fatimə Mustafayeva, Nəcəf Qəhrəmanov** - "Polietilen əsasında odadavamlı kompozit materialların alınması, tədqiqi və emalı" - monoqrafiya.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Polimer Materialları İnstitutu təqdim etmişdir.**

**4. Qüdrət Kəlbəliyev, DilqəmTağıyev, Sakit Rəsulov** - "Qeyri Nyuton neftlərinin və neft dispers sistemlərinin reologiyası və mexanika sahəsində fundamental tədqiqatlar".

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti təqdim etmişdir.**

**5. İradə Hüseynova, Samirə Rüstəmova, Durna Əliyeva, Tofiq Allahverdiyev, Atabəy Cahangirov** - "Rəqəmsal və yeni genom texnologiyalarından istifadə etməklə buğdanın quraqlığa davamlılıq mexanizmlərinin araşdırılması, yeni genotiplərin yaradılması və tətbiqi".

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu təqdim etmişdir.**

**6. Nizami Cəfərov** - "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət" - kitab.

**Bakı Dövlət Universiteti təqdim etmişdir.**

**7. Natiq Cavadov, Elçin İsgəndərzadə, Hikmət Əsədov** - "Müasir hərbi döyüş sistemlərinin effektivliyinin yüksəldilməsi üzrə kompleks elmi tədqiqatlar".

**Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi təqdim etmişdir.**

**8. Mahirə Hüseynova** - "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" - kitab.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti təqdim etmişdir.**

**9. Ziyad Səmədzadə** - "XX əsrdə və müstəqillik dövründə Azərbaycan iqtisadiyyatı və onun inkişafının aktual problemləri"- silsilə əsərlər.

**Azərbaycan İqtisadçılar İttifaqı təqdim etmişdir.**

**10. Sadiq Qurbanov** - "Zamana sığmayan lider. Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi".

**Azərbaycan Dövlət İqtisad Universiteti təqdim etmişdir.**

**11. Qurban Yetirmişli, Fəxrəddin Qədirov, Səbinə Kazımova, Rafiq Səfərov** - "Azərbaycan ərazisində seysmik və geodinamik aktivliyin monitorinqi üçün rəqəmsal üçsəviyyəli texnologiya (yer səthi, səthə yaxın, peyk) sisteminin yaradılması və tətbiqi: nəticələr və perspektivlər" - 2000–2023-cü illərin elmi nəşrlər silsiləsi.

**Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzi təqdim etmişdir.**

## Texnika sahəsində:

**12. İlqar Nəzərov, Məmmədsaleh Əliyev, Rafiq Hüseynov -** "Hərbi təyinatlı sursatların istehsalı və utilizasiyası sahəsində aparılmış elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələri əsasında müasir istehsal sahələrinin yaradılması".

**Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin "Şərq İstehsal Birliyi" MMC təqdim etmişdir.**

**13. Vaqif Fərzəliyev, Həqiqət Cavadova, Əfsun Sucayev, Vasif Abbasov, Səxavət Rüstəmov** - "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" - kompleks elmi-texniki iş.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu təqdim etmişdir.**

**14. Vaqif Məhərrəmov** - "Kosmik obyektlərin infraqırmızı müşahidə texnikası" (rus dilində nəşr) "Техника инфракрасных наблюдений космических обьектов".

**Azərbaycan Texniki Universiteti təqdim etmişdir.**

## Memarlıq sahəsində:

**15. Rayihə Əmənzadə** - "Gəncə şəhərinin memarlıq salnaməsi. XII-XIX əsrlər" - kitab.

**Azərbaycan Memarlar İttifaqı təqdim etmişdir.**

## Mədəniyyət sahəsində:

**16. Vaqif Mustafayev, Azər Quliyev** - "Həyat, deyəsən gözəldir" - bədii film.

**Azərbaycan Respublikasının Kinematoqrafçılar İttifaqı təqdim etmişdir**.

**17. Sakit Məmmədov** - "Heydər Əliyev və Qarabağ"- diptix.

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi təqdim etmişdir.**

**18. Ərtegin Salamzadə, Xəzər Zeynalov** - "Təsviri sənətdə Heydər Əliyev obrazı" (ingilis dilində nəşr) - kitab.

**Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu təqdim etmişdir.**

**19. Salxab Məmmədov, Əli İbadullayev** - "Humanizmi tərənnüm edən Azərbaycan qadınları" (Fransanın Konyak şəhərində parkda Məhsəti Gəncəvinin abidəsi (2016-cı il) və Evian-le-Bən şəhərində Natəvanın abidəsi (2018-ci il).

**Azərbaycan Rəssamlar İttifaqı təqdim etmişdir.**

**20. Fuad Salayev** - "Qarabağnamə" heykəltaraşlıq kompozisiyası: Bakı şəhəri Muzey Mərkəzinin önündə ucaldılan "Səyyah" və "Müzəffər" heykəlləri.

**Azərbaycan Rəssamlıq Akademiyası təqdim etmişdir.**

**21. Eldar Mikayılzadə** - "Azərbaycan xalçası: ilmələrin rəqsi"- kitab-kataloq.

**Azərbaycan Milli İncəsənət Muzeyi təqdim etmişdir.**

**22. Mehriban Ələkbərzadə** - Son illərdə rejissorluq fəaliyyətinə görə.

**Azərbaycan Teatr Xadimləri İttifaqı təqdim etmişdir.**

## Ədəbiyyat sahəsində:

**23. Sabir Rüstəmxanlı** - "Son illərdə yaradılan silsilə əsərlər"

**Azərbaycan Yazıçılar Birliyi təqdim etmişdir.**

**24. Yunus Oğuz** - "Cığır"- tarixi roman.

**Azərbaycanda Atatürk Mərkəzi təqdim etmişdir.**

**25. Asif Mərzili (Məmmədov)** - "Sonuncu əmr" - roman.

**Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi təqdim etmişdir.**

**Dövlət Mükafatlarına irəli sürülmüş işlərlə ictimaiyyətin geniş tanış olması və müvafiq rəylərin bildirilməsi məqsədilə idarə və təşkilatlardan, ictimai və yaradıcı birliklərdən xahiş olunur ki, yuxarıda göstərilən işlərin müzakirəsini təşkil etsinlər.**

***Komissiyanın ünvanı: AZ1066, Bakı şəhəri, Lermontov küçəsi, 68.***

***Azərbaycan Respublikasının Nazirlər Kabineti. E-mail: nk@nk.gov.az***

# XİN Malayziyaya başsağlığı verdi



**Azərbaycan Xarici İşlər Nazirliyi Malayziyada Hərbi Dəniz Qüvvələrinin helikopterlərinin toqquşması nəticəsində insan tələfatının olması ilə bağlı bu ölkəyə başsağlığı verib.**

Bu barədə Azərbaycan XİN-in "X" hesabında paylaşım edilib:

"Malayziyada Hərbi Dəniz Qüvvələrinin helikopterlərinin toqquşması xəbəri bizi dərindən kədərləndirdi. Bu dəhşətli faciədə həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Bu çətin anda dost Malayziya hökuməti və xalqı ilə həmrəy olduğumuzu bildiririk".

Qeyd edək ki, Malayziyanın Lumut şəhərində paradla bağlı təlim uçuşu həyata keçirən iki helikopter toqquşub. Hadisə nəticəsində 10 nəfər ekipaj üzvü həlak olub.

Təqdimat

# “Kinocizgilər”in ekran aləmi



**Beynəlxalq Muğam Mərkəzində tanınmış yazıçı, kinodramaturq, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlunun “Kinocizgilər” adlı yeni kitabı təqdim edilib.**

Orxan Fikrətoğlu vaxtilə “Azərbaycanfilm” kinostudiyasının baş redaktoru, Dövlətlərarası MİR Teleşirkətinin direktor müavini, “Mozalan” satirik kinojurnalının direktoru vəzifələrində çalışıb. Onun ssenariləri əsasında “Ümid”, “Solaxay”, “Səs”, “Ağ kətandakı adam”, “Qız qalası”, “Ərazi”, “Yalan”, “Kəpənək”, “Borc” adlı bədii və sənədli filmlər çəkilib. “Xalça nəğməsi” filmi Birinci Beynəlxalq Yalta Kinofestivalında baş mükafata layiq görülüb.

Hazırda Mədəniyyət nazirinin müşaviri olan Orxan Fikrətoğlu, eyni zamanda, Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru vəzifəsini icra edir. 2016-cı ildə onun “Kinopovestlər”, 2017-ci ildə “Alternativ kino” kitabları çapdan çıxıb. Sənət dalğasına dəstək göstərmək naminə məhsuldar çalışan kino xadiminin bu sahədə təqdirəlayiq işləri var.

“Elm və təhsil” nəşriyyatında çap olunmuş “Kinocizgilər”in təqdimat mərasimində yazarın qələm dostları, kino və ədəbiyyat xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Kitabda Orxan Fikrətoğlunun həm tammetrajlı, həm qısametrajlı bədii və sənədli film ssenariləri, ekran həlli üçün uyğunlaşdırılmış qısa hekayələri və novellaları yer alıb. Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan 500 səhifəlik kitabda müəllifin son illərdə Türkiyədə çəkilib ekranlara çıxan ssenariləri də cəmlənib. Mərasimdə çıxış edənlər bu barədə ətraflı danışıblar. Xatırladılıb ki, Azərbaycanda kino ssenariləri barədə sonuncu kitab keçmiş SSRİ dövründə çap olunan “Rüstəm İbrahimbəyovun kino ssenariləri” olub. Bu baxımdan Orxan Fikrətoğlunun kitabını müasir Azərbaycan kinematoqrafiyasında yenilik kimi qiymətləndirmək olar.




...Tədbirdə Orxan Fikrətoğlunun ssenari müəllifi olduğu “Ərazi” filmi nümayiş etdirilib. Sonda isə müəllif yeni kitabının nüsxələrinə avtoqrafla oxuculara təqdim edib.

*Əli NƏCƏFXANLI*
*XQ*

# “Qonaq teatr”ın Sumqayıt qonağı





**Sumqayıt Dövlət Dram Teatrı “Qonaq teatr” layihəsi çərçivəsində Bakıda Aktyor evində çıxış edib.**

Öncə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov Mədəniyyət Nazirliyi ilə birgə gerçəkləşən layihənin uğurla davam etdiyini vurğulayıb, Sumqayıt teatrını özünə doğma saydığını deyib və sənət ocağının son illər maraqlı tamaşalarla çıxış etdiyini qeyd edib.

Sonra yaradıcı kollektiv teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmovun quruluşunda dramaturq Əli Əmirlinin akyor taleyindən bəhs edən “20 ildən sonra” əsərini oynayıb. Tamaşanın quruluşçu rəssamı Sevinc Həsənova, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Rollarda Əməkdar artistlər Rauf Ağakişiyev, Cəlal Məmmədov, İlahə Səfərova, Xatirə Süleymanova, aktyorlar Mətləb Səfərli, Kamran Muradlı, Məryəm Hüseynli, Etibar Əmirov çıxış ediblər.

Tamaşadan sonra ATXİ-nın sədri tamaşanın müəllifi Əli Əmirliyə Mədəniyyət Nazirliyinin Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə keçirdiyi "Qonaq teatr" layihəsində orijinal ədəbi materiala görə fəxri fərman təqdim edib. Dramaturq layihənin təşkilatçılarına və Sumqayıt Dövlət Dram Teatrının yaradıcı kollektivinə minnətdarlığını bildirib.

*Ə.ƏLİYEV*
*XQ*

Sənətdə yaşayanlar

# Güney həsrətinin musiqi harayı

**Soydaşlarımız Əli bəy Haqşünası otaylı-butaylı Azərbaycanımızın milli-mənəvi dəyərlərinin cəfakeşlərindən biri kimi tanıyıb-sevirdilər. Əfsuslar olsun ki, biz barmaqları ilə qarmonun şirmayı dillərində möcüzələr yaradan bu böyük sənətkarı, vətənsevər türk oğlunu vaxtsız itirdik.**

Əli Əhməd oğlu Haqşünas 1961-ci ildə Təbriz şəhərində, çoxuşaqlı ailədə dünyaya gəlib. Atası əslən həştərxanlı, anası gəncəli idi. 1989–1995-ci illərdə Təbrizdə Əli Fərşbafın məktəbində qarmon dərsi deyərək, bu ecazkar musiqi alətinin, zəngin xalq musiqimizin sirlərini gənclərə öyrədib. 2000-ci ildən sevimli ömür-gün yoldaşı Rübab xanımla birlikdə ABŞ-a köçüb. Özü peşəcə kondisioner mütəxəssisi olsa da, klassik musiqimizin, bəstəkar və xalq mahnılarımızın vurğunu, məşhur qarmon ifaçısı olub. Qarmonu heç bir müəllimin yanında öyrənməsə də, “Qarmon məktəbi” adlı sanballı bir kitab yazıb. Dəfələrlə Bakıda olub.

“Sənətin dili olmur”, – deyirlər. Ancaq Əli Haqşünasın sənət dünyasının musiqi dili vardı. “Nazəndə sevgilim”, “Şeir deyilmi”, “Sən gəlməz oldun”, “İntizar”, “Ayrılıq”, “Qubalı qız”, “Qarabağ”, “Muğana ceyran”, “Məktəb illəri”, “Şikayətim var”, “Külək”, “Qarşımdan bir sona keçdi”, “Aldatmayaq bir-birimizi”, “Yar məndən incidi”, “Sənsiz”, “Sevgili canan” onun sevimli ifaları idi.

Əli bəyin xatirəsinə həsr olunmuş anım gecələri təkcə doğulub boya-başa çatdığı Təbrizdə, uzun illər yaşadığı ABŞ-ın Hyuston şəhərində təşkil edilməklə yekunlaşmadı. Onun canı qədər sevdiyi Bakıda düzənlənən mərasim də yaddaqalan oldu. Tanınmış musiqiçi, virtuoz qarmon ifaçısı Xalq artisti Ənvər Sadıqovun “Renever” adlı möhtəşəm yaradıcılıq studiyasında baş tutan gecəyə Əli bəyin sənət dostları, ailə üzvləri və pərəstişkarları toplaşmışdılar.

Ənvər bəyin komandası gecənin yüksək səviyyədə alınması üçün bütün gücünü səfərbər etdi və buna nail oldu.

Atalarımızın “Zər qədrini zərgər bilər” kəlamı nahaqdan işlətmədiklərini biz o gecə bütün varlığımızla duyduq. Ənvər



bəyin, eləcə də gecənin təşkilində xüsusi fədakarlıq göstərən Təbriz əsilli sənət fədaisi Cavad bəy Həssasın, məclisin aparıcısı – sənətşünaslıq doktoru Əhsən bəy Rəhmanlının peşəkar səyləri ilə unudulmaz qarmon ifaçısının ömür və yaradıcılıq yolu tamaşaçıların gözləri qarşısında birər-birər sərgiləndi.

Sənətkarın özündən sonra qalan yadigar səs yazıları, möhtəşəm ifalarından ibarət video-çarxlar, foto-slaydların nümayişi, Əhsən müəllimin sənətkarlığına və şəxsiyyətinə yüksək dəyər verdiyi unudulmaz sənət dostunun ömür yoluna güzgü tutan açıqlamaları ilə müşayiət olunurdu.

Gecənin musiqi ərmağanı Əli bəyin sənət dostlarından gəldi. Əməkdar artist Zakir Əliyev, kamança ifaçısı Hüseyn Nağıyev, tarzən Rəşad İbrahimov, pianoçu Sevinc Kərimova, ustad Aşıq Cahangir, qarmon ifaçıları – Şəmsi Ağamalıyev, İlqar Kərimov, Nemət Hüseynov və Natiq Mirzəyev xalq musiqimizin ən gözəl örnəklərini ifa etmələri ilə gecəyə rəng qatdılar. Əli bəyin dostları Cavad Həssas və Kazıminin qəmli, amma qürur və səmimiyyət dolu çıxışları unudulmaz sənətkarın dolğun həyat səhifələrinin “oxunmasına” imkan yaratdı. Mərhum sənətkarın sədaqətli ömür-gün dostu Rübab xanımın mərasim iştirakçılarına ünvanladığı səs yazısı da hər kəsi təsirləndirdi.

Xalq artisti Ənvər Sadıqov Əli Haqşünasla həyatda cəmi bir dəfə görüşsələr də, onun vətənpərvərliyinə və insanlığına vurulduğunu dilə gətirdi, muğam, mahnı və rəqs havalarına böyük ustalıqla yeni nəfəs verdiyini söylədi. Mərhum sənətkarla illərin sınağından çıxmış dostluq xatirələrini bölüşən Əhsən Rəhmanlı mərasimə qatılan bütün sənətkarlara məharətli ifalarla onun ruhunu sevindirdiklərinə görə minnətdarlığını bildirdi, eləcə də özünün qarmon sənətini yaşadanlarla bağlı apardığı tədqiqatlardan, bugünədək yazdığı araşdırma kitablarından və gələcək planlardan danışdı.

O gecədə mənə də söz verildi və unudulmaz sənətkarın xatirəsinə həsr etdiyim “Dünya bərabəri dost itirmişik” şeirini mərasim iştirakçılarının diqqətinə çatdırdım. Elə bu qeydlərimi də Əli Haqşünasın ruhuna ehtiram əlaməti olaraq həmin şeirin misraları ilə bitirmək istəyirəm:

**Ruhu başdan-başa nəğmə seliydi,**
**İnsan aşiqiydi, yurda vəliydi.**
**Mələk xislətliydi, tutidilliydi,**
**Dünya bərabəri dost itirmişik.**

**Yaşayan bəstədi, ucalan səsdi,**
**Cənnətə üz tutan bir müqəddəsdi.**
**Heyf, ayrılmağa yaman tələsdi,**
**Dünya bərabəri dost itirmişik...**

*Qiymət MƏHƏRRƏMLİ,*
*filologiya üzrə*
*fəlsəfə doktoru*

Rəhim Rəhimov – 100

# Görkəmli onkoloqun yubileyi



**Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, “Şöhrət” ordenli Rəhim Rəhimovun anadan olmasının 100 illiyinə həsr olunmuş “Nəsillərə nümunə” yubiley konfransı keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları əvvəlcə akademik Rəhim Rəhimovun universitetin Konservatoriya binasının qarşısında qoyulmuş büstü önündə xatirə fotosu çəkdiriblər. Qonaqlar incəsənət fakültəsinin tələbə və müəllimlərinin yaradıcılığından ibarət rəsm əsərləri ilə tanış olublar. Sonra Rəhim Rəhimovun mənalı ömür yolunu, zəngin elmi və tibbi fəaliyyətini əks etdirən sərgiyə baxış olub. Sərgidə nümayiş etdirilən elmi əsərlər Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin kitabxanasına təqdim olunub.

Konservatoriya binasının akt zalında öz işinə başlayan “Nəsillərə nümunə” yubiley konfransında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransın işinə uğurlar arzulayaraq bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olunur. Elə akademik Rəhim Rəhimovun yubileyinin keçirilməsi də bu sıradandır.

Fuad Nəcəfli vurğulayıb ki, Rəhim Rəhimovun ən üstün cəhətlərindən biri yüksəkixtisaslı tibbi kadrların və gənc alimlərin hazırlanması sahəsində gördüyü işlərdir. Onun elmi rəhbərliyi ilə 2 elmlər doktoru və 12 fəlsəfə doktoru dissertasiyası müdafiə edilib. Alim onkologiya və rentgenologiyanın problemlərinə həsr edilmiş 200-dən artıq elmi-tədqiqatın, eləcə də monoqrafiyaların və patentlərin müəllifidir. Bu gün də ölkəmizdə onkoloqlar və rentgenoloqlar Rəhim Rəhimovun tədqiqatlarından mötəbər mənbə kimi istifadə edirlər. Qeyd olunub ki, alimin doğulduğu Ordubad şəhərində onun adına verilmiş küçədə “Elm parkı”nın salınması Rəhim Rəhimovun xatirəsinə dərin ehtiramın ifadəsidir.

Konfransdan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, 1999-cu ildə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə yaradılan Naxçıvan Dövlət Universitetinin tibb fakültəsi bu il 25 illiyini böyük uğurlarla qeyd edir. Bu günədək minlərlə ixtisaslı kadr yetişdirən fakültənin məzunları nəinki ölkəmizdə, dünyanın bir çox ölkələrində peşəkar həkim kimi fəaliyyətini davam etdirir. Bu gün fakültədə 2 minə yaxın gənc təhsilini davam etdirir ki, onların yarıdan çoxu əcnəbi tələbələrdir. Fakültə üçün ayrıca yeni tədris kampusu qurulur. Ərazidə 500 yerlik yeni araşdırma xəstəxanasının layihələndirilməsi aparılır. Elbrus İsayev universitetin kollektivi və tədbir iştirakçıları adından konfransın təşkilinə göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib, universitetin incəsənət fakültəsinin müəllimi, Əməkdar rəssam Cavid İsmayılovun akademik Rəhim Rəhimova həsr etdiyi portreti onun oğlu, tibb elmləri doktoru, professor Çingiz Rəhimova təqdim edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, 60 ilə yaxın Azərbaycan tibb elminə şərəflə xidmət etmiş alim həm də böyük elm və səhiyyə təşkilatçısıdır. Respublikamızda onkologiyanın inkişafında misilsiz xidmətləri olan alim bu sahənin maddi-texniki bazasının formalaşması istiqamətində əvəzsiz işlər görüb. Naxçıvanda, xüsusən də Naxçıvan Dövlət Universitetində belə bir konfransın keçirilməsi görkəmli elm xadimi, akademik Rəhim Rəhimovun nümunəsində yeni nəsil həkimlər, alimlər, elm adamlarının yetişdirilməsinə açılan bir pəncərədir.

Konfransda AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova “Akademik Rəhim Rəhimovun elmi-nəzəri və elmi-təşkilati fəaliyyəti” və Naxçıvan Dövlət Universiteti tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva “Naxçıvan məktəbinin yetişdirdiyi tibb xadimləri və davamçıları” mövzularında məruzə ediblər. Milli Onkologiya Mərkəzinin baş həkimi, tibb üzrə fəlsəfə doktoru Azad Kərimli, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyev və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi, akademik Asəf Hacıyevin çıxışları dinlənilib, akademik Rəhim Rəhimovun zəngin həyat yolundan bəhs edən film nümayiş etdirilib. Konfransda Naxçıvan Dövlət Universitetinin qabaqcıl tələbələrindən Əli Ələkbərliyə “Rəhim Rəhimov adına təqaüd” təqdim olunub.

Akademik Rəhim Rəhimovun oğlu, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb elmləri doktoru, professor Çingiz Rəhimov ailə üzvləri adından konfransın təşkilinə görə minnətdarlıq edib.

*XQ*

Təqvim yada salır

**Bu günlərdə tanınmış Azərbaycan şairi, “Ulduz” ədəbi dərgisinin baş redaktoru, Əməkdar jurnalist Qulu Ağsəsin 55 yaşı tamam olub. Yenicə çapdan çıxmış “Görsən üşüyürsən...” adlı kitabı ilə yaradıcılıq hesabatı verən şairin şeirləri oxucunu “insan–təbiət”, “insan–insan”, insan–Tanrı”, “insan–sevgi”, “insan–həyat”, insan–torpaq” münasibətlərinə fəlsəfi-poetik baxış bucağından nəzər salmağa sövq edir, işğala, müharibələrə, haqsızlığa və ədalətsizliyə qarşı üsyankar olmağa səsləyir.**

# “Ulduz”un səhifəsindən baş redaktorluğuna...

Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafa Qulu Ağsəsə yubileyi ilə bağlı məktub göndərib. Təbrikdə deyilir:

“Hörmətli Qulu müəllim! Sizi – tanınmış şair-publisisti, ictimai və ədəbiyyat xadimini 55 illik əlamətdar yubileyinizlə bağlı təbrik edir, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları diləyirəm! Çox şadam ki, builki yubileyinizi doğma Abdal-Gülablının, Ağdamın düşmən tapdağından qurtuluşunun, o torpaqlarda abadlıq-quruculuq işlərinin geniş vüsət almasının sevinci, qüruru içində keçirirsiniz.

Siz böyük ədəbiyyata 1990-cı ildə “Ulduz”da gün üzü görən şeirlərinizlə gəlmisiniz. Artıq 10 ildir ki, siz özünüz “Ulduz”un baş redaktoru olaraq gənc yazarlara mənəvi dəstək göstərirsiniz.

Şeirləriniz gürcü, ukrayna, rus, polyak dillərinə, habelə qardaş türkcələrə çevrilib. Oxucular sizin “Sənsən hər yer”, “Vitryana poşta” (“Külək poçtu”), “Nabran novellası”, “Nöqtələr”, “Yorğun ağacam”, “Görsən üşüyürsən…” və b. kitablarınızı maraqla qarşılayıb. Bakı Slavyan Universitetinin dosenti, filoloq Kəmalə Umudova sizin haqqınızda




“Adı soyadını eşidən şair – Qulu Ağsəs” adlı kitab yazıb.

Siz Azərbaycan Yazıçılar Birliyi İdarə heyətinin, Dünya Gənc Türk Yazarlar Birliyi Məsləhət Şurasının və Avrasiya Yazarlar Birliyinin üzvüsünüz. Azərbaycan Prezidentinin 2015-ci il dekabrın 30-da imzaladığı sərəncam əsasında Azərbaycanın Əməkdar jurnalisti fəxri adına layiq görülmüş, Prezident təqaüdçüsü olmuş, habelə bir sıra ictimai ədəbi ödüllərlə təltif olunmusunuz.

Sizi yaradıcılıq uğurlarınız və yubileyinizlə bağlı bir daha təbrik edir, ən xoş diləklərimi yetirirəm!”

*XQ*

Paytaxt ağrıları

# Səkilərə kim sədd çəkib?..



**Sən mənim gənclik illərimin şəhərisən, Bakı. Sənin gözəlliyin haqqında çox yazılıb, səni haqlı olaraq vəsf ediblər. Düşünürəm ki, bu doğma şəhərdən hər zaman qürurla danışmağa haqqımız var.**

Amma, əziz Bakım! Sənin bəzi küçələrini pis günə qoyan tamahkar və insafsızlara görə utanc hissi keçirirəm. Bəli, bu gün çox acınacaqlı olsa da, Bakının "işğal olunan" səkilərindən danışmaq istəyirəm.

Elə Bakı Dövlət Universitetinə gedən yoldan - səkidən başlayıram. Bu mötəbər elm və təhsil məbədi mənim üçün də doğmadır, əzizdir. Düz 5 il bu bilik ocağına ayaq döymüşəm. Ona görə də universitetə gedən yolun səkilərinin hər daşında mənim üçün ötən illərin xatirələri yaşayır. Bir vaxt bu səkilərdə, tıxacsız yollarda tələbə yoldaşlarımla uzun-uzadı dolaşmışam, xəyallar qurmuşam.

Amma son dəfə burada gördüklərim məni sarsıtdı. Burada, tələbələrin gediş-gəliş yolunda, səkilərin hasara alınmasını, bir çox hallarda artıq səkilər üstündə çox sayda dəmir- beton, metal konstruksiyaların peyda olunduğunu görəndə ürəyim ağrıdı, içim sızladı.

Bu qədərmi insafsızlıq olar? Bu ixtiyarı kim verib onlara? Hələ həyatın ağrı-acısına alışmamış gənclərin yolunu belə kəsmək olarmı? Etiraf edim ki, bizim dövrümüzdə tələbələrin yolunu belə insafsızcasına kəsən tamahkar məmurlar olmayıb.

Hayqırmaq istədim: "Ay insafsızlar, yer tapmadınızmı tikinti aparmağa? Bu səkiləri niyə dağıtmısınız? Axı bura Allahın yoludur, bura cavanların, müəllimlərin yoludur. Bura "el yoludur".

Xatırladım ki, bu qələbəlik küçə görkəmli filosof şairimiz Bəxtiyar Vahabzadənin adını daşıyır. Bəxtiyar müəllim sağ olsaydı, inanıram ki, mənim səsimə səs verərdi... Nadanlara "dayan, əlini saxla!" deyərdi.

Bu fotolara diqqətlə baxın, bu qədər ticarət obyektinə ehtiyac varmı? Əlbəttə ki, yox. Amma bu yolun işlək olmasını nəzərə almayan acgözlər nəfsləri üzündən hətta asfalt döşəməni belə bərbad hala salıblar!

Elə bir səlahiyyətli orqan tapıla bilərmi ki, cəsarət edib səkinin üstündə obyektlər ucaltmaq üçün sənədli, sübutlu, möhürlü icazə versin? Əsla. Heç kim sənəd-sübutla qanunsuz işə imzasını qoymaz. Bunların hamısı sənədsiz tikililərdir. Deməli, ortada harınlar, qanunlarımızı heçə sayanlar var! Olmaz, belə!

Səkini tutmaq, el yoluna sədd çəkmək bu qədərmi asanlaşıb? Nə vaxta qədər səkilərimiz belə dağıdılacaq, "işğal" ediləcək?!

Bu fotoları özüm çəkmişəm. Ürək ağrısı ilə çəkmişəm. Xahiş edirəm, diqqət edin. Səki boyu üç-dörd mərtəbəli ticarət obyektləri tikilib. Həqiqəti deyim ki, bu dar yollarla gələn universitet auditoriyalarına tələsən tələbələr üçün ürəyim ağrıdı. Hətta düşündüm ki, tikinti maqnatlarının "əməlləri"nə həsədlə baxan gənc nəsil fikirləşir ki, görəsən burada indi nə tikirlər? Heç "İçərişəhər"də yollar bu qədər dar deyil. Bunlarda insaf deyilən şey yoxdur! Səbəb bəllidir: Nəfs!




İmam Əli gözəl demişdir: "Nəfs insanın düşmənidir". Mənim gözəl şəhərim Bakı! Sənin səki və küçələrin hər gün, hər saat insafsız səlahiyyət sahibləri tərəfindən "işğala" məruz qalır. Biz isə susub danışmırıq, daha doğrusu, gözümüzü yumuruq...

Bəli, susduqca səkilərimiz, yollarımız, məhəllələrimiz - buradakı yaşıllıqlar, ağaclar amansızcasına məhv edilir. Bir qrup səlahiyyət sahibinin əlindəki və qolundakı güclə.



Bu özbaşınalığa, nadanlığa meydan verən kimlərdir axı? Niyə onlar bu qədər azğınlaşıb?

Kimə deyəsən bu ağrını, acını?! Axı bura Bakımızdır, paytaxtımızdır.

Görəsən, bu ərazi hansı rayonun tabeliyindədir? Əlbəttə ki, Yasamal rayonunun.

Hörmətli oxucu! Bu gün hələlik Yasamal rayonundakı səkilərin, asfalt döşəmələrin, məhəllələrdəki uşaqlar üçün ayrılan meydançaların zəbt olunması ilə bağlı faktları ürək ağrısı ilə geniş ictimaiyyətin müzakirəsinə veririk.

Amma, söz veririk ki, şəhərimizin məmur özbaşınalığına məruz qalan başqa yerlərindən də yazacağıq! Qoy heç kim özünü cəzasız hiss etməsin!

**Kəmalə ABDİNOVA**
**XQ**

# Gəncə xəbərləri

***Son vaxtlar respublikamızın ikinci şəhəri, qədim Nizami yurdu Gəncədə istifadəyə verilən müxtəlif təyinatlı nəhəng obyektlər, şəhərin ictimai-siyasi, mədəni həyatındakı köklü dəyişikliklər diqqəti cəlb edir. Gəncəlilər bütün bunları ölkə Prezidenti İlham Əliyevin qədim şəhərə xüsusi diqqəti və qayğısı sayəsində baş verdiyini bildirirlər. Bu yaxınlarda ölkə başçısının Gəncəyə növbəti səfəri, Azərbaycanda bir ilk sayılan obyektlərin – İdman Sarayının və Ekoloji Park Kompleksinin açılışlarında iştirak etməsi, şəhər stadionunun tikintisinin təməlini qoyması Gəncə sakinlərinin sonsuz sevincinə və razılığına səbəb olmuşdur. İndi Gəncənin elə bir günü yoxdur ki, bir-birindən maraqlı tədbirlər təşkil olunmasın, şəhərin həyatında mühüm yeniliklərlə yadda qalmasın. Onların bir neçəsi ilə oxucularımızı da tanış edirik.***



## Yeni kitab evi

**Şəhərdə kitabxanaçılığa, maariflənməyə yeni nəfəs gətirən "BookZone" Kitab Evinin açılışı ilə bağlı keçirilən maraqlı tədbirdə Gəncə Dövlət Dram Teatrının aktyorları ədəbiyyatımızın görkəmli nümayəndələri – dahi şair Nizami Gəncəvi və Məhsəti Gəncəvi obrazında mərasim iştirakçılarını salamlayıb, öz xeyir-dualarını veriblər.**

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov "BookZone" Kitab Evinin Gəncədə kitaba və kitabçılığa olan marağın artırılmasına samballı töhfə verəcəyinə ümid etdiyini bildirib. O qeyd edib ki, gənclərin maarifləndirilməsi baxımından belə məkanların faydası olduqca böyükdür.

"BookZone" Gəncə Kitab Evinin icraçı direktoru, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan zabit, yazıçı Mahir Hüseynov bildirib ki, əsas hədəfləri Gəncə şəhərinə yeni nəfəs gətirmək, uşaqlar, yeniyetmələr və gənclər arasında kitaba olan marağı artırmaq, Vətənini sevən, ziyalı fərdlərin yetişdirilməsinə töhfə verməkdir. O, göstərilən dəstəyə görə şəhər rəhbərliyinə və qonaqlara öz təşəkkürünü bildirib.

Açılış mərasimində çıxış edən natiqlər bildiriblər ki, Gəncə tarixən elm və mədəniyyət mərkəzi olub. Nizami yurdunda bu cür məkanların açılması olduqca sevindirici və təqdirəlayiq haldır.

Qeyd edək ki, burada klassik, dedektiv, psixologiya, fəlsəfə janrında, şəxsi inkişafa və biznesə aid minlərlə kitab yer alır. Kitab Evində kafe də fəaliyyət göstərir.

## "Yaşıl şəhər"ə doğru

**Gəncə Şəhər İcra Hakimiyyəti və Avropa Yenidənqurma və İnkişaf Bankının birgə iştirakı ilə Gəncənin "Yaşıl Şəhər Fəaliyyət Planı" ilə bağlı görüş olub.**

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qonaqları salamlayaraq bildirib ki, ölkə rəhbəri cənab İlham Əliyevin şəhərimizə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda Avropa Yenidənqurma və İnkişaf Bankının "Yaşıl şəhərlər" Proqramına ilk olaraq məhz Gəncə şəhəri qoşulub. Gəncə Şəhər İcra Hakimiyyəti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Proqrama qoşulmaya dair 3 mart 2020-ci il tarixində saziş də imzalanıb. Sazişə əsasən ilkin olaraq 3 prioritet istiqamət müəyyənləşdirilib. Bunlar bərk məişət tullantılarının idarə edilməsi, şəhərin küçə işıqlandırması sisteminin və ictimai nəqliyyatın yenilənməsidir.

Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin rəhbəri Natali Muravidze bildirib ki, AYİB Gəncənin inkişafında maraqlıdır və şəhərin infranstrukturunun yaxşılaşdırılması üçün 26 fəaliyyət istiqaməti müəyyənləşdirlib. Natali Muravidze qeyd edib ki, "Yaşıl Şəhər Fəaliyyət Planı"nın hazırlanmasına 2022-ci ilin iyul ayında başlanıb və 15 noyabr 2023-cü ildə onun yekun variantı təqdim olunub.

Sonra Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının "Yaşıl şəhərlər" Proqramı üzrə məsul nümayəndəsi Nicat Ağayev və Avropa Yenidənqurma və İnkişaf Bankının məsul əməkdaşı Real Hacıyev təqdimatla çıxış ediblər.

Gəncənin "Yaşıl Şəhər Fəaliyyət Planı"nın təqdimatından sonra iştirakçıların rəy və təklifləri dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.



## Özbəkistanın fəxri konsulluğu

**Açılış mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Özbəkistanın Azərbaycandakı konsulu Abdulaziz Voxidov, Qərb bölgəsi üzrə fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.**

Rəsmi açılışda çıxış edən qonaqlar Azərbaycanla Özbəkistan arasında daim dostluq münasibətlərinin mövcud olduğunu bildiriblər. Qeyd olunub ki, Gəncə şəhərində Özbəkistan Respublikasının Fəxri konsulluğunun açılması da öz növbəsində ölkələrimiz arasında olan münasibətlərə müsbət təsirini göstərəcəkdir. Həmçinin, bu fəaliyyət Gəncə ilə Özbəkistanın şəhərləri arasında iqtisadi və mədəni əlaqələrin qurulmasında faydalı olacaqdır.

Çıxışlardan sonra rəsmilər Fəxri konsulluğun binasına baxış keçirib, burada yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, Özbəkistanın Gəncədəki Fəxri konsulu Kənan Cəlilovdur. Şəhərin Təbriz küçəsində yerləşən konsulluğun fəaliyyətə başlaması Qərb bölgəsində yaşayan Özbəkistan vətəndaşlarının rəsmi işlərini asanlaşdıracaqdır.

## Görkəmli bəstəkarın yubileyi

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatlı, "Şərəf nişanı" və "Şöhrət" ordenli Süleyman Ələsgərovun 100 illiyinə həsr olunmuş konsert proqramı keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, bəstəkarın nəvələri, Əməkdar artistlər Tahir İmanov və Cabir İmanov, idarə, təşkilat, müəssisə rəhbərləri və şəhər sakinləri iştirak ediblər.

Bəstəkarın əsərlərindən ibarət konsert proqramı tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Qeyd edək ki, Süleyman Ələsgərovun 100 illik yubileyinə həsr olunmuş konsert proqramı Mədəniyyət Nazirliyinin dəstəyi, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının, Azərbaycan Bəstəkarlar İttifaqının, Azərbaycan Milli Konservatoriyasının təşkilatçılığı ilə "Xalqın mədəni sərvəti" layihəsi çərçivəsində keçirilib.



***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

## Qlobal risk – 8 faiz iqtisadi eniş

**İqlim dəyişikliyinin qlobal iqtisadiyyata vurduğu ziyan 2049-cu ildə 38 trilyon dollara çata bilər.**



Bu qənaətə Potsdam İqlimə Təsirin Tədqiqat İnstitutunun alimləri gəliblər və onların araşdırması "Nature" jurnalında dərc olunub.

Beləliklə, qlobal iqtisadiyyat 19 faiz daralma riski ilə üzləşir. İtkilər qlobal istiləşmə sürətinin azaldılması xərclərindən altı dəfə çoxdur. Eyni zamanda, əsas təhlükə Yer kürəsində temperaturun yavaş yüksəlməsindən deyil, təbii fəlakətlərdən - meşə yanğınları və qasırğalardan qaynaqlanır.

Ekspertlərin fikrincə, iqlim dəyişikliyi təkcə milli hökumətlər və iri şirkətlər üçün deyil, həm də ayrı-ayrı şəxslər üçün iqtisadi problemlərə təhlükə yaradır. Problemlər ən çox Afrika və Cənubi Asiya ölkələrinə təsir edəcək.

**XQ**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti
ASCO-nun tabeliyindəki idarələrə tələb olunan linoleum və onun aksesuarlarının satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 29-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Sumqayıt Tikiş" ASC səhmdarlarının nəzərinə!

8 iyun 2024-cü il saat 13.00-da "Sumqayıt Tikiş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin idarəetmə orqanlarının 2023-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. "Sumqayıt Tikiş" ASC-nin idarə heyətinin sədrinin və digər idarəetmə orqanlarının seçilməsi.
3. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinə aid materiallarla tanışlıq üçün iş günləri ASC-nin rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Nəzərinizə çatdırırıq ki, ASC uzun müddət fəaliyyət göstərməmiş və hazırda da fəaliyyət göstərmir. Bu barədə keçmiş Vergilər Nazirliyinin müvafiq rəsmi sənədi vardır.

Ünvan – Sumqayıt şəhəri, kottec, 24-cü məhəllə, 1-ci keçid 38 A. ASC-nin inzibati binası.

*İdarə heyəti*

"Bakıtikişsənaye" ASC səhmdarlarının nəzərinə!

12 iyun 2024-cü il saat 16.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri,Həsən Əliyev küçəsi 1008 –ci məhəllədə keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2023-cü il üçün illik maliyyə hesabatı .
2. Dividendlərin verilməsi.
3.Sair məsələlər.

Əlaqə telefonları- (012) 440-02-43.

*Direktorlar şurası*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 82 (30486) 24 aprel 2024-cü il, çərşənbə

# Bakı dünyanın idman paytaxtı olmağa layiqdir!

## Azərbaycan paytaxtı 2026-cı ildə bu adı daşımağa namizəddir

**Aprelin 21-də Milli Gimnastika Arenasında keçirilmiş mətbuat konfransı gözəl paytaxtımızın, bütün Azərbaycanın idman həyatında mühüm hadisəyə həsr olunmuşdu. Konfransda Bakının 2026-cı ildə dünyanın idman paytaxtı olması üçün namizədliyi irəli sürülmüşdür. Əlbəttə ki, xoş təşəbbüsdür. Bakıya belə yüksək etimad göstərilərsə, idman təşkilatlarımızın birgə səylə, vahid komanda şəklində onu şərəflə doğruldacağına şübhə etməmək olar. Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında və daha neçə-neçə mötəbər yarışda məhz belə olmuşdur.**








Mətbuat konfransında Avropanın İdman Paytaxtları Federasiyasının (ACES) baş katibi Huqo Alanso Kastanonun bildirdiyi kimi, Bakının dünyanın idman paytaxtına namizədliyi 12 kateqoriyaya əsasən irəli sürülüb və bu kateqoriyaların hər biri 100 ballıq şkala üzrə qiymətləndiriləcək. Bakı, ən azı, 80-dən artıq bal toplamalıdır ki, 2026-cı ildə dünyanın idman paytaxtı kimi təsdiqlənsin.

Əgər geriyə boylanıb, arxada qalan illəri, həyata keçirilmiş böyük işləri, qazanılmış yüksək nüfuzu xatırlasaq, bunun məhz belə olacağına inana bilərik. Ölkəmizdə, ilk növbədə də Bakıda keçirilmiş yarışların bütün istiqamətlər üzrə lazımi səviyyədə təşkil olunduğu, paytaxtımızın qonaqlarının hər dəfə Azərbaycanı zəngin təəssüratla tərk etmələri haqqında söylədikləri fikirlər yaddaşımızdan hələ silinməyib.

"Bakı-2015" birinci Avropa Oyunlarından o qədər də çox vaxt keçməyib. Azərbaycan paytaxtının idman bazalarının qitənin 50-dən çox ölkəsinin ən yaxşı atletlərinin gərgin mübarizə meydanına çevrildiyi günlərdən bizi 9 illik zaman kəsiyi ayırır. Həmin 2015-ci ilin yayından Azərbaycan tarixdə Avropa Oyunlarının vətəni kimi yaşayır və bu adı fəxrlə daşıyır. Əzəmətli Olimpiya Stadionunda, Heydər Əliyev adına İdman Sarayında, "Tofiq Bəhramov"da, Milli Gimnastika Arenası, Bakı İdman Sarayı, Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı və digər idman qurğularında ela səviyyədə təşkil olunan yarışlardan sonra ümumi rəy belə olmuşdu ki, bu startların təşkilində Bakı elə bir yüksək həddi müəyyənləşdirib ki, hələ uzun müddət o səviyyəyə çatmaq mümkün olmayacaq.

Belə fikirləri nüfuzlu mütəxəssislər, beynəlxalq federasiyaların prezidentləri, milli olimpiya komitələrinin rəhbərləri bildirmişdilər. Yadımdadır, onda Rusiya Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukov "Bakı-2015"i ümummilli layihə adlandırmış və bütün Azərbaycan xalqının bu layihənin həyata keçirilməsi işində çox fəal iştirak etdiyini söyləmişdi. İspaniya Milli Olimpiya Komitəsinin prezidenti Alexandro Blanko isə hələ yarışlar başlanmazdan əvvəl Bakıda Avropa Oyunlarını mühüm tarixi hadisə adlandırmışdı.

Birinci Avropa Oyunları kimi, IV İslam Həmrəyliyi Oyunları da çox mötəbər hadisə idi və Azərbaycan paytaxtının idman tarixində özünə layiqli yer etmişdir. "Bakı-2015"-dən cəmi iki il sonra, 2017-ci ilin mülayim may günlərində təşkil edilib, islam ölkələrinin ən yaxşı idmançılarının dostluq və həmrəylik bayramına çevrilən İslamiadanın da yüksək səviyyədə keçirilməsi hamıda rəğbət hissi yaratmışdı. Bakı və bakılıların qonaqpərvərliyi, təşkilatçılıq bacarığı bu dəfə də bütün iştirakçı ölkələrin nümayəndələri tərəfindən layiqincə qiymətləndirilmişdi.

Azərbaycan dövlətinin və idmanının əsl zəfər marşına çevrilən I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları paytaxtımızda hətta Olimpiya oyunları səviyyəsində təşkil edilmiş çox mötəbər yarışlar idi. Bu barədə startların iştirakçılarından və qonaqlardan eşitdiyimiz fikirlər bir daha təsdiq edirdi ki, Bakıda idman həyatı cəlbedicidir və bir an belə dayanmır. Şəhərimiz təkcə ona həvalə edilən böyük beynəlxalq yarışların yüksək səviyyədə təşkili ilə fərqlənmir, həm də burada sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri, onların sağlamlıq və gümrahlıq məşğələlərindən əsl zövq almaları üçün hər cür şərait var.

Bütün bunlar isə deməyə əsas verir ki, Azərbaycan paytaxtının 2026-cı ildə dünyanın idman paytaxtı olmağa namizəd seçilməsi təsadüfi deyil. Bakı bu ada layiqli namizəddir və ona göstəriləcək yüksək etimadı şərəflə doğruldar!

Azərbaycan dövlətinin, şəxsən onun rəhbəri, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin ölkədə bədən tərbiyəsi və idmanın inkişafına göstərdiyi daimi qayğı və diqqət sayəsində bu gün Bakı dünyanın ən yaxşı idman şəhərlərindən biri hesab olunur. Ayrı-ayrı beynəlxalq federasiyaların öz çempionatlarını, olimpiya təsnifat turnirlərini, digər mötəbər yarışları paytaxtımızda keçirmək istəyi bunun bariz nümunəsidir. Deməli, Bakının 2026-cı ildə dünyanın idman paytaxtı olmağa namizədliyinin təsdiqlənəcəyi barədə xəbəri ümidlə gözləyə bilərik.

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

### Gimnastımızın İstanbul gümüşü



**Bədii gimnastika üzrə Türkiyənin İstanbul şəhərində "Bosphorus Cup" adlı beynəlxalq yarış keçirilib.**

Millimizin üzvü Sofiya Məmmədova yarışda uğurla çıxış edib. Təmsilçimiz halqa proqramında gümüş medal sahibi olub.

### "Azərreyl" Azərbaycan çempionudur



**Kişi voleybolçular arasında Azərbaycan çempionatının qalibi bəlli olub.**

Bakı İdman Sarayında keçirilən final oyununda "Azərreyl" və "Murov Az Terminal" komandaları qarşılaşıblar. Matçın əsas vaxtı 2:2 hesabı ilə başa çatdığı üçün "qızıl set" oynanılıb. Yekun nəticədə 3:2 hesablı qələbə qazanan "Azərreyl" 2023-2024-cü illər mövsümünün qızıl medallarına sahib çıxıb.

Qeyd edək ki, Yüksək Liqanın bürünc medalını MOİK-ə 3:0 hesabı ilə qalib gələn "Neftçi" qazanıb.

### Paraüzgüçümüz – qızıl + gümüş




**Azərbaycan paraüzgüçüsü Raman Saley Portuqaliyanın Madeyra şəhərində keçirilən Avropa açıq çempionatında daha bir mükafat əldə edib.**

Millimizin üzvü 100 metr məsafəyə kəpənək üzmə üsulunda uğurla çıxış edərək gümüş medal qazanıb.

Xatırladaq ki, Raman Saley bundan əvvəl çempionatda 100 metr məsafəyə arxasıüstə üzmə üsulunda da qızıl medal qazanmışdı.

***L.SABİRQIZI***
**XQ**

## Aranda duman, dağlarda yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 24-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**



Əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 14-17°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu, nisbi rütubət 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 25-30°, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacaq.

***Q. QASIMOV***
**XQ**



## Saturnda altıbucaqlı tufan

**Saturnun şimal qütbündə qeyri-adi altıbucaqlı, çoxqatlı tufan tüğyan edir. Bunu ilk dəfə 1981-ci ildə NASA-nın "Voyager" kosmik gəmisi aşkar edib.**

Daha sonra, 2006-cı ildə "Kassini" kosmik gəmisi onunla bağlı daha ətraflı təsvirlər və məlumatlar təqdim edib. Məlum olub ki, qasırğanın hündürlüyü təqribən 300, eni 29 min kilometrdir. Tufan saatda, təxminən, 320 kilometr sürətlə hərəkət edən atmosfer qazlarından ibarətdir.

Altıbucaqlının tərəflərinin uzunluğu 14,5 min kilometrdir. Bu da Yerin diametrindən 2 min kilometr uzundur! O, Saturnda ilin vaxtından asılı olaraq rəngini dəyişir, yayda qızılı, qışda isə mavi olur.

Araşdırmalar göstərir ki, Saturn kimi qaz nəhənglərinin bərk səthləri yoxdur, ona görə də onların fırlanma sürətləri mürəkkəbdir. Məsələn, Saturnun fırlanma sürəti ekvator və qütblərdən fərqlidir. Ekvatorun fırlanma sürəti 10 saat 33 dəqiqə 38 saniyədir.

Qütblərdə fırlanma sürəti bir qədər yavaş, təxminən 10 saat 39 dəqiqə 24 saniyədir. Saturnda bir gün orta hesabla 10,7 saat davam edir.

***PÜNHAN***
**XQ**

## Virusdan qorunmağın çarəsi – ud-hindi yağı



**Yazın gəlişi, bəzi çiçəklərin açması ilə bağlı insanlarda allergik xəstəliklər müşahidə olunur. Bununla yanaşı, həm də son zamanlar yayılmış virus qrip, angina kimi yoluxucu xəstəliklərin meydana çıxmasına və yayılmasına şərait yaradıb.**

Naturopat, təbii vasitələrlə müalicə ilə məşğul olan həkim Fizuli Hüseynov viruslardan qorunmaq üçün xalq təbabəti üsullarından istifadə etməyin yaxşı nəticə verdiyini deyib.

Həkim xəstəliklərdən qorunmaq üçün özünün istifadə etdiyi təbii bitki yağını açıqlayıb. Deyib ki, insanların qapalı məkanlarda, parkda gəzərkən, xəstə insanla təmasda olarkən virusa yoluxmaq üçün ən zəif yeri burundur. Çünki, bütün hallarda viruslar, bakteriyalar daha çox burun vasitəsilə orqanizmə daxil olur.

F.Hüseynov bu barədə jurnalistlərlə söhbətində fikrini belə açıqlayıb: "Mən bir həkim kimi hər gün xəstələrlə təmasda oluram. Ona görə mən viruslardan qorunmaq üçün burnuma ud-hindi yağı damcıladıram.

Küçəyə, bazara, insan çox olan yerlərə getdikdə, siz də hər iki burun dəliyinə 1–2 damcı ud-hindi damızdırıb, viruslardan, xəstəlikdən qoruna bilərsiniz. Çünki elm artıq sübut edib ki, ud-hindi bir çox xəstəliklərin dərmanıdır".

**Z.HÜSEYNLİ**
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3881
SİFARİŞ 826
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00